## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏDƏ "İLİN DÖVLƏT BAŞÇISI" SEÇİLİB



Prezident İlham Əliyev Türkiyədə səmimi, işgüzar, uğurlu və Türkiyə dövlətinin dostu meyarlarına görə "İlin dövlət başçısı" seçilib.

Bu barədə AZƏRTAC-a Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri Bilal Dündar məlumat verib.

O bildirib ki, sözügedən seçim Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasına bağlı olan 16 bölgədə 145 vətəndaş cəmiyyəti təşkilatı tərəfindən aparılıb.

Bilal Dündar deyib ki, "İlin dövlət başçısı" mükafatı Prezident İlham Əliyevə 2019-cu ilin yanvar ayında təqdim olunacaq.

## PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR"DƏ GÖRÜLƏN VƏ GÖRÜLƏCƏK İŞLƏRLƏ TANIŞ OLUB



Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də 110 kilovoltluq "Ağ Şəhər-2" və "Bakıxanov" yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də "Ağ Şəhər" piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak ediblər, tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı "Ağ Şəhər-2" yarımstansiyasının...

Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 25 dekabr 2018-ci il, çərşənbə axşamı / № 244 (5371). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Abşeron rayonunda məcburi köçkün ailələri üçün salınmış yaşayış kompleksi istifadəyə verilib



## Prezident İlham Əliyev mərasimdə iştirak edib



## Prezidentin iş günü

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Vladimir Putin Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı qeyd edilib ki, 2018-ci il Azərbaycan-Rusiya dostluq əlaqələrinin tarixində çox məhsuldar bir il olub, dövlət başçılarının qarşılıqlı səfərləri, beynəlxalq tədbirlər çərçivəsində çoxsaylı təmaslar əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırıb. Prezidentlər öz əminliklərini bildiriblər ki, 2019-cu ildə də ikitərəfli münasibətlərimizdə müsbət dinamika davam etdiriləcək və Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Ona Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları 2018-ci ilin dostluq və qardaşlıq münasibətlərimizin daha da möhkəmlənməsi baxımından önəmli bir il olduğunu qeyd edərək bu işdə qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyətini vurğulayıb, qarşıdakı illərdə də əlaqələrimizin daha da genişlənəcəyinə əminliklərini ifadə ediblər.

* * *

Dekabrın 24-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Serbiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, Ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək, qarşıdakı illərdə də genişlənəcəyinə əminliklərini ifadə ediblər.

* * *

Gürcüstanın Baş naziri Mamuka Baxtadze dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Mamuka Baxtadze Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Ona prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri Mamuka Baxtadze ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluqlarını ifadə edib və əmin olduqlarını bildiriblər ki, 2019-cu ildə də əlaqələrimiz uğurla inkişaf edəcəkdir.




## "İLHAM ƏLİYEV. ON BEŞ İLLİK PREZİDENTLİK DÖVRÜNÜN UĞUR SALNAMƏSİ. 2003-2018" ADLI SƏNƏDLİ FİLMİN VƏ KİTABIN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Dekabrın 24-də Heydər Əliyev Mərkəzində "İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018" adlı sənədli filmin və kitabın...

Bax səh. 4

## MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ İRAN İSLAM RESPUBLİKASINDA SƏFƏRDƏ OLACAQ

Dekabrın 25-26-da Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti İran İslam Respublikasında rəsmi səfərdə olacaq.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə parlamentin komitə sədrləri Eldar İbrahimov, İsa Həbibbəyli, Hadi Rəcəbli, deputatlardan Hüseynbala Mirələmov, Şəmsəddin Hacıyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Ölkənin paytaxtı Tehranda parlament sədrinin İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, İslam Şurası Məclisinin sədri Əli Laricani, Milli Təhlükəsizlik üzrə Ali Şuranın katibi Əli Şamxani, xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşləri nəzərdə tutulub. Bu görüşlərdə iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsi, parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılacaq.

Səfər çərçivəsində nümayəndə heyətimizin üzvləri Urmiya şəhərində olacaqlar. Burada deputatlarımızın Qərbi Azərbaycan vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyarla görüşü gözlənilir.




## "MÖHTƏŞƏM QURUCULUQ: DÜNƏN, BU GÜN, SABAH"

Dekabrın 24-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Möhtəşəm quruculuq: Dünən, bu gün, sabah" mövzusunda konfrans keçirilib. Konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyasının üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Konfransda çıxış edən Azərbaycan Respublikası...

Bax səh. 5

### *Hikmət Hacıyev:* Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu xarici siyasət xətti 2018-ci ildə də davam etdirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 2018-ci ildə də...



Bax səh. 7

### Azərbaycanda sosial rifahın və iqtisadi inkişafın təminatını Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs təşkil edir

...Ölkəmizdə aqrar sahənin inkişaf etdirilməsi dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılıb və aparılan iqtisadi...



Bax səh. 8

### Güclü lider, qüdrətli Azərbaycan

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrlərindən birini yaşayır. Çoxəsrlik tariximizin heç bir mərhələsində xalqımız öz mövcud potensialını bu qədər uğurla səfərbər edərək strateji...



Bax səh. 9

### *Dmitri Savelyev:* Prezident İlham Əliyev milyonlarla azərbaycanlının arzularını reallığa çevirir

Rusiya Federasiyası Dövlət Dumasını deputatı Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: "Çox təcrübəli dövlət xadimi...



Bax səh. 10

# Abşeron rayonunda məcburi köçkün ailələri üçün salınmış yaşayış kompleksi istifadəyə verilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*





Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Sərəncama əsasən, Sumqayıt şəhəri ərazisindəki yataqxanalarda müvəqqəti məskunlaşmış 2900 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi qərara alınıb. Məhəllənin salınması üçün 50 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1000 ailənin yerləşdirilməsi üçün 17,5 hektar torpaq sahəsi istifadə edilib. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına bu ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.





Dövlətimizin başçısına məlumat verilib ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Sonra dövlətimizin başçısı və birinci xanım uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Daha sonra yaşayış kompleksində tikilən Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, bu təhsil ocağı 792 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcək. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.





Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib: **“Əziz dostlar, bu gün məcburi köçkünlərin problemlərinin həlli işində növbəti önəmli addım atılır. Biz min mənzildən ibarət yeni şəhərciyin istifadəyə verilməsini birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.**

**Çox gözəl şəhərcikdir, böyük ərazidə yerləşir. Burada iyirmidən artıq çoxmərtəbəli yaşayış binası inşa edilib. Uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik gözəl məktəb, yəni burada normal yaşamaq üçün bütün imkanlar, bütün şərait var. Bu şəhərciyin istifadəyə verilməsi bir daha onu göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bizim üçün bu, prioritet məsələdir.**

**Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılmışdır. Üç yüz minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır.**

**Bu il bu istiqamətdə çox böyük işlər görülüb. Bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilib. Artıq köçkünlərin bu evlərə, mənzillərə yerləşməsi prosesinə start verilmişdir. Bu, rekord göstəricidir. Biz hər il minlərlə köçkün ailəsini yeni evlərlə, mənzillərlə təmin edirik. Bir daha demək istəyirəm ki, bu il bu, ən yüksək səviyyədə öz həllini tapıb. Bizim vəzifəmiz ondan ibarətdir ki, bütün köçkün ailələri normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə böyük işlər görülür, həm Bakı şəhərində, Abşeron rayonunda, Sumqayıt şəhərində, həm də digər şəhər və rayonlarımızda. Son illərdə yüzdən çox köçkün şəhərciyi tikilib istifadəyə verilmişdir. Ancaq o da həqiqətdir ki, hələ də çətin vəziyyətdə yaşayan köçkünlərimiz var. Onların problemləri də öz həllini tapacaq. Hazırda Dövlətqaçqınkom bu istiqamətdə öz işini davam etdirir, siyahılar dəqiqləşdirilir və növbəti ildə görüləcək işlərlə bağlı indi hazırlıq tədbirləri aparılır. Gələn ilin dövlət xərclərimizdə köçkünlərin problemlərinin həlli üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub.**

**Onu da bildirməliyəm ki, bu il, eyni zamanda, köçkünlərin məişət problemlərinin həlli işində bir yenilik də olub. O da ondan ibarətdir ki, özəl sektor köçkünlər üçün mənzillərin tikintisinə başlamışdır. Bu il “Qobu Park” köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi idi. Orada da mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. O layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib.**






**Bu, onu deməyə əsas verir ki, biznesin sosial məsuliyyəti də artır. Ümid edirəm ki, növbəti illərdə bizim böyük biznes strukturlarımız bu işlərdə köçkünlərə kömək göstərəcəklər. Əlbəttə, əsas işi dövlət öz üzərinə götürüb. Köçkünlərin problemlərinin həlli, onların məşğulluğunun artırılması üçün son illərdə milyardlarla manat vəsait xərclənmişdir. Ancaq imkanı olan şirkətlər əlbəttə ki, bu sahədə öz sözünü deməlidirlər və biz bunu görürük. Ümid edirəm ki, gələn il də biznes strukturları bu istiqamətdə öz sözünü deyəcəklər.**

**Bu il bir neçə yerdə köçkünlər üçün yeni şəhərciklər salınıb. Onların arasında iki layihəni xüsusilə qeyd etmək istərdim. Bu il Cocuq Mərcanlı qəsəbəsində işlərin ikinci mərhələsi başa çatmışdır. Bildiyiniz kimi, keçən il mənim iştirakımla Cocuq Mərcanlıda köçkün qəsəbəsinin açılışı olmuşdur. O vaxt biz 50 evin açılışını qeyd etdik. Qarşıya vəzifə qoyulmuşdu ki, evlərin sayı daha da artmalıdır. Əlavə 100 evin tikilməsi də bu il təmin edildi. Bu, əlbəttə ki, tarixi hadisədir. Çünki uzun fasilədən sonra Cocuq Mərcanlıda həyat yenidən qurulur, vətəndaşlar öz doğma torpağında yaşayırlar, qururlar, yaradırlar. Bilirsiniz ki, orada bütün infrastruktur yaradılıb, yollar, elektrik xətləri, məktəb, ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib. Biznes üçün də çox gözəl şərait yaradılıb. Hazırda 150 evdən ibarət qəsəbə bizim iradəmizin rəmzinə çevrilibdir. Bu qəsəbənin yaşaması, yenidən qurulması onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Hər bir köçkün bir arzu ilə, bir amalla yaşayır ki, tezliklə öz doğma torpağına qayıtsın. Biz bunu Cocuq Mərcanlı qəsəbəsinin timsalında görürük. Çünki uzun illər başqa yerlərdə yaşamış Cocuq Mərcanlı sakinləri imkan olan kimi, əlbəttə, öz doğma kəndinə üz tutdular. Hətta Cocuq Mərcanlını görməyən uşaqlar, yeniyetmələr böyük həvəslə o kəndə üz tutub, orada - doğma torpağında öz həyatlarını qururlar.**

**Digər layihə Tərtər rayonunun Şıxarx qəsəbəsində tikilmiş şəhərcikdir. O şəhərcik təxminən 1200 mənzildən ibarətdir. Hündürmərtəbəli binalar tikilib. O layihənin də əhəmiyyəti ondadır ki, vaxtilə işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda belə böyük, gözəl şəhərcik tikilib. Əlbəttə, hər bir köçkün şəhərciyinin istifadəyə verilməsi önəmli hadisədir və bizi, köçkünləri sevindirir. Ancaq bu iki layihəni xüsusilə qeyd etmək istəyirəm. Çünki məhz işğalçılardan azad edilmiş torpaqlarda biz bu gözəl şəhərcikləri qurmuşuq. Bu, bir daha onu göstərir ki, torpaqlarımız işğaldan azad olunandan sonra biz ermənilər tərəfindən dağıdılmış bütün şəhər və rayonlarımızı, kəndlərimizi bərpa edəcəyik. Buna bizim gücümüz də çatacaq, iradəmiz də var. Bizim siyasətimiz, bir daha demək istəyirəm ki, məcburi köçkünlərin problemlərinin həlli işinə dəstək verməkdən ibarətdir. Mən əminəm ki, bu gün hələ də işğal altında olan bütün torpaqlar azad ediləndən sonra o torpaqlarda gözəl şəhərlər, kəndlər yenidən qurulacaq. Azərbaycan xalqı işğalla barışmayacaq.**

**Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində - iyirmi il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq. Digər tərəfdən, Ermənistan iqtisadiyyatı üçün heç bir əsas yoxdur. Biz onları bütün regional layihələrdən təcrid etmişik və bu proses davam etdirilir. Ermənistanda iqtisadi vəziyyət çox ağırdır və bu il orada baş vermiş hadisələrin əsas səbəbi də səfalət, yoxsulluq, ədalətsizlik və özbaşınalıqdır. Demoqrafik baxımdan Ermənistan çox ağır vəziyyətdədir. Bizdə olan məlumata görə, yenə də işğalçılıq siyasəti nəticəsində ölkədən ən azı bir milyondan artıq vətəndaş gedibdir, həmişəlik ölkəni tərk edibdir.**

**Ümid edirəm, Ermənistan cəmiyyəti və Ermənistanın yeni rəhbərliyi başa düşəcək ki, ancaq Azərbaycan ilə münasibətləri normallaşdırandan sonra Ermənistanda hər hansı bir iqtisadi inkişaf ola bilər. Normallaşma torpaqlarımızın azad edilməsindən asılıdır və bunun əsas şərtidir.**

**Biz isə öz gücümüzü, qüdrətimizi artırırıq. Onu da bildirməliyəm ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb. Xüsusilə, Aprel döyüşləri və ondan sonra bizim digər uğurlu əməliyyatlarımız nəticəsində Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən öz ordusu haqqında yaradılan mif tamamilə darmadağın edildi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərdi ki, biz döyüş meydanında da qalib gəlirik. Bizim hərbi qələbələrimiz Ermənistanın kriminal rejiminin çökməsində xüsusi rol oynamışdır.**

**Biz 2019-cu ilə qədəm qoyuruq və ümid edirik ki, bu il Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün önəmli il ola bilər. Amma baxacağıq ki, vəziyyət necə inkişaf edir. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz təmin olunmalıdır, bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Bunu ədalət, tarix tələb edir, bunu beynəlxalq hüquq tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz dediyim sözlər öz əksini tapıb ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Biz əlbəttə ki, xarici müstəvidə öz səylərimizi bu istiqamətdə artıracağıq. Bu il həm ikitərəfli təmaslar əsasında mən bir çox ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlarda və imzalanmış sənədlərdə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət göstərilir və münaqişənin bu prinsiplər əsasında həll olunması tələb edilir. Eyni zamanda, Avropa İttifaqı ilə imzalanmış sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox ciddi bəyanatlar var. Yəni, həm tarixi, həm hüquqi əsaslar bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, bu gün Ermənistan və Azərbaycan iqtisadi və hərbi cəhətdən fərqli kateqoriyalarda olan ölkələrdir. Eyni zamanda, bölgədə gedən proseslər, bizim qonşu ölkələrlə münasibətlərimizin möhkəmləndirilməsi regionda vəziyyəti bizim xeyrimizə dəyişdirir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, 2019-cu ildə münaqişə ilə bağlı müəyyən addımlar atılacaq. Hələ ki, bir şey demək tezdir, ancaq bir şey tam aydındır: biz prinsipial mövqeyimizdən çəkilməyəcəyik, öz ərazi bütövlüyümüzün istənilən yolla bərpası bizim suveren hüququmuzdur. Dağlıq Qarabağ və onun ətrafında yerləşən digər işğal edilmiş torpaqlar bizim əzəli, tarixi torpaqlarımızdır və bu, bu gün belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində o vaxt Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Biz bütün imkanlardan istifadə edirik ki, bu məsələ öz həllini tapsın. Ölkəmizin artan qüdrəti o günü yaxınlaşdırır ki, belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda tikilsin.**

**Sizin üçün bu, müvəqqəti yaşayış yeridir. Əlbəttə ki, burada gözəl şəraitin yaradılması bizim borcumuzdur. Mən bilirəm ki, burada yaşayacaq vətəndaşlar çox ağır şəraitdə yaşamışlar. İndi burada gözəl şərait yaradılır. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda açılacaqdır.**

**Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Sizi qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirəm. Sağ olun”.**

Sonra məcburi köçkün, Milli Qəhrəman atası Nəriman Həmidov, Qubadlı rayonundan məcburi köçkün Aqil Quliyev çıxış ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

# Prezident İlham Əliyev Serbiyanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiç, ilk növbədə, Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb. Eyni zamanda, Rasim Lyayiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdıraraq, Serbiya tərəfinin Prezident İlham Əliyevin Belqrada səfərini səbirsizliklə gözlədiklərini bildirib. O, Belqradda Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının uğurla keçirildiyini vurğulayaraq, orada əməkdaşlığımızın genişlənməsi ilə bağlı istiqamətlərin müəyyən edildiyini diqqətə çatdırıb.



Dövlətimizin başçısı Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib. Serbiya Prezidenti ilə bu il beynəlxalq tədbirlər çərçivəsində təmaslarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Söhbət zamanı ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyi, iqtisadi sahədə əməkdaşlığın siyasi sahədə əlaqələrin səviyyəsinə yüksəlməsi istiqamətində səmərəli işlərin həyata keçirildiyi bildirilib, əməkdaşlığımızın bütün sahələrdə, o cümlədən infrastruktur, kənd təsərrüfatı, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində dinamik şəkildə inkişaf etdiyi qeyd olunub.

Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev “Bakı Ağ Şəhər”də görülən və görüləcək işlərlə tanış olub





Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Bakı Ağ Şəhər”də 110 kilovoltluq “Ağ Şəhər-2” və “Bakıxanov” yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də “Ağ Şəhər” piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak ediblər, tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı “Ağ Şəhər-2” yarımstansiyasının açılışını edib.

“Azərişıq” ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verib ki, “Ağ Şəhər” layihəsinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. “Ağ Şəhər” layihəsinin elektrik təchizatı üzrə qoyuluş gücü 250 meqavat təşkil edir və layihə çərçivəsində 110 kilovoltluq 4, həmçinin 35 kilovoltluq 46 yarımstansiyanın tikintisi nəzərdə tutulur. Artıq 110/35/10 kilovoltluq 100 meqavoltamper gücündə “Ağ Şəhər-2” yarımstansiyasının inşası yekunlaşıb.

Qeyd edək ki, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin bütün yeni inşa olunan qapalı tipli yarımstansiyaları kimi, “Ağ Şəhər-2” yarımstansiyasının da memarlıq görünüşü, texniki və texnoloji sahələri xüsusi layihə əsasında yaradılıb. Yarımstansiyada ehtiyat nəzərə alınmaqla 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, hər biri 50 meqavoltamper gücündə iki transformator var. Azərbaycanda ilk dəfə məhz “Ağ Şəhər-2” yarımstansiyasında yanğından mühafizə məqsədilə yağın transformatorlardan təcrid edilməsi və yanğının anındaca qarşısının alınması üçün avtomatik rejimdə işləyən qurğular quraşdırılıb. Mərtəbələrarası xüsusi kabel keçidləri, həmçinin ehtiyat giriş-çıxışları olan kabel zirzəmisi inşa olunub. Xüsusi dispetçer idarəetmə mərkəzi yaradılıb. Yarımstansiya elektron tipli rele mühafizəsi və avtomatika sistemi ilə təchiz edilib, optik kabel çəkilib və məsafədən idarəolunan SCADA dispetçer idarəetmə sisteminə qoşulub. “Ağ Şəhər-2” yarımstansiyasının qidalandırılması üçün “Ağ Şəhər-1” yarımstansiyasından 110 kilovoltluq ikidövrəli kabel xətti çəkilib. Bu energetika qurğusunu digər 110 kilovoltluq yarımstansiyalardan fərqləndirən əsas texnoloji fərqi odur ki, 110 kilovoltluq bölmə ABB şirkətinin istehsalı olan eleqaz izolyasiyalı qapalı tipli yuvalardan və ayırıcılardan ibarətdir. Bu tip qapalı paylayıcı qurğuların istismar müddəti açıq tipli qurğulardan üç dəfə çox olmaqla, istismarı təhlükəsizdir və mükəmməl şəbəkəyə inteqrasiya oluna bilir.

“Ağ Şəhər-2” yarımstansiyası vasitəsilə 75 min əhali abonentinin elektrik təchizatı həyata keçiriləcək. Həmçinin ərazidə yeni inşa olunan sosial obyektlər, otellər, əyləncə kompleksləri, Ağ Şəhər bulvarı, yeni layihələndirilən tikinti obyektləri, yaşayış kompleksləri “Ağ Şəhər-2” yarımstansiyası vasitəsilə enerji ilə təchiz olunacaq. “Ağ Şəhər-2” yarımstansiyası ilə yanaşı, layihə çərçivəsində “Bakı Ağ Şəhər”də 35/0,4 kilovoltluq yeddi yarımstansiya da inşa edilib.

Sonra Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə “Ağ Şəhər-2” yarımstansiyasını və 110/35/10 kilovoltluq “Bakıxanov” yarımstansiyasını işə salıb.

Dövlətimizin başçısına məlumat verilib ki, ötən əsrin 70-ci illərinin ortalarında o dövrün elektrik enerjisi tələbatına uyğun tikilərək istifadəyə verilən 110/35/10 kilovoltluq “Bakıxanov” yarımstansiyasının köhnə avadanlıqları müasir tələblərə cavab vermədiyindən və istismar müddətini bitirdiyindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, Bakıxanov qəsəbəsinin istehlakçıları və onların tələbatı 30 il müddətində 10 dəfələrlə artıb. Bakıxanov qəsəbəsi ilə yanaşı, Bülbülə və Qaraçuxur qəsəbələrinin bir hissəsinin bu yarımstansiyadan qidalanması onun yenidən qurulmasını günün tələbinə çevirmişdi. Odur ki, yarımstansiya yenidən qurulmaqla yanaşı, onun mövcud 35 kilovoltluq elektrik şəbəkələri ilə əlaqələnmə sxemi daha dayanıqlı və etibarlı vəziyyətə gətirilib. Beləliklə, yeni “Bakıxanov” yarımstansiyası hazırda elektrik enerjisi ilə təchiz edilən bütün növ mövcud istehlakçılarla yanaşı, perspektivdə yaranacaq əhali və qeyri-əhali abonentlərin elektrik enerjisi təminatını daha keyfiyyətli və dayanıqlı formada həyata keçirmək üçün də bütün imkanlara malikdir.

* * *

Sonra Birinci Fəvvarələr küçəsinin açılışı olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verib ki, yeni yollar salınarkən ərazidə mazutlu və texnogen mənşəli yararsız qrunt 2 metrə qədər dərinlikdə qazılaraq çıxarılıb və ərazidən uzaqlaşdırılıb. Əvəzində isə yararlı karxana materiallarından yol geyiminin əsası inşa olunub. Ümumilikdə, 2018-ci ildə 550 min kubmetr yararsız material qazılaraq ərazidən uzaqlaşdırılıb və əvəzində 400 min kubmetr yararlı karxana materiallarından istifadə edilib. “Bakı Ağ Şəhər”in ərazisində layihəyə uyğun olaraq 22,4 kilometr uzunluğunda 16-47 metr enində iki, dörd və altı hərəkət zolağından ibarət olan 63 avtomobil yolunda işlər davam etdirilib. Ümumi uzunluğu 1420 metr olan Birinci Fəvvarələr, Birinci Yaşıl Ada, İkinci Yaşıl Ada, Altıncı Park və Mərkəzi Şərq küçələrində 550 min kubmetr torpaq işi görülüb, 36 min kvadratmetr sahəyə asfalt-beton döşənib, inşaat işlərində 400 min kubmetr karxana materiallarından istifadə edilib, 22 min kvadratmetr səki salınıb, 150 işıq dirəyi quraşdırılıb, yollar boyunca müxtəlif növ 240 ağac əkilib.

Sonra Prezident İlham Əliyev Birinci Fəvvarələr küçəsinin rəmzi açılışını bildirən lenti kəsib.

“Ağ Şəhər” yollarının təmir işləri çərçivəsində cari ildə Birinci Fəvvarələr küçəsinin Nobel prospektinə çıxışı təmin olunub. Uzunluğu 560, eni isə 32 metr olan bu küçə Yaşıl Ada və Fəvvarələr Meydanı kvartallarını kəsir və şimalda Mərkəzi Bulvar küçəsinə, cənubda isə Nobel prospektinə çıxır. Dördzolaqlı Birinci Fəvvarələr küçəsində digər küçələrdə olduğu kimi, avtodayanacaq və piyadaların təhlükəsizliyi də nəzərə alınıb. Burada layihəyə uyğun olaraq yolaltı infrastruktur işləri - çirkab və yağış suları kollektorları, elektrik xətləri, qaz təminatı boruları və İT kanal sistemləri çəkilib. Küçənin adı səkilərdə daş nişanlarla qeyd edilib, vətəndaşları istiqamətləndirən yolgöstəriciləri quraşdırılıb. Səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub. Yeddimərtəbəli binaları əhatə edən küçənin Nobel prospektinə birləşən 90 metrlik hissəsində istinad divarı tikilib.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olublar.

“Bakı Ağ Şəhər” layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına məlumat verib ki, təməli 2016-cı ilin dekabr ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulmuş Fəvvarələr Meydanı Parkı piyada keçidi və 800 yerlik ictimai parkinq kompleksinin bir hissəsidir. Tikintisi əsasən başa çatmış Fəvvarələr Meydanı kvartalının mərkəzində yerləşən parkda geniş istirahət zonaları, üç fəvvarə kompleksi, uşaqların təhlükəsiz əyləncəsi üçün geniş meydança, gözəl landşaft dizaynı mövcuddur. “Bakı Ağ Şəhər”in hər bir guşəsində olduğu kimi, burada da klassika, müasirlik və qarışıq üslub, müxtəlif nou-haular, hay-teklər, tikinti materiallarının incə zövqlə seçimi, özünəməxsus memarlıq elementləri, ritmiklik, zəriflik, funksionallıq, konstruktivlik, elmi-texniki yeniliklərin tətbiqi, hər addımda nəfis ideyalar və bir-birindən üstün çalarların yer alması özünü qabarıq göstərir. Parkın bəzi hissələri “Qara Şəhər”in keçmiş tikililərindən qalma daşlarla döşənib. Parkda “Ağ Şəhər” layihəsi və ərazinin tarixi olan “Qara Şəhər” haqda məlumatlandırıcı lövhələr, küçə saatı, termometr, xatirə medalyonu quraşdırılıb. Burada 2018-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş “Daşın nəğməsi” üçüncü Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində təqdim edilmiş heykəl qoyulub. Fəvvarələr Meydanı Parkı və piyada keçidi “Ağ Şəhər” boyunca piyadaların gəzintisi və mənalı istirahətinə geniş imkanlar açacaq. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi Park rayonu, Fəvvarələr Meydanı və Nobel prospekti üzərindən körpü vasitəsilə birbaşa Ağ Şəhər bulvarına qədər 2 kilometrlik maneəsiz gəzintiyə çıxa biləcəklər. Piyadalar, həmçinin körpüdə yerləşdiriləcək eskalator və liftlər vasitəsilə metronun “Ağ Şəhər” stansiyasına rahat gediş-gəliş əldə edəcəklər. Eni 7-14 metr, uzunluğu 237 metr olan körpünün üst qatı cənubda “Baku City Mall” alış-veriş mərkəzinə, şimalda Fəvvarələr Meydanının mərkəzinə, Birinci Fəvvarələr küçəsinə, körpünün alt qatı isə Nobel prospektində yerləşən Zaman meydanına çıxacaq.

Sonra dövlətimizin başçısına ötən illərdə “Ağ Şəhər”də həyata keçirilən və perspektivdə reallaşdırılması nəzərdə tutulan layihələr barədə məlumat verilib.

Qeyd olunub ki, “Bakı Ağ Şəhər” layihəsi ərazisində Xəzər dənizindən 25 metr hündürlükdə yerləşən Park rayonunda da inşaat işləri davam edir. Burada tikilən iyirmimərtəbəli yaşayış binalarının hündür podiumlarının üzərində istirahət və yaşıllıq zonaları, uşaq meydançaları olacaq. Hazırda burada tikinti, quruculuq və abadlıq işləri aparılır. Nizami parkının yaxınlığında bu rayonda “Knightsbridge (Naytsbric) Residence” kompleksinin tikintisi davam edir. Bu kompleksdə yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi planlaşdırılıb. Park rayonunun sakinlərə təhvili 2019-cu ilin sonunda gözlənilir.

Babək prospektindən başlayan yeni Mərkəzi Şərq küçəsi Babək kvartalını iki hissəyə bölür. Eni 37, uzunluğu 470 metr olan Mərkəzi Şərq küçəsində yerləşəcək yeni Qarabağ Atları Meydanının layihəsi hazırdır. Kvartalın mərkəzinə çevriləcək meydanda sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılacaq, burada mağazalar, kafelər və mərkəzində 7 atdan ibarət fəvvarələr kompleksi inşa olunacaq.

2018-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı çərçivəsində layihənin qərbində yerləşən 26,7 hektar xaotik tikintili və infrastrukturu olmayan yeni ərazinin texniki inventarlaşdırılması aparılıb, Şəhərsalma və Arxitektura Komitəsinin tövsiyələri əsasında inşa olunacaq tikililərin memarlıq göstəriciləri, şəhərsalma, nəqliyyat və digər infrastrukturu “Ağ Şəhər” layihəsi ilə uzlaşdırılıb və müfəssəl planı hazırlanıb. Bununla yanaşı, inşa olunacaq çoxsaylı bina, yol, park, məktəb, servis obyektləri, digər əraziplanlaşdırma və infrastruktur işlərinin layihələndirilməsi də yerinə yetirilərək cari ildə nəzərdə tutulan bütün işlər yekunlaşdırılıb. Ərazisi 7800 kvadratmetr olan Zaman meydanı şimal tərəfdən gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunacaq. Metronun “Ağ Şəhər” stansiyasının çıxışlarından biri də burada yerləşir. Meydan xüsusi sifariş edilmiş çoxsaylı saatlarla bəzədiləcək.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağ Şəhər piyada körpüsünün və Zaman meydanının təməlini qoyublar.

Təməlqoyma mərasimindən sonra xatirə şəkli çəkdirilib.

“Bakı Ağ Şəhər”də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verib.



## Prezidentin iş günü

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Milorad Dodik Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Gürcüstanın Baş naziri Mamuka Baxtadze Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi Yuri Osipov, MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibinin müavini Aydın Cəfərov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Rusiya Federasiyası Çeçenistan Respublikası Hökumətinin sədri Müslüm Xuçiyev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Rusiyanın Həştərxan vilayəti qubernatorunun vəzifəsini icra edən Sergey Morozov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

GUAM-ın Baş katibi Altay Əfəndiyev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Qaz İxrac Edən Ölkələr Forumunun Baş katibi Yuri Sentyurin Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Moldova Respublikası Sosialistlər Partiyasının sədri, Moldova parlamentində MRSP fraksiyasının və Rusiya Federasiyası ilə dostluq qrupunun rəhbəri Zinaida Qreçanıy Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Beynəlxalq Türk Akademiyasının Prezidenti Darhan Kıdırali Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Almaniyanın “CLAAS Global Sales” Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin üzvü, satış və marketinq üzrə icraçı direktor Bernd Lüdeviq Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Ümumhəmkarlar İttifaqları Konfederasiyasının baş katibi Vladimir Şerbakov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın prezidenti, Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Anatoli Torkunov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, akademik Albert Lixanov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Moskvadan akademik Fazil Qurbanov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Camal Yanqın Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru, “Cəmiyyət üçün Beynəlxalq layihələr” Qeyri-Hökumət Təşkilatının rəhbəri Arye Qut Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Yunanıstanın “Motor Oil Hellas”, “Vegas Oil and Gas” şirkətlərinin sədri Vardis Vardinoyannis və xanımı Marianna Vardinoyannis Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Rusiyanın “VTB Bank” Publik Səhmdar Cəmiyyətinin prezidenti - idarə heyətinin sədri Andrey Kostin Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

“ARETİ” Beynəlxalq Şirkətlər Qrupunun prezidenti İqor Makarov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

“SOCAR Energy Georgia” MMC-nin baş direktorunun müşaviri Yuri Çaxunaşvili Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

“Georgian Industrial Group”un Direktorlar Şurasının sədri David Bejuaşvili Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Azərbaycan Respublikasında Katolik kilsəsinin apostol prefekturasının yepiskopu Vladimir Fekete Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

# “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” adlı sənədli filmin və kitabın təqdimat mərasimi keçirilib

Dekabrın 24-də Heydər Əliyev Mərkəzində “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” adlı sənədli filmin və kitabın təqdimat mərasimi keçirilib.

Filmin ssenari müəllifləri Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov və “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri Arif Alışanovdur. Kitabın buraxılışına məsul Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, tərtibçi müəllifləri Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanovdur. Kitaba “Ön söz”ü tarix elmləri doktoru, professor Əli Həsənov yazıb.




AZƏRTAC xəbər verir ki, filmin nümayişindən sonra çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov ölkəmizin müasir dövrdəki nailiyyətlərinin Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, təqdimatı keçirilən filmi və kitabı Prezident İlham Əliyevin rəhbərliyi ilə son on beş ildə Azərbaycanda əldə edilən uğurların salnaməsi adlandırmaq olar. Filmin və kitabın yüksək səviyyədə hazırlandığını deyən Əli Əhmədov müəlliflərə yeni yaradıcılıq uğurları arzulayıb.

Təqdimat mərasiminin çox gözəl bir günə - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum gününə təsadüf etdiyini xatırladan Əli Əhmədov fürsətdən istifadə edərək özünün və tədbir iştirakçılarının adından dövlətimizin başçısını təbrik edib, Ona Azərbaycan və xalqımız naminə bundan sonrakı fəaliyyətində daha böyük uğurlar və qələbələr arzulayıb. O deyib: **“Bu uğurlar, bu nailiyyətlər, sözün həqiqi mənasında, o qədər böyük və əzəmətlidir ki, Azərbaycan və İlham Əliyev sözləri indi bir-biri ilə eyniyyət təşkil edir. Əlbəttə ki, bu gün Azərbaycanı İlham Əliyevsiz, Onun həyata keçirdiyi siyasətdən ayrılıqda təsəvvür etmək çox çətindir. Azərbaycanın möhtəşəm nailiyyətlərini, əslində isə Azərbaycanın möcüzəsini, Azərbaycanın bütövlükdə inkişafını bugünkü dünyanın ən böyük siyasi layihələrindən biri hesab etmək mümkündür. XX əsrin 90-cı illərinin əvvəllərində total, hərtərəfli böhranın məngənəsində sıxılan Azərbaycan çox qısa bir vaxtdan sonra - XXI əsrin əvvəllərində dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrildi. Bunu möcüzədən başqa bir sözlə ifadə etmək qeyri-mümkündür. Nümayiş olunan filmdə və təqdim edilən kitabda Azərbaycan möcüzəsinin bütün tərəfləri, istiqamətləri və məqamları öz əksini tapıb. Azərbaycan möcüzəsi - bu ifadə bütövlükdə ölkəmizin inkişafını, yüksəlişini hərtərəfli əhatə edən bir anlayışdır”.**

Ötən on beş il ərzində Azərbaycanın iqtisadiyyatının üç dəfədən çox artdığını, inkişaf tempinə görə dünyada birinci yer tutduğunu və bir neçə il ardıcıllıqla bu statusu saxladığını, 2 milyona yaxın yeni iş yerinin açıldığını xatırladan Əli Əhmədov bütün bunların sayəsində ölkəmizin yeniləşdiyini, modernləşdiyini qeyd edib, ordu quruculuğu sahəsində əldə olunan nailiyyətləri vurğulayıb, bütün bu uğurların xalqımızın qürur mənbəyinə çevrildiyini bildirib.





On beş il ərzində həyatın bütün sahələrində böyük irəliləyişlər baş verdiyini, möhtəşəm uğurlar qazanıldığını diqqətə çatdıran Əli Əhmədov qeyd edib ki, ölkəmiz coğrafi baxımdan kiçik əraziyə malik olsa da, həyata keçirdiyi qlobal layihələr sayəsində dünyanın humanitar, siyasi, enerji, nəqliyyat, kommunikasiya, idman mərkəzlərindən birinə çevrilib.

**“Bu gün, Azərbaycan, sözün həqiqi mənasında, özünün qızıl əsrini yaşamaqdadır və bu dövr hələ uzun müddət davam edəcək. Azərbaycanın inkişafı, Azərbaycanın möcüzələri, Azərbaycanın tərəqqisi insanlarımızın məmnunluğunu artırıb. Bu gün Azərbaycan vətəndaşı öz həyatından məmnundur. Bu gün Azərbaycan insanların arzularının həyata keçirildiyi bir məmləkətə çevrilib. Həmçinin bu istək və arzuların reallaşması üçün Azərbaycan dövləti və hökuməti lazım olan bütün şəraiti və imkanları təmin edir. Azərbaycanın qızıl əsrinin başlıca müəllifi Heydər Əliyev siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyevdir. On beş ilin nailiyyətləri Azərbaycan vətəndaşlarında belə bir inamı qəti surətdə formalaşdırıb ki, Azərbaycan bundan sonra da taleyini Heydər Əliyev siyasəti və bu siyasəti uğurla həyata keçirən İlham Əliyevlə bağlamalıdır. Çünki bu siyasət və onu həyata keçirən İlham Əliyev Azərbaycana həmişə uğur gətirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda on beş il ərzində əldə olunan nailiyyətlərin fundamental əsaslarından biri Heydər Əliyev siyasəti, habelə dövlətimizin başçısının şəxsi keyfiyyətləri ilə bilavasitə əlaqədardırsa, digər bir səbəbi də İlham Əliyevin bu uğurları, bu inkişafı ürəkdən istəməsi, yəni, niyyətinin bu uğurlarla eyniyyət təşkil etməsi ilə bağlıdır. Nə qədər İlham Əliyev Azərbaycana rəhbərlik edirsə, ölkəmiz bir o qədər inkişaf edəcək, növbəti illərdə daha böyük uğurlar qazanacaq. Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər gözləyir”,** - deyə Əli Əhmədov vurğulayıb.

**“İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018”** kitabının tərtibçi və eyniadlı filminin ssenari müəlliflərindən biri, Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında qeyd edib ki, 15 illik uğurların əsasında Prezident İlham Əliyevin Ümummilli liderin kursuna sədaqətli obrazı dayanır. Ümummilli liderin kursuna sədaqətlə xidmət etmək, onu qətiyyətlə həyata keçirmək bu uğurların başlıca təməlidir. Prezident İlham Əliyev okeanlara çıxışı olmayan Azərbaycanı dünyanın nəqliyyat, logistika mərkəzinə çevirib. Dövlətimizin başçısı dünya liderləri sırasında qlobal düşüncəsi, beynəlxalq aləmdə baş verən hadisələrə sistemli yanaşması, qətiyyəti, prinsipiallığı, insanpərvərliyi, humanistliyi ilə seçilir. Bütün bu keyfiyyətlər Azərbaycanın hər bir sahədə yüksək inkişafını təmin edir.

Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətləri ilə bağlı bəzi məqamların təqdim olunan kitabda və filmdə əks etdirildiyini bildirən Əli Həsənov deyib ki, dövlətimizin başçısı həddən artıq sədaqətli insandır. O, Öz əqidəsinə, inandığı işə, Ona etibar olunmuş əmanətə, xalqına, dövlətinə, partiyasına, qəbul etdiyi ideyalara, Ümummilli liderin irsinə, Azərbaycan xalqının milli mənəvi dəyərlərinə həmişə sədaqətli olub. Prezident İlham Əliyevin həyata keçirdiyi işlər Ümummilli liderin ideyaları və Azərbaycan xalqının əsas maraq və mənafeləri üzərində qurulub. Həm filmdə, həm də kitabda bu xətt qabarıq şəkildə əks etdirilib. İlham Əliyev 15 illik prezidentlik dövründə qlobal və sistemli strateji düşüncə tərzinə malik olduğunu nümayiş etdirə bilib. Həm ölkə daxilində gördüyü işlər, həm də yürütdüyü xarici siyasət, onun təşəbbüsü ilə gerçəkləşən əməkdaşlıq platformaları, həyata vəsiqə alan beynəlxalq və regional əhəmiyyətli layihələr on illər, yüz illər sonra da Azərbaycana, Azərbaycan vətəndaşlarına fayda gətirəcək, dövlətimizin qüdrətlənməsinə xidmət edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təmin edilmiş sabitlik Azərbaycanı təhlükəsiz, geosiyasi problemlər vəd etməyən cəlbedici ixrac mənbəyinə, enerji və nəqliyyat xabına çevirib. Bütün bunlar uzun illər Azərbaycanın rifahını, dövlətimizin davamlı inkişafını təmin edəcək.







Prezident İlham Əliyevin praqmatik və realist siyasi xadim olduğunu vurğulayan Əli Həsənov deyib ki, dövlətimizin başçısı həyata keçirdiyi siyasətin nəticələrini əvvəlcədən hesablayır, aydın konturlarını cızır. Azərbaycan dövləti proqramlarla idarə olunan, proqnozlaşdırıla bilən bir siyasət yürüdür. İlham Əliyev hansı hədəfləri müəyyən edirsə, hansı vədləri verirsə proqramlaşdırıb həyata keçirir. Onun ölkəyə rəhbərlik etdiyi illərdə minimum aylıq əməkhaqqının məbləği 14,4 dəfə, orta aylıq əməkhaqqının məbləği 6,8 dəfə, əmək pensiyasının orta aylıq məbləği 11,3 dəfə artıb. Ötən 15 ildə ardıcıl olaraq həyata keçirilmiş tədbirlər, icra edilmiş proqramlar sayəsində əhalinin aztəminatlı təbəqəsinin ümumi əhali nisbətində xüsusi çəkisi azalıb, yoxsulluq 49 faizdən 5 faizə düşüb.

**“Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını beynəlxalq müstəvidə necə qətiyyətlə müdafiə etdiyi sizə təqdim olunan kitabda və nümayiş etdirilən filmin kadrlarında öz əksini tapıb”**, - deyən Əli Həsənov bildirib ki, dövlətimizin başçısının rəhbərliyi ilə icra olunan strateji kurs ölkəmizin beynəlxalq arenada nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib. Onun liderlik keyfiyyətləri, dərin zəkası, böyük erudisiyası, qlobal düşüncəsi, intellekti, çevik qərarlar qəbul etmək bacarığı müasir dünya nizamında Azərbaycanın yerini, nüfuzunu, çəkisini müəyyən edir. İlham Əliyevin təşəbbüsləri, reallaşdırdığı proqram və layihələr ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün ciddi zəmin yaradıb. Dünyada siyasi və iqtisadi vəziyyətin heç də ürəkaçan olmadığı indiki zamanda Azərbaycan davamlı tərəqqi nümayiş etdirir. İlham Əliyevin siyasi iradəsi Azərbaycanı regionda sabitlik, tərəqqi adasına, regional cazibə mərkəzinə çevirib, bu gün Azərbaycan həm də regionda sülhün, asayişin qarantıdır.

Prezident İlham Əliyevin islahatçı, novator lider olduğunu diqqətə çatdıran Əli Həsənov qeyd edib ki, beynəlxalq qurumlar ölkədə həyata keçirilən islahatları yüksək qiymətləndirirlər. Azərbaycanın təqdim etdiyi “ASAN xidmət” brendi BMT-nin “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında birinci yerə layiq görülüb. “Doing Business” hesabatına görə Azərbaycan dünyada “ən islahatçı ölkə” hesab olunur. Bu gün Azərbaycan sülh, əməkdaşlıq və dialoq platforması kimi tanınır, beynəlxalq etimadın artmasına öz töhfələrini verir. 2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi ənənəvi hal alıb, Rusiya ilə Türkiyə arasında gərginliyin azaldılmasına Azərbaycanın verdiyi dəstək artıq hər iki ölkənin müxtəlif səviyyəli siyasiləri tərəfindən dönə-dönə etiraf olunub. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü və sədrliyi dövründə qaldırdığı məsələlər, dövlətimizin təşəbbüsü ilə beynəlxalq qurumlarda qəbul olunmuş qətnamələr, başladılmış “Bakı prosesi”, Bakını “humanitar Davos” kimi tanıdan çoxsaylı beynəlxalq təşəbbüslər dövlətimizi beynəlxalq əməkdaşlığın, sülhün əsas müdafiəçilərindən birinə çevirib. 2019-2022-ci illərdə dünyanın 120 ölkəsinin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edərkən də Azərbaycan bu siyasətini davam etdirəcək.

Prezidentin köməkçisi çıxışının sonunda deyib: **“Film və kitabın hazırlanması böyük zəhmət hesabına başa gəlib, İlham Əliyevin 15 illik prezidentliyi dövründə keçirdiyi təxminən 10 minə qədər tədbir, açılış, görüş və çıxışlar təhlil edilib, ensiklopedik formada hazırlanıb. Fürsətdən istifadə edib həm filmin, həm də kitabın ərsəyə gəlməsində əməyi keçmiş hər kəsə, xüsusən də “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanova, eləcə də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanova və onların rəhbərlik etdiyi kollektivlərə öz dərin təşəkkürümü bildirirəm”.**

Qeyd edək ki, “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” kitabı bu tarixi və olduqca zəngin bir dövrə işıq salır. Nəşrin əsas məziyyətlərindən biri minimum sözlə maksimum məna ifadə etməsi, sanballı fikir yükü daşımasıdır. Azərbaycan Prezidentinin cild-cild kitablar, çoxsaylı tədqiqatlar üçün mövzu ola biləcək çoxşaxəli fəaliyyəti nəşrdə yığcam, eyni zamanda, dolğun əksini tapıb. Dərin ümumiləşdirmə və təhlil, elmi-praktik yanaşma nəticəsində Prezident İlham Əliyevin 15 illik titanik dövlətçilik fəaliyyətinin diqqətçəkən salnaməsi, Azərbaycanın müasir tarixinin çox parlaq bir dövrünün dolğun mənzərəsi yaradılıb.

# “Möhtəşəm quruculuq: Dünən, bu gün, sabah”

## *Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib*

Dekabrın 24-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Möhtəşəm quruculuq: Dünən, bu gün, sabah” mövzusunda konfrans keçirilib. Konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyasının üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov bildirib ki, ölkəmizin inkişafı Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlıdır. Onun sözlərinə görə, ötən 15 il ərzində Azərbaycanda böyük quruculuq işləri aparılıb, ölkəmizin siması əsaslı dərəcədə dəyişib: **“Ötən illər ərzində insanların rifahının xeyli dərəcədə yaxşılaşması bütövlükdə Azərbaycanın güclənməsi ilə əlaqədardır. Azərbaycan o dərəcədə sürətlə inkişaf edib, yeniləşib və müasirləşib ki, bu prosesə həsr olunan konfransların keçirilməsi bir tərəfdən zərurətə çevrilib, digər tərəfdən insanlar, o cümlədən YAP-ın üzvləri üçün böyük qürur hissi doğurur. Ümumiyyətlə, Azərbaycanın yüksəlişi Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətlə bağlıdır. Bu siyasət son 15 il ərzində ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilir. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, son 15 il Azərbaycan tarixinin qürur hissi doğuran səhifələrini təşkil edir. Bu illər ərzində Azərbaycan həyatın bütün sferalarında ciddi şəkildə yeniləşib və müasirləşib. Və ən başlıcası insanların həyatı müsbət mənada dəyişib. İnsanlarımız daha yaxşı yaşayırlar və bu amil cəmiyyətimizin birliyini daha da gücləndirib. 15 il ərzində Azərbaycanda bütün sahələr üzrə möhtəşəm və əzəmətli dəyişikliklər baş verib. Ötən 15 ilin nailiyyətləri həmçinin Azərbaycanın yeni modern əsaslarda qurulması ilə əlaqədardır. Ona görə də, bu dövrü möhtəşəm quruculuq illəri adlandırmaq olar”.**






***Əli Əhmədov:*** *Ölkəmizdə son 15 il ərzində həyata keçirilən quruculuq işləri Prezident İlham Əliyevin siyasətinin təntənəsidir*

Əli Əhmədov qeyd edib ki, son 15 il ərzində Azərbaycanda böyük quruculuq işləri aparılıb, ölkəmizin siması əhəmiyyətli dərəcədə dəyişib. Onun sözlərinə görə, Bakı şəhərinin tamamilə yeniləşməsi, müasirləşmə və dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi ötən 15 ilin ən böyük uğurlarından biridir: **“Bu amil, quruculuq işləri təkcə Bakı ilə məhdudlaşmır. Ölkəmizin bütün guşələrində möhtəşəm quruculuq işləri həyata keçirilib və bu gün də davam edir. Bu siyasət, möhtəşəm quruculuq siyasəti uğurla davam edəcək və Azərbaycanın quruculuq strategiyası daha böyük nailiyyətləri özündə ehtiva edəcək. Bu mənada hesab edirəm ki, möhtəşəm quruculuq bizim yaşadığımız illərin ən əsas keyfiyyətlərindən birini təşkil edir. Bu quruculuğun, əhəmiyyətli dəyişikliklərin müəllifi isə Prezident İlham Əliyevdir”.**

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin çox vacib cəhətlərindən biri quruculuq strategiyası ilə bağlıdır: **“Ümummilli liderimiz Heydər Əliyev hələ sovetlər birliyi dövründə Azərbaycanda hakimiyyətə gəldikdən sonra respublikamız keçmiş ittifaqda ön sıralara yüksəldi. Həmin dövrdə də böyük quruculuq işləri həyata keçirildi. Müstəqillik illərində isə Ulu öndərimiz Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi. Bu strategiyaya uygun olaraq ölkəmizdə son 15 il ərzində həyata keçirilən quruculuq işləri Prezident İlham Əliyevin siyasətinin təntənəsidir. Bu mənada Prezident İlham Əliyev quruculuq baxımından Azərbaycan tarixinin ən böyük liderlərindən biridir, birincisidir”.**




***Şahin Mustafayev:*** *Həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində son 15 ildə ölkəmizdə yaradılmış 2 milyondan çox iş yerinin 75 faizi regionların payına düşür*






***Eldar Əzizov:*** *Bakının tarixində heç zaman belə yüksək inkişaf olmayıb*

Baş nazirin müavini söyləyib ki, quruculuq məfkurəsi yaşadığımız dövrün vacib xarakteristikasını özündə ehtiva edir. Onun sözlərinə görə, bu konfrans YAP tərəfindən Prezident İlham Əliyevin fəaliyyətinə həsr olunmuş sayca 15-ci konfransdır. Konfransın ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin doğum gününə təsadüf etdiyini deyən Əli Əhmədov bu münasibətlə dövlət başçısını təbrik edib, Ona möhkəm cansağlığı və Azərbaycanın inkişafı yolunda daha böyük nailiyyətlər arzulayıb.





Daha sonra tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev çıxış edib. Ş.Mustafayev bildirib ki, Azərbaycan tarixində əbədiyaşarlıq qazanmış, Vətənimiz və xalqımız qarşısında misilsiz xidmətləri ilə siyasi zirvə - Ümummilli lider səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq möhtəşəm quruculuq, Azərbaycanın sürətli inkişaf və hərtərəfli tərəqqi mərhələsi kimi səciyyələnir.

Nazir qeyd edib ki, Ulu öndərin uzaqgörən dünyəvi dövlət quruculuğu və milli inkişaf konsepsiyasının Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla və qlobal çağırışlara uyğun davam etdirilməsi nəticəsində Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndi, suverenliyimiz əbədi və dönməz xarakter aldı. Prezident İlham Əliyevin sosial-iqtisadi konsepsiyası, düşünülmüş və uzaqgörən strategiyası Azərbaycanın sürətli inkişafını təmin edən ən mühüm faktorlardır. **“Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində ölkəmiz regionun siyasi-iqtisadi və mədəni mərkəzi, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, dünya miqyasında mühüm enerji təminatçılarından biri, mötəbər beynəlxalq tədbirlər məkanı kimi tanınmış, kosmos dövlətləri ailəsinə qoşulmuş, 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Yüksək inkişaf tempi və möhkəm dayanıqlılıq nümayiş etdirən Azərbaycanda 2004-2017-ci illərdə ÜDM real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb. Regionun, eləcə də Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri vasitəsilə hazırda Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Bu il rəsmi açılışı həyata keçirilmiş Cənub Qaz Dəhlizi və TANAP layihələri, eləcə də tikintisi uğurla davam edən TAP layihəsi Azərbaycanın dünyada mühüm enerji təminatçısı kimi mövqeyini daha da möhkəmləndirəcəkdir”,** - deyə nazir vurğulayıb.



Ş.Mustafayevin sözlərinə görə, Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur: **“Son 15 ildə irimiqyaslı nəqliyyat infrastrukturu layihələri həyata keçirilmiş, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, müasir texnologiyalara əsaslanan Gəmiqayırma Zavodu istifadəyə verilmiş, TRASECA, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının tikintisi Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında önəmli rol oynamaqla yanaşı, tranzit potensialını daha da gücləndirir.**

**Prezident İlham Əliyevin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən, əhəmiyyətinə görə “Dəmir İpək yolu” adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ölkəmizin nəqliyyat-tranzit imkanlarını önəmli dərəcədə artırmışdır. Qeyd edim ki, 2018-ci ildə “Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi” ilə əvvəlki illə müqayisədə 100 dəfədən çox yük daşınmışdır”.**

Nazir deyib ki, qloballaşan dünyanın çağırışlarına uyğun olaraq, son illərdə ölkədə sənayeləşmə templəri yüksəlmiş, sənayenin regional strukturunun təkmilləşdirilməsi əsas prioritetlərdən birinə çevrilmiş, yüzlərlə müasir və yeni sənaye müəssisəsi, istehsal sahəsi yaradılmış, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artmış, ixracın həcmi yüksəlmiş, bu ilin yanvar-noyabr aylarında qeyri-neft məhsulları ixracında sənayenin payı 52% təşkil etmişdir. Onun sözlərinə görə, alternativ və bərpa olunan enerji sahəsində bir sıra müəssisələr fəaliyyətə başlamış, yeni perspektivli layihələr həyata keçirilməkdədir.

Nazir deyib ki, bölgələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarının uğurlu icrası müstəsna əhəmiyyət kəsb edir: **“2004-cü ildən başlayan bu proqramların icrası şəhər və rayonların simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açır. İndiyədək regionların inkişafına dair 3 Dövlət proqramı qəbul olunmuş və onlardan ikisi artıq uğurla icra edilmişdir. Dövlət proqramları çərçivəsində regionların inkişafına 70 milyard manatdan çox vəsait yönəldilmişdir. Həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində son 15 ildə ölkəmizdə yaradılmış 2 milyona yaxın iş yerinin 75 faizi regionların payına düşür. Hazırda “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nın icrası başa çatdırılır və dövlət başçısının tapşırığına əsasən, 2019-2023-cü illəri əhatə edən IV Dövlət Proqramının layihəsinin hazırlanması işləri yekunlaşmaq üzrədir. Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, regionların sənaye potensialından daha səmərəli istifadə məqsədilə sənaye parkları və məhəllələri yaradılır. Artıq sənaye parklarının və məhəllələrinin 70-dən çox rezidenti tərəfindən 5 milyard manatdan çox investisiya yatırılmışdır.**

**Regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsində əhəmiyyətli olan sənaye məhəllələrinin yaradılması davam etdirilir. Artıq Neftçala və Masallı sənaye məhəllələri fəaliyyət göstərir, Hacıqabul və Sabirabad sənaye məhəllələri isə gələn il sahibkarların istifadəsinə veriləcək”.**

Nazirin sözlərinə görə, ölkəmizin inkişaf strategiyasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı prioritet istiqamətlərdəndir: **“Azərbaycan Respublikası Prezidentinin “Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır” strateji kursuna uyğun olaraq, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirilir, qanunvericilik bazası təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, vergi yükü azaldılır, sahibkarlığa dövlət dəstəyinin sferası və coğrafiyası genişləndirilir.**

**Dövlət başçısının müasir dövrün qlobal çağırışlarının nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, sahibkarlıq sahəsində yoxlamalar 2021-ci ilədək dayandırılmış, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmiş, lisenziyanın verilməsinə görə dövlət rüsumları 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziyanın verilməsi prosedurları sadələşdirilmiş, “Lisenziyalar və icazələr” portalı yaradılmış və hazırda 24 fəaliyyət növü üzrə elektron lisenziyaların verilməsi həyata keçirilir”.**

Konfransda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, son 15 il ərzində Bakıda çox böyük quruculuq işləri həyata keçirilib, paytaxtın siması tamamilə dəyişib, Bakı gözəl memarlıq üslubunda tikilən bir şəhərə çevrilib. İcra Hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən layihələrdə Bakının daim böyük yeri olub: **“Görülən işlər nəticəsində Bakı dünyanın ən böyük şəhərlərindən, investorlar üçün ən cəlbedici məkanlardan birinə çevrilib, son bir ildə şəhərə 12 milyard manat investisiya qoyulub. 2005-ci ildən indiyədək Bakıda sənaye istehsalı 4 dəfə artıb”.**

E.Əzizov söyləyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlər nəticəsində Bakıda sahibkarlıq inkişaf edir: **“Bakı keçmiş sovet məkanında 5 ulduzlu hotellərin sayına görə ilk yerlərdə qərarlaşıb. Təkcə bu il Bakını 2 milyondan artıq turist ziyarət edib və proqnozlara görə bu rəqəm artacaq”.**

İcra Hakimiyyətinin başçısı deyib ki, 15 ildə Bakıda intensiv tikinti işləri aparılıb və bu gün də tikinti ilə bağlı müraciətlərin sayı artmaqdadır: **“Bu, Bakının inkişafından xəbər verir. Beynəlxalq agentliklərin reytinqinə görə turistlər üçün Bakı memarlıq abidələri ilə yadda qalan 5 şəhərdən biri hesab edilir”.**

O vurğulayıb ki, bu gün Bakıda salınan parklar böyük əraziləri əhatə edir, meqaparklar yaradılır: **“Paytaxtımız dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilib. Bakının tarixində heç zaman belə yüksək inkişaf olmayıb. Bütün bunların əsasında İlham Əliyev fenomeni dayanır. Ölkəmiz və paytaxtı Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük nailiyyətlər əldə edəcək”.**

E.Əzizovun sözlərinə görə, Bakının yeni Baş Planı hazırlanır, şəhərdə sıxlığın azaldılması üçün müvafiq tədbirlərin görülməsi, sənaye müəssisələrinin paytaxtdan kənara çıxarılması nəzərdə tutulur.

**Nardar BAYRAMLI**
**Nurlan QƏLƏNDƏRLİ**

# İlham Əliyev - Ulu öndərin və xalqın inandığı lider

*Mən Ona özüm qədər inanıram.*
**Heydər ƏLİYEV**

***Azərbaycan Respublikası Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi - şöbə müdiri Natiq Əmirovun dövlətimizin başçısı İlham Əliyevin 15 illik prezidentlik fəaliyyəti dövrünün yekunlarına həsr olunmuş məqaləsində ölkənin sosial-iqtisadi inkişafı sahəsində qazanılmış möhtəşəm uğurlardan, həyata keçirilən köklü islahatlardan söhbət açılır. AZƏRTAC məqaləni təqdim edir.***

* * *

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada dövlətin, biznesin və əhalinin maraqlarının harmoniyasına söykənərək, meqalayihələrin qovşağı, sivilizasiyaların dialoqu aparılan dayanıqlı və sistemli inkişaf edən bir ölkə imicini qazanmışdır. Ulu öndər Heydər Əliyevin tövsiyələrinə uyğun olaraq İlham Əliyev Azərbaycan xalqının multikulturallığını, tolerantlığını və tarixi ənənələrini, zəngin təbiətimizin biomüxtəlifliyini və intellektual potensialımızı müstəqil dövlətimizin parlaq inkişafı üçün zəminə çevirmişdir. Heydər Əliyev kursu dövlətçiliyimiz və milli iqtisadiyyat üçün alternativsizdir. Prezident İlham Əliyev məhz Ulu öndərin zəngin irsinə əsaslanaraq müdrik lider kimi Azərbaycan dövlətini qlobal və regional trendlərlə uzlaşdırmaqla, təlatümlərlə dolu dünyamızda məharətlə idarə edir.

## AZƏRBAYCAN DÜNYANIN ƏN İSLAHATÇI ÖLKƏSİDİR

2016-cı ildə Prezident İlham Əliyev Azərbaycanda post-neft dövrünü elan etməklə yanaşı, həm də yeni inkişaf strategiyası barədə fikirlərini bildirərək demişdir: **"Biz gələcək iqtisadi fəaliyyətimizi, siyasətimizi yeni iqtisadi model üzərində aparacağıq və əminəm ki, yaxın zamanlarda daha da böyük nəticələrə nail olacağıq".**

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin" təsdiqlənməsi ilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli tədbirlərin həyata keçirilməsi sürətlənmiş, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaradılmış, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması prioritet seçilmişdir. Təsadüfi deyil ki, Beynəlxalq Valyuta Fondunun rəhbəri Kristin Laqard Azərbaycanın yeni nəsil iqtisadi islahatlarla düzgün iqtisadi siyasət yürütdüyünü və onun xarici şoklara cavab verəcəyini bildirmişdir. Cənab Prezidentin həyata keçirdiyi bu iqtisadi islahat kursu barədə xanım Laqardın proqnozu çox qısa zaman kəsiyində özünü doğrultmuşdur.

Yeni nəsil iqtisadi islahatların əsas istiqamətləri bunlardır:

*1. Biznes mühitinin daha da təkmilləşdirilməsi;*

*2. İnstitusional və struktur islahatları;*

*3. Biznes təşviqlərinin genişləndirilməsi, vergi yükünün biznesin optimal gəlirliliyinə hədəflənərək müəyyənləşdirilməsi;*

*4. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi.*

2015-ci ilin sonlarından başlayaraq neft gəlirlərinin kəskin azalması və ticarət partnyorlarımızda resessiya kimi xarici şokların təsiri altında Azərbaycan iqtisadiyyatının ilk növbədə immunitetini gücləndirmək və dayanıqlı inkişafını təmin etmək üçün müəyyən edilmiş kurs artıq nəticələrini verməkdədir. Ölkədə sahibkarlığa dəstək məqsədilə biznesə başlama, lisenziya və icazələr, yoxlamalar, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyişlər müşahidə olunur. Dünya Bankının "Doing Business 2019" hesabatına görə Azərbaycanın dünyada ən islahatçı ölkə elan edilməsi Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin təntənəsi olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə ən yüksək hədiyyələrdən biridir.

2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə "Doing Business" hesabatı üzrə 30-a yaxın qanunvericilik aktı qəbul edilməklə 70-dən çox islahat tədbiri həyata keçirilmişdir. Hesabata əsasən Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmaqla, MDB-də lider mövqeyinə yüksəlmiş, BRİCS ölkələrinin hamısını, G20 ölkələrinin isə hər dörd ölkəsindən üçünü üstələmişdir.

Cənab Prezidentin təşəbbüsü ilə yaradılan sənaye parkları, aqroparklar, texnoparklar, sənaye məhəllələri, xaricdə ticarət evləri, ixrac missiyaları, Azexport.az portalı və ixracın subsidiyalaşdırılması kimi yeni təşviq mexanizmləri, investisiya təşviqi sənədinin tətbiqi bir tərəfdən sahibkarların xərclərini azaltmış, digər tərəfdən isə biznesin idarəedilməsini daha da təkmilləşdirmişdir.

Ötən dövr ərzində dövlətin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olan əhalinin qida məhsulları ilə etibarlı təminatı sahəsində də bir sıra nəticəsaslı mühüm islahatlar həyata keçirilmişdir. Ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq məqsədilə qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə nəzarəti həyata keçirən vahid orqan - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlamışdır.

Səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təmin olunması da cənab Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindən olmuşdur. Səhiyyə xidmətlərinin müasir tələblərə uyğunlaşdırılması, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi əsaslarla təkmilləşdirilməsi və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi mexanizmi kimi beynəlxalq təcrübədə özünü doğrultmuş icbari tibbi sığorta sistemi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və iştirakı ilə ölkənin bir sıra regionlarında pilot layihə olaraq həyata keçirilməyə başlamışdır. Pilot layihənin uğurlu nəticələrinə əsaslanaraq cənab Prezident tərəfindən 2018-ci ildə imzalanmış müvafiq Fərmanla dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB-in) tabeliyinə verilmiş və sistemin 2020-ci ildən başlayaraq bütün ölkə üzrə tam tətbiqi nəzərdə tutulmuşdur.

Aparılan institusional islahatların qayəsində dövlət xidmətlərinin "bir pəncərə" sistemi ilə təqdim edilməsi, rəqəmsallaşma, operativlik, insan amilinin rolunun minimuma endirilməsi, səmərəlilik, vətəndaş məmnunluğu və şəffaflıq, bir sözlə, "effektiv idarəetmə" prinsipi dayanır. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda "effektiv idarəetmə" və "açıq hökumət" prinsipləri uğurla tətbiq edilir.

"ASAN xidmət" brendinin BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülməsi və "idarəetmənin Azərbaycan modeli" olaraq müxtəlif ölkələrdə təhlil və tətbiq edilməsi bunun əyani sübutudur. İdarəetmənin asanlaşdırılmasının davamı olaraq DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyi, DAİM (Dövlət Aqrar İnkişaf Mərkəzləri) və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxsi yaradılmışdır. Mütərəqqi beynəlxalq təcrübə əsas götürülməklə, Azərbaycanda "Elektron hökumət"in əhatə dairəsinin genişləndirilməsi "bir pəncərə" (one-stop shop) prinsipindən 24/7/365 (non-stop shop) prinsipinə keçidi tam təmin etməkdədir.

İslahatların digər mühüm bir qolu kimi fiskal və monetar siyasətin uzlaşdırılması, biznes mühitinin sağlamlaşdırılması, maliyyə-bank sisteminin etibarlılığının artırılması, ümumilikdə makroiqtisadi sabitlik və dayanıqlı inkişafın təmin edilməsi məqsədilə cənab Prezident tərəfindən qabaqcıl beynəlxalq təcrübə əsas götürülməklə qısa müddətdə manatın sabitliyinin təmin olunması, inflyasiyanın idarəedilən həddə saxlanılması, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi, bank sisteminin etibarlılığının artırılması və sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının sadələşdirilməsi istiqamətində mühüm qərarlar qəbul edilmiş və tədbirlər həyata keçirilmişdir. Xarici şokların Azərbaycan iqtisadiyyatında yaranmış müvəqqəti təsirlərini neytrallaşdırmaq üçün ölkə başçısı tərəfindən müəyyənləşdirilən və uğurla həyata keçirilən makroiqtisadi koordinasiya fiskal dayanıqlığı təmin etməklə yanaşı, bu sahədə normativ hüquqi bazanın qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha da təkmilləşdirilməsinə zəmin yaratmışdır.

2018-ci ildə cənab Prezident tərəfindən effektiv büdcə qaydası, ortamüddətli xərclər çərçivəsi, dövlət borcunun orta və uzun müddətli dövrdə idarə edilməsi ilə bağlı mühüm islahat tədbirləri həyata keçirilmişdir. Bu islahatların nəticəsi olaraq 2019-cu ilin dövlət büdcəsi yeni büdcə qaydasının tələbləri çərçivəsində tərtib edilmiş, makroiqtisadi sabitliyə və dayanıqlı inkişafa hesablanmışdır.

Eyni zamanda, biznes kreditlərinə zəmanət mexanizminin formalaşdırılması, daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin yaradılması və özəl kredit bürolarının fəaliyyətinin təşkili makroiqtisadi sabitliyin digər mühüm bir komponenti - bank sektorunun sağlamlığını daha da gücləndirmişdir.

Xüsusilə qeyd olunmalıdır ki, cənab Prezidentin iqtisadi islahatlar kursunun bir sıra özəllikləri vardır. Birincisi, islahatlar biznes, elm, yerli və beynəlxalq ictimaiyyət nümayəndələrinin, bir sözlə, bütün maraqlı tərəflərin birgə müzakirələri nəticəsində hazırlanır. Belə hərtərəfli və inklüziv yanaşma ictimai-siyasi, iqtisadi və sosial tarazlığı qorumaqla, islahatın



uğurunun ilkin şərtidir. İkincisi, islahatların monitorinq və qiymətləndirmə sistemi qurulmuşdur ki, bu da şəffaflıq və hesabatlılığı təmin edir. Üçüncüsü, islahatlar fundamental xarakter almış və təkamül prosesinə çevrilmişdir. Dördüncüsü, post-neft dövründə Azərbaycanda iqtisadi inkişafın əsas təkanvericisi sistemli və elmi əsaslandırılmış iqtisadi islahatlardır. Beşincisi, islahatlar dördüncü sənaye inqilabı, yaşıl iqtisadiyyat və qlobal istiləşmə kimi qlobal trendlər nəzərə alınaraq həyata keçirilir. Belə sistemli yanaşma aparılan islahatların uğurlu nəticələrinin əsasını təşkil edir.

## İNSAN KAPİTALININ İNKİŞAFI STRATEJİ HƏDƏFİMİZDİR

Dördüncü sənaye inqilabının tələblərini nəzərə almaqla, Azərbaycan yeni texnologiyaların inkişafına uyğun şəkildə ixtisasların və bacarıqların artırılması, habelə yeni biznes modellərin tətbiqini önə çəkir. Bu siyasət dünyada "bilik iqtisadiyyatı"ndan "bacarıqlar iqtisadiyyatı"na sürətli keçidi ehtiva edir. İnsan kapitalına sərmayə, sosial müdafiə, layiqli iş yerləri, təhsil-elm-biznes üçbucağının inkişafı, inklüzivlik və gəlirlərin mobilizasiyasını özündə təcəssüm etdirən tezislər ayrı-ayrı strateji yol xəritələrində, o cümlədən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə və "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda öz əksini tapmışdır. Hazırda Azərbaycan Dünya Bankı tərəfindən hesablanan "İnsan kapitalının inkişafı indeksinə" görə MDB-də ilk üçlüyə daxildir və cənab Prezidentin ölkəyə rəhbərlik etdiyi illərdə əhalinin orta illik artım sürətinə görə Azərbaycan Avropada lider mövqeyə yüksəlmişdir. Ölkədə doğulanların sayının ölənlərin sayından üç dəfə çox olması sosial rifahın yüksək səviyyəsindən xəbər verir. 2003-2017-ci illərdə minimum aylıq əməkhaqqının məbləği 14,4 dəfə, orta aylıq əməkhaqqı məbləği 6,8 dəfə, əmək pensiyasının orta aylıq məbləği 11,3 dəfə artmışdır.

Əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə ünvanlı sosial yardım sistemi ilə paralel olaraq əhalinin özünüməşğulluq sisteminə mərhələli keçid də dəstəklənir. Təsadüfi deyil ki, cənab Prezidentin rəhbərliyi illərində ölkəmizdə iki milyondan çox yeni iş yeri yaradılmışdır və bunun da böyük əksəriyyəti daimi olmaqla regionların və qeyri-neft sektorunun payına düşür. Dövlətin sosial infrastrukturun (xüsusilə, təhsil və səhiyyə sahəsində) inkişafında mühüm rolu sosial rifahın maddi əsasını təşkil edir.

Cənab Prezidentin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi, mədəni və ictimai-siyasi islahatların ən fəal iştirakçılarından biri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müəllifi olduğu və bilavasitə rəhbərliyi altında həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb", "Diabetli uşaqlara ən yüksək qayğı" proqramları, "Tolerantlığın ünvanı - Azərbaycan", "Təhsilə dəstək" layihələri, habelə əsas istiqamətlərini təhsil, mədəniyyət, səhiyyə, idman və sosial sahələr təşkil edən və xalqımız tərəfindən böyük rəğbət və razılıqla qarşılanan digər proqram və layihələr bu sahədə bir sıra problemlərin aradan qaldırılmasına zəmin yaratmışdır.

Bütövlükdə yuxarıda qeyd olunan tədbirlər nəticəsində ölkədə təhsil və səhiyyə islahatlarının sistemli xarakter alması insan inkişafı indeksinə böyük töhfə vermişdir. Beləliklə, cənab Prezident tərəfindən demoqrafiya qanunlarının ölkənin kompleks iqtisadi inkişafı xətti ilə uzlaşdırılmasına əsaslanan sistemli yanaşmanın tətbiqi sosial bazar modelinin uğurlu nümunəsini göstərir. Azərbaycanda dövlətlə vətəndaş arasında sosial anlaşma, inklüzivlik və dialoq mühiti mövcuddur. Davos İqtisadi Forumunun apardığı sorğuların nəticələrinə görə, "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycanın dünyada 20-ci yerdə olması iqtidarla xalq arasında böyük etimadın və vəhdətin əyani göstəricisidir. Prezident İlham Əliyev dəfələrlə bildirmişdir ki, ölkədə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsi və eyni zamanda, iqtidarın apardığı siyasətdir. İlham Əliyevin lider portretini tamamlayan əsas cizgilərdən biri onun xalqdan güc almasıdır.

Aparılan siyasətin daha bir mötəbər nəticəsi bir tərəfdən Azərbaycanın "Doing Business" hesabatına görə dünyada "ən islahatçı ölkə" statusuna yüksəlməsi, digər tərəfdən isə Azərbaycanın inkişaf etməkdə olan ölkələr sırasında inklüziv (hərtərəfli) inkişaf indeksinə görə üçüncü yeri tutmasıdır. Xüsusilə, Avropanın təcrübəsi göstərir ki, aparılan iqtisadi islahatların ağırlığı əsasən əhalinin üzərinə qoyulur və beləliklə, sosial, bəzən isə siyasi gərginlik artır. Azərbaycanda isə iqtisadi islahatlar və sosial rifah arasında "qızıl orta" tapıldığından, balanslı yanaşma iqtisadi artımı iqtisadi inkişafa çevirir və harmoniya pozulmur.

İnsan kapitalının inkişafında idmanın xüsusi əhəmiyyəti vardır. Azərbaycan bu gün dünyada həm də bir idman ölkəsi kimi tanınır. Ölkədə keçirilən ilk Avropa Oyunları, 42-ci Dünya Şahmat Olimpiadası, qadınlar arasında voleybol üzrə Avropa çempionatı, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 Avropa Qran-Prisi və digər idman tədbirləri ilə Azərbaycan bütün dünyanın diqqət mərkəzindədir.

## YENİ İNKİŞAF DRAYVERLƏRİ

2015-ci ilə qədər Prezident İlham Əliyevin rəhbərliyi ilə üç dəfədən çox böyümüş iqtisadiyyatı post-neft dövründə belə bir baza əsasında yenidən davamlı inkişaf xəttinə çıxarmaq tarixi bir missiya idi. Cənab Prezidentin həyata keçirdiyi islahatların nəticəsi olaraq:

*1. 2016-2017-ci illərdə Azərbaycan iqtisadiyyatı xarici şokların mənfi təsirindən uzaqlaşdı və sabitləşdi;*

*2. 2017-ci ilin sonundan başlayaraq şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xətti bərpa edildi.*

2018-ci ildən başlayaraq əsas hədəf dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabət qabiliyyətinin artırılmasına nail olmaqdır. Azərbaycanda post-neft dövrü üçün iqtisadiyyatın əsas inkişaf drayverləri bunlardır:

* Qeyri-neft sənayesi (neft-kimya, polad, alüminium, ərzaq, müdafiə sənayesi və s.);

* Aqrar sahə (pambıq, tütün, kartof, meyvə-tərəvəz, üzüm və s.);

* Xidmət sektoru (turizm, nəqliyyat, logistika, İKT, kosmik xidmətlər və s.);

* Tikinti.

## AZƏRBAYCAN DÖRDÜNCÜ SƏNAYE İNQİLABININ ÇAĞIRIŞLARINA CAVAB VERİR

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə sənayenin üstün artımı təmin edilmişdir. Real ifadədə sənaye 3,9 dəfə və qeyri-neft sənayesi isə 2,6 dəfə böyümüşdür. Bakı Qafqazın ən iri sənaye şəhəri statusunu daha da möhkəmləndirmişdir. Hazırda sənayenin strukturunda hasilatdan emala keçid müşahidə edilir. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı artaraq 56,8 faizdən 80,0 faizə çatmışdır. Azərbaycanda bir tərəfdən sənaye xammalının hasilatı və metallurgiya, digər tərəfdən isə emal sənayesi (məsələn, avtomobil və müdafiə sənayesi) inkişaf etdirilir. Beləliklə, sənayedə dəyər zənciri üzrə bütün mərhələlər - upstream, midstream və downstream - əhatə olunur.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədilə 2014-cü il ölkə başçısı tərəfindən "Sənaye İli" elan edilmişdir. Bu çərçivədə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" və "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir.

Yeni sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi və yerli sənaye sahələrinə investisiyaların cəlb olunmasının təşviq edilməsi məqsədilə cənab Prezident tərəfindən 2017-ci ildə imzalanmış müvafiq fərmanlarla investisiya təşviqi mexanizmi yaradılmış, sənaye istehsalı ilə məşğul olan hüquqi şəxslərin və fərdi sahibkarların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaranmışdır. Cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış sənaye parkları və məhəllələrində xammalın və yarımfabrikatın son məhsula çevrilməsi sayəsində neft-kimya, tullantıların emalı, gəmiqayırma, toxuculuq, trikotaj və digər sənaye sahələri sürətlə inkişaf etdirilir. Azərbaycanda ənənəvi sənaye sahələrinin bərpası ilə yanaşı, əvvəllər mövcud olmamış hərbi sənaye, kosmik və alternativ enerji sahələri yaradılmışdır və bu istiqamətdə işlər davam etdirilməkdədir. Artıq Azərbaycanın süni peykləri xidmət ixracından ölkəyə milyonlarla ABŞ dolları gəlir gətirilməsini təmin edir.

Azərbaycanın Türkiyədə neft-kimya kompleksinə sərmayələri və SOCAR Polimerin fəaliyyətə başlaması ilə Xəzər dənizinin sahilindən başlayaraq Gürcüstan üzərindən Aralıq dənizi hövzəsinə qədər uzanan neft-kimya sənaye qovşağı formalaşır. Cənab Prezidentin uzaqgörən sənaye siyasəti nəticəsində yaranan bu kompleks regionun geoiqtisadiyyatını yenidən formalaşdırır. Azərbaycan indi təkcə xam neftin deyil, həm də yüksək keyfiyyətli neft-kimya məhsullarının ixracını həyata keçirməklə daha çox dəyər qazanır və strateji mövqelərini gücləndirir.

## AQRAR SİYASƏT: ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ RƏQABƏT QABİLİYYƏTİ

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən aqrar islahatların birinci mərhələsində Azərbaycan kəndlisinin çoxəsrlik arzusu reallaşmış və o, torpağın həqiqi sahibinə çevrilmişdir. Məhz bu uğurlu islahatlar nəticəsində aqrar sahə böhranlı vəziyyətdən çıxmış, ərzaq təhlükəsizliyi və sektorun rəqabət qabiliyyəti yüksəlmişdir.

Ulu öndərin siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin 2003-cü ildən etibarən təsdiq etdiyi bir sıra mühüm proqramlar və həyata keçirdiyi digər tədbirlər ilə aqrar sahədə islahatların ikinci mərhələsi başlanmışdır. Aqrar islahatların ikinci mərhələsi çərçivəsində kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin verilməsi mexanizmləri formalaşdırılmış, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlərin göstərilməsi təşkil edilmiş, məhsul istehsalçılarının texnika ilə təminatı və heyvandarlığın cins tərkibi yaxşılaşdırılmış, aqrar sahədə istehsal olunan məhsulların tədarükü mexanizmi yaradılmışdır. Bu müddətdə "Aqrolizinq" ASC tərəfindən ölkəyə 42 mindən çox texnika, 35 mindən çox damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə istehsalçılara lizinqə verilmiş və ya satılmışdır.

Məhz aqrar islahatların ikinci mərhələsi çərçivəsində görülən tədbirlər nəticəsində 2003-2017-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz olmuşdur. Hətta qlobal iqtisadi proseslərin təsiri ilə 2016-cı ildə ölkədə ümumi iqtisadi artım zəifləsə də, kənd təsərrüfatı sahəsində artım müşahidə edilmişdir. Belə ki, kənd təsərrüfatı sahəsi üzrə artım 2015-ci ildə 6,6 faiz, 2016-cı ildə 2,6 faiz, 2017-ci ildə 4,2 faiz, 2018-ci ilin 11 ayının nəticələrin görə isə 4,6 faiz olmuşdur. Beynəlxalq qurumlar tərəfindən aparılan qiymətləndirmə də göstərmişdir ki, 2003-2016-cı illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsinin real artım göstəricisi dünya üzrə müvafiq orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olmuşdur. 2003-cü illə müqayisədə 2017-ci ildə ölkədən ixrac olunan kənd təsərrüfatı məhsullarının dəyəri 6,3 dəfə artmışdır. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, 2018-ci ilin 11 ayı ərzində Azərbaycandan meyvə-tərəvəz ixracı 495 milyon ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz çoxalmışdır. Bu müddətdə pambıq lifinin ixracı 2,5 dəfə, pambıq ipliyinin ixracı isə 44 faiz artmışdır. Göründüyü kimi, aqrar islahatların müasir mərhələsi kənd təsərrüfatının yüksək əlavə dəyər yaradan ənənəvi sahələrinin inkişafı baxımından da əlamətdar olmuşdur.

Ümumilikdə, yerli istehsal potensialından daha səmərəli istifadə edilməsi və rəqabətqabiliyyətliliyin artması hesabına ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə yüksəlmişdir. Azərbaycan artıq bir çox ərzaq məhsulları ilə özünü tam təmin edir. Nüfuzlu beynəlxalq qurumların hesabatlarına əsasən son illər ərzində ölkəmizin ərzaq təhlükəsizliyi göstəricisi əsaslı şəkildə yüksəlmişdir.

Qarşıdakı illərdə cənab Prezidentin rəhbərliyi ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icrası çərçivəsində aqrar sahədə daha böyük uğurlara nail olunacağı da şübhəsizdir.

## AZƏRBAYCAN AVRASİYANIN NƏQLİYYAT-LOGİSTİKA QOVŞAĞIDIR

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə 3,1 dəfə böyümüş nəqliyyat sektoru təkcə Azərbaycan üçün deyil, bütövlükdə Avrasiya regionu üçün nəqliyyat-logistika xəritəsinin yeni şəkil almasına gətirib çıxarmışdır. Xəzər dənizi akvatoriyasında ən böyük və müasir liman kompleksi olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ətrafındakı Xüsusi İqtisadi Zona və Bakı Gəmiqayırma Zavodu Xəzərin bütün perimetri üzrə liman infrastrukturunun və su nəqliyyatının inkişafına stimul yaratmışdır. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və dəstəyi ilə reallaşan "Dəmir İpək Yolu" adlanan Bakı-Tbilisi-Qars dəmiryolu xətti layihəsi Böyük İpək Yolunun Xəzər dənizi, Aralıq dənizi və Qara dəniz arasındakı intermariumda bərpasını təmin etmişdir. Hava nəqliyyatı üzrə Bakı, Gəncə, Zaqatala, Naxçıvan, Lənkəran və Qəbələdə yeni aeroportlar tikilərək istifadəyə verilmişdir. Prezident İlham Əliyevin son 15 ildə həyata keçirdiyi meqalayihələr və iqtisadi diplomatiya sayəsində Azərbaycan dünyada yeganə ölkədir ki, okeana birbaşa çıxışı olmadan nəqliyyat-logistika habına çevrilmişdir. Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin Azərbaycanda kəsişməsi ölkəmiz üzərindən bir neçə modifikasiyada Çin-Avropa, Orta Asiya-Qara dəniz hövzəsi, İran-Rusiya, İran-Qara dəniz hövzəsi, Hindistan-Şimali Avropa, Orta Asiya-Avropa kimi marşrutlar cızmışdır. Bununla yanaşı, Rusiya Federasiyası ilə İran İslam Respublikasının dəmir yolları sistemi Şimal-Cənub dəhlizi üzrə inşa edilən Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu vasitəsilə birləşəcəkdir. Bu dəmir yolu xətti ilə Fars körfəzi sahilindəki Bəndər-Abbas limanına daxil olan mallar Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə Rusiyaya və oradan da Avropaya daşınacaqdır.

Azərbaycan bir tərəfdən nəqliyyat-logistika infrastrukturunu təkmilləşdirdiyi halda, digər tərəfdən strateji tərəfdaşları ilə tariflərin və prosedurların unifikasiyası, həmçinin qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində özəl sektorun iştirakı ilə daha böyük yük və sərnişin dövriyyəsinin formalaşmasına nail olmuşdur. Avrasiyanın ən iri güc mərkəzləri Avropa İttifaqı, Türkiyə, Rusiya, İran, Hindistan və Çin həmin nəqliyyat xəritəsinin iştirakçısı olmuşlar.

Göründüyü kimi, Prezident İlham Əliyevin siyasəti Ulu öndərin zəngin irsinə, şərq müdrikliyinə, qərb soyuqqanlılığına və rasional texnologiyalara əsaslanır. Bu siyasətin nəticəsi olaraq Azərbaycanın regional qovşağa çevrilməsi ölkəmizin strateji mövqelərinin güclənməsi, nəqliyyat-logistika infrastrukturunun şaxələndirilməsi ilə iqtisadi təhlükəsizliyimizin daha da üst səviyyəyə qalxması, yeni iş yerlərinin yaradılması, iqtisadi artım təmin edilmiş, həmçinin Ermənistanın ətrafında olan iqtisadi və siyasi həlqənin radiusu getdikcə daha çox kiçilmişdir.

## ULU ÖNDƏRİN ƏMANƏTİ

Dünya Bankının son hesablamalarına görə, dünyada hər nəfərə düşən sərvətin həcmi 1995-ci ildə 128.921,0 ABŞ dollarından 2014-cü ildə 168.580,0 ABŞ dollarına qədər, başqa sözlə, 31 faiz artmışdır. Azərbaycanda isə bu dövrdə hər nəfərə düşən sərvətin həcminin artım tempi dünyadakı artım tempini 3,5 dəfə üstələməklə 110 faiz olmuşdur. Azərbaycanın əldə etdiyi bu tarixi nailiyyət postsovet məkanında ən yüksək göstəricidir. 1995-2014-cü illərdə Azərbaycan hər nəfərə düşən sərvətin həcmi 100 faizdən daha çox artan nadir ölkələr (Çin, Hindistan, İndoneziya və s.) sırasındadır. 1995-ci il Ulu öndər Heydər Əliyevin Ermənistanın təcavüzünün qarşısını almasından, ölkədə ictimai-siyasi və iqtisadi kataklizmlərə son qoymasından sonra dərin islahatlara start verdiyi çıxış nöqtəsi idi. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu alternativsiz kursun nəticəsində Azərbaycanın hər nəfərə düşən sərvəti 2,1 dəfə artmışdır. Cənab Prezident milli sərvətin strukturunda insan kapitalının məhz təbii sərvətlərin hesabına artması kursunu əsas götürmüşdür.

Prezident İlham Əliyev resursla zəngin ölkəmiz üçün "İqtisadi inkişafın Azərbaycan modeli"ni yaratmışdır. Bu model strateji idarəetməyə əsaslanaraq şaxələndirmədən ixtisaslaşmaya, artımdan inkişafa, sosial müqavilədən inklüzivliyə, təbii resurslardan insan kapitalına, sabitlikdən tərəqqiyə və səmərəlilikdən faydalılığa keçidi təmin edir. Məhz buna görə də qədirbilən Azərbaycan xalqı Ulu öndərin hər iki əmanətini - Azərbaycan Respublikasını və onun Prezidenti İlham Əliyevi qoruyur, dəyərini və qədrini bilir.

# Birləşmiş Ərəb Əmirlikləri mətbuatı Prezident İlham Əliyevin uğurlu siyasətindən yazır


إلهام علييف: يحتاج العالم الإسلامي اليوم إلى الوحدة والتضامن كما لم يحدث من قبل

التاريخ : 2018-12-23 | الوقت : 11:04:45

إن أذربيجان بتاريخها العريق الممتد على مدى قرن من الزمان من الطبيعة الجميلة، والمنتجعات الصيفية والشتوية المميزة، والمأكولات الرائعة، والأهم من ذلك كله، الدفء الخاص الذي يسود العلاقات الودية التي تجمع الشعب الأذربيجاني بالشعب الإماراتي. هي أحد الوجهات المفضلة لدى مواطني دولة الإمارات العربية المتحدة.

بعد حصولها على استقلالها في عام 1991، تمكنت أذربيجان من مجابهة كافة التحديات التي واجهتها، فعملت على تطوير اقتصادها، ووقعت عقود تعاون مع شركات عالمية رائدة بهدف استكشاف الكميات الاحتياطية لديها من النفط والغاز، وفي نهاية المطاف تم تصنيفها ضمن الدول الأكثر ريادة في منطقة جنوب القوقاز.

Birləşmiş Ərəb Əmirliklərinin ərəbdilli "samanews" və "kolalarab" xəbər agentliklərində, "eremnews" internet portalında, həmçinin ingilis, çin və rus dillərində nəşr olunan "Avia Most" qəzetində "İlham Əliyev: Müsəlman dünyasının birliyə və həmrəyliyə ehtiyacı var" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə son illərdə Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri sakinlərinin səfər etdikləri ən sevimli məkanlardan birinə çevrildiyi bildirilir. Ölkəmizin mənzərəli yerlərindən, qış və yay istirahət mərkəzlərindən, mülayim iqlimindən, ləziz mətbəxindən söhbət açılır. Azərbaycan xalqının Birləşmiş Ərəb Əmirliklərindən olan turistlərə olan mehriban münasibətindən bəhs olunur.

Yazıda vurğulanır ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bütün çətinliklərə tab gətirərək, sürətli inkişaf yoluna qədəm qoyub. Dünyanın aparıcı şirkətləri ilə neft və qaz yataqlarının istismarına dair sazişlər imzalanıb, köklü islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf etdirilib. Bütün bu görülən işlərin nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun lider ölkəsinə çevrilib.

Məqalədə Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qarşılıqlı etimada söykənən və demək olar ki, bütün sahələri əhatə edən dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğu qeyd olunub, ölkələrimizin iki və çoxtərəfli formatda əməkdaşlıq etdiyi bildirilib. Vurğulanıb ki, hazırda BƏƏ vətəndaşları vizanı elektron qaydada və ya ölkəmizin beynəlxalq hava limanlarında rəsmiləşdirməklə Azərbaycana səfər edirlər. Bu da iki ölkə arasında mövcud olan yüksək səviyyəli münasibətlərin göstəricisi hesab oluna bilər.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əhəmiyyətli addımların atıldığı bildirilir. Qeyd olunur ki, enerji sektorunun inkişafı ilə yanaşı, qeyri-neft sektorunun da müsbət dinamikasını təmin etmək məqsədilə nəqliyyat, kənd təsərrüfatı, turizm, sənaye, azad iqtisadi zonaların yaradılması və digər sahələr təşviq edilməkdədir. Bildirilir ki, Xəzər dənizində yerləşən "Azəri-Çıraq-Günəşli" neft yatağının gələcəkdə işlədilməsi ilə bağlı dünyanın aparıcı neft şirkətləri ilə 2050-ci ilə qədər yeni müqavilə imzalanıb. 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi olub. Azərbaycan qazını Avropaya nəql edəcək Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir ki, onların üçü - "Şahdəniz-2" qaz yatağının işlədilməsi, Cənubi Qafqaz Kəməri və TANAP layihələri üzrə işlər yekunlaşıb, sonuncu olan TAP layihəsinin böyük bir hissəsi icra olunub.

Yazıda strateji baxımdan mühüm məkanda - Şimal-Cənub və Qərb-Şərq beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən Azərbaycanın əsrlərboyu özünəməxsus körpü rolunu oynadığı vurğulanır. Məqalədə 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasiminin keçirildiyi bildirilir. Qeyd edilir ki, Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan sözügedən dəmir yolu xətti qədim İpək Yolunun polad magistrallar vasitəsilə bərpası deməkdir, bu isə öz növbəsində Mərkəzi Asiya ölkələrinin, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracaq. Dəmir yolu regionda turizmin inkişafına da güclü təsir göstərəcək.

Eyni zamanda, məqalədə vurğulanır ki, yaxın gələcəkdə Cənub-Şimal dəmir yolunun da istismara verilməsi nəzərdə tutulur. Bu nəqliyyat dəhlizi vasitəsilə Cənubi Asiya istiqamətindən yüklərin Azərbaycan üzərindən Rusiya və Şimali Avropa ölkələrinə nəqli asanlaşdırılacaq. Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Çin Xalq Respublikasının təşəbbüsü olan "Bir Kəmər - Bir Yol" layihəsini də dəstəkləyir.

Yazıda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya barədə də bəhs edilir. Bu sənədin imzalanmasının regionda əməkdaşlıq proseslərinə təkan verilməsi, dənizin bioresurslarının, ətraf mühitin qorunması və təhlükəsizliyin təmin edilməsi baxımından son dərəcə əhəmiyyətli olduğu qeyd edilir.

Məqalədə Azərbaycanın müxtəlif sivilizasiyalar və mədəniyyətlərin qovuşuğunda yerləşən nadir bir dövlət olduğu bildirilir. Azərbaycanın humanitar məsələlərin müzakirəsinə çox böyük əhəmiyyət verdiyi, ölkədə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyi vurğulanır. Bu tədbirlərdən sonuncusu 2018-ci ilin oktyabrın 25-də VI Bakı Beynəlxalq Humanitar Forumu olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilmiş Forumun açılış mərasimində Birləşmiş Ərəb Əmirlikləri də daxil olmaqla 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edib.

Yazıda, həmçinin qeyd olunur ki, Azərbaycan ilk Avropa Oyunları, Dünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula 1 kimi beynəlxalq yarışlara uğurla ev sahibliyi edib. 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən 3 mindən çox idmançı, 1000-dən çox komanda rəsmiləri iştirak edib. Bu vaxtadək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmayıb. Bu Oyunları 50-dən çox ölkədə 1 milyarddan çox tamaşaçı izləyib.

Yazıda, İslamın Azərbaycanda hələ 7-8-ci əsrlərdə yayıldığı bildirilir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə İslam dəyərlərinin inkişafı istiqamətində böyük işlərin görüldüyü, yeni məscid və məbədlər tikildiyi bildirilir. Xüsusi qeyd olunur ki, əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2200-ə yaxınlaşır. Bütün bunlarla yanaşı, müsəlman dünyasının üzləşdiyi problemlərin gündəmə gətirilməsi, həll olunması istiqamətində də Azərbaycan səylərini əsirgəməyib. Prezident İlham Əliyev İƏT-in rəsmi mətbuat orqanı olan "OIC Journal"da dərc olunmuş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsində bildirib: **"Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır".**

Məqalədə vurğulanır ki, Prezident İlham Əliyevin ölkədə apardığı inamlı siyasət Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanır və dəstəklənir. Təsadüfi deyil ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində İlham Əliyev seçicilərin 86 faizdən çox səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

# Hikmət Hacıyev: Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu xarici siyasət xətti 2018-ci ildə də davam etdirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 2018-ci ildə də ölkəmizin uğurlu xarici siyasət xətti davam etdirilib. Dövlətimizin başçısı xarici siyasət məsələlərini daim diqqət mərkəzində saxlayır, diplomatiyamız qarşısında duran prioritet vəzifələri müəyyən edir, onların planlı və ardıcıl surətdə həyata keçirilməsini təmin edir. Dünya xəritəsində olan heç də hər bir dövlət Azərbaycan kimi müstəqil xarici siyasət yürütmək iqtidarında deyil.**

**AZƏRTAC Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Prezident İlham Əliyevin yürütdüyü strateji diplomatiya və xarici siyasətimizin nailiyyətləri" sərlövhəli məqaləsini təqdim edir.**

2018-ci ilin yanvarında Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən Prezident İlham Əliyev bildirmişdi: **"Azərbaycan bu gün dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Belə ölkələrin sayı çox deyil, xüsusilə əhali və ərazi baxımından böyük olmayan ölkələrə bu, o qədər də xas deyil. Biz isə müstəqillik yolu ilə gedirik və azad, müstəqil həyatımız bizim üçün hər şeydən üstündür".**

Qismən kiçik dövlət olan Azərbaycanın müstəqil xarici siyasət yürütmək imkanlarını Prezident İlham Əliyevin güclü şəxsiyyət kimi qəti iradəsi, dərin və strateji baxışı və düşünülmüş, çevik qərarları və uzaqgörən siyasəti şərtləndirir.

Azərbaycan müstəqil xarici siyasətini Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, beynəlxalq münasibətlərdə ziddiyyətlərin kəskinləşməsi və gərginliyin artması, beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozulması ilə müşayiət olunan fəaliyyətlər, Azərbaycana yaxın regionlarda yeni münaqişə ocaqlarının yaranması, beynəlxalq terrorizm təhlükəsinin, dövlətlərin daxili işlərinə müdaxilə cəhdlərinin artması, o cümlədən yerləşdiyimiz regionun geosiyasi çətinlikləri şəraitində həyata keçirir. Həmçinin ölkəmizə qarşı davamlı şəkildə dezinformasiya və hibrid müharibə əməlləri aparılır.

Prezident İlham Əliyev tərəfindən qeyd olunduğu kimi, ölkəmizdə daxili təhlükə mənbələri mövcud deyil. Potensial təhlükələr ölkəmizin xaricində formalaşır. Dövlətimizin başçısının yürütdüyü çevik, praqmatik və tarazlaşdırılmış çoxşaxəli xarici siyasət ölkəmiz ətrafında xoşməramlı mühitin formalaşmasına, xaricdən olan hədə və təhdidlərin preventiv əsaslarla neytrallaşdırılmasına xidmət edir. Ona görə də bu gün Azərbaycan regionda sabitlik və təhlükəsizlik adası kimi tanınır.

Azərbaycanın milli maraqlarına əsaslanan müstəqil və çevik xarici siyasətin həyata keçirilməsində Prezident İlham Əliyevin qonşu və digər dövlətlərin başçıları ilə görüşləri, yüksək səviyyəli dialoqu və müzakirələri müstəsna əhəmiyyətə malik amildir. Daxili siyasətdə olduğu kimi, xarici siyasət məsələlərində də dövlətimizin başçısının qrafiki gərgin və intensiv xarakter daşıyır, çoxsaylı səfərlər və görüşlərlə müşayiət olunur. Yola salmaqda olduğumuz 2018-ci ildə Prezident İlham Əliyevin Türkiyə, Rusiya, Böyük Britaniya, İsveçrə, Fransa, Xorvatiya, Belçika, Qazaxıstan, Qırğızıstan, Belarus və Türkmənistan olmaqla 16 rəsmi və işgüzar səfəri həyata keçirilib. Həmçinin Türkiyə, İran, Rusiya, İtaliya, Tacikistan, Makedoniya, Monqolustan, Albaniyanın dövlət başçıları, Almaniyanın Kansleri, Bolqarıstan, Gürcüstan və Slovakiyanın baş nazirləri, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü ölkəmizdə rəsmi və işgüzar səfərlərdə olublar.

Prezident İlham Əliyevin gündəliyində hər bir səfər nəticəyönümlü və praktiki xarakter daşıyır, strateji maraqlara əsaslanan qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

2018-ci ildə Prezident İlham Əliyevin qonşu dövlətlər olan Türkiyə, Rusiya və İranın dövlət başçıları ilə dostluq şəraitində keçən görüşləri, ikitərəfli əsasda həyata keçirilən səfərləri və səmimi dialoqu mehriban qonşuluq əlaqələrimizin daha da inkişafında mühüm əhəmiyyət kəsb edib. Prezident İlham Əliyevin Avropa İttifaqının mənzil-qərargahına səfəri və Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Donald Tusk ilə görüşü, Aİ ilə Tərəfdaşlıq Prioritetləri sənədinin paraflanması, ABŞ Prezidentinin dövlətimizin başçısına ünvanlandığı məktublar və Birləşmiş Ştatların yüksək çinli nümayəndə heyətlərinin ölkəmizə səfərləri Azərbaycanın Aİ və ABŞ-la əməkdaşlığının daha da inkişafına təkan verib.

Dövlətimizin başçısının iştirakı ilə 2018-ci ildə xarici ölkələrlə 90-dan çox müqavilə, birgə bəyanat və digər bu qəbildən olan sənədlər imzalanıb. Bu sənədlər mahiyyət etibarilə digər ölkələrlə ikitərəfli əməkdaşlığın müqavilə-hüquq bazasının genişlənməsinə xidmət edir. Prezident İlham Əliyev və digər ölkələrin dövlət başçıları ilə birlikdə imzalanmış sənədlər sırasında bunları qeyd edə bilərik:

*- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya;*

*- "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu";*

*- "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı";*

*- Azərbaycan Respublikasının Prezidenti və Tacikistan Respublikasının Prezidentinin Birgə Bəyanatı;*

*- "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat";*

*- Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatı;*

*- Azərbaycan Respublikasının Prezidenti və Türkmənistan Prezidentinin Birgə Bəyanatı.*

2018-ci ildə Xəzər dənizinin hüququ statusu haqqında Konvensiyanın imzalanması Azərbaycanın, o cümlədən bütün Xəzəryanı dövlətlərin birgə nailiyyətidir. Region xalqları əsrlərboyu Xəzər dənizindən və onun resurslarından yararlansalar da, dənizin hüquqi statusunu tənzimləyəcək sənəd bu günədək mövcud olmamışdı. Məhz bu səbəbdən 2018-ci il avqustun 12-də Aktauda V Zirvə toplantısında dövlət başçıları tərəfindən imzalanmış Konvensiya ilk dəfə Xəzər dənizinin hüquqi statusunu müəyyən edərək, sahilyanı dövlətlərin dənizə münasibətdə hüquq və öhdəliklərini təsbit etdi. Zirvə toplantısında çıxışı zamanı dövlətimizin başçısı tərəfindən qeyd edildiyi kimi, Konvensiya Xəzər dənizində hərtərəfli hüquqi rejimi müəyyənləşdirmiş oldu.

İmzalanan sənədlərdə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinin təsbit edilməsi Prezident İlham Əliyevin gündəliyində prioritet mövzulardan biridir. Belə ki, qeyd olunan digər sənədlərdə ikitərəfli əməkdaşlığın prioritet istiqamətləri müəyyən olunmaqla bərabər, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstək və münaqişənin məhz bu prinsiplər, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll edilməsi bir daha öz təsbitini tapıb.

İl ərzində Prezident İlham Əliyev tərəfindən ölkədə və ölkə xaricində əcnəbi nümayəndə heyətləri ilə 230-dan çox görüş keçirilib. Amma buraya hələ mədəniyyət, sosial və idman təyinatlı nümayəndə heyətləri ilə görüşlər daxil deyil. Dövlətimizin başçısı dünyada iqtisadi-siyasi və maliyyə gündəliyinin formalaşdırılmasında mühüm rol oynayan Davos İqtisadi Forumu kimi nüfuzlu çoxtərəfli platformada, NATO-nun Brüssel Sammiti, həmçinin MDB və Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının zirvə toplantılarında, Qoşulmama Hərəkatının Bakıda keçirilmiş nazirlər toplantısında və digər mötəbər tədbirlərdə çıxış edərək Azərbaycanın qlobal və regional problemlərlə əlaqədar fundamental baxışını ortaya qoyub.

Diplomatik münasibətlərin vacib tərkib hissələrindən biri də diplomatik yazışmalar və korrespondensiyadır. İl ərzində Prezident İlham Əliyevlə dünya liderləri arasında olan məktub mübadiləsi və digər bu qəbildən olan diplomatik yazışmaların sayı 750-dən çoxdur.

2018-ci il, həmçinin Ermənistanda Serj Sarkisyanın rəhbərlik etdiyi hərbi xunta rejiminin iflası ilə yadda qalıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yürütdüyü siyasət, Ermənistanın təcridi Serj Sarkisyan rejiminin tarix səhnəsindən silinməsini şərtləndirən vacib amillərdən olub.

Ermənistanda baş verən siyasi böhrana münasibətdə Azərbaycan Prezident İlham Əliyevin şəxsində strateji təmkinini və yüksək siyasi mədəniyyətini nümayiş etdirdi. Ermənistanın yeni siyasi rəhbərliyinin danışıqlar prosesinin formatını dəyişmək və siyasi iddialar irəli sürmək cəhdlərinin qarşısı alındı. MDB-nin Düşənbədə keçirilmiş Sammiti çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutmuş söhbət əsnasında danışıqların münaqişə tərəfləri olaraq Ermənistan və Azərbaycan arasında aparılması və danışıqların davam etdirilməsi bir daha təsbit edildi. Həmçinin MDB-nin Sankt-Peterburqda keçirilmiş qeyri-rəsmi Sammitində dövlətimizin başçısının Ermənistan baş naziri ilə növbəti söhbəti baş tutub. ATƏT-in Milanda keçirilmiş nazirlər toplantısında Minsk qrupunun həmsədrləri ilə birlikdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qəbul etdikləri birgə bəyanat danışıqların mövcud format əsasında davam etdirilməsini bir daha təsdiq edərək Prezident İlham Əliyevin yürütdüyü diplomatiyanın qalibiyyətini nümayiş etdirir.

Bu xüsusda Prezident İlham Əliyevin nümayiş etdirdiyi konstruktiv siyasət və münaqişənin substantiv danışıqlar yolu ilə həll edilməsi mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir, ictimai açıqlamalarda və keçirilən görüşlərdə bu dəstək açıq şəkildə ifadə olunur.

İl ərzində Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinə dəstəyin gücləndirilməsi istiqamətində ardıcıl siyasət davam etdirilib. Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə Brüsseldə paraflanmış Tərəfdaşlıq Prioritetləri sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstək öz əksini tapıb. Dövlətimizin başçısının iştirak etdiyi NATO-nun Brüssel Zirvə toplantısının nəticəsi olaraq qəbul edilmiş yekun bəyanatda Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstək və münaqişənin bu prinsiplər əsasında həllinə çağırış edən mövqe bir daha ifadə olunub.

Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi və Vətənə qaytarılması məsələsini Prezident İlham Əliyev daim diqqət mərkəzində saxlayır və davamlı şəkildə bu məsələni ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi və digər rəsmi nümayəndə heyətləri ilə müzakirə edir. Dövlətimizin başçısının humanist xarakter daşıyan və "hamının hamıya" prinsipi əsasında Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı dəyişdirilməsi təklifini bütün beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri dəstəkləyirlər.

Prezident İlham Əliyevin qəti və ardıcıl siyasəti Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində də marginal vəziyyətə düşməsini şərtləndirib. Azərbaycan bu təşkilatın üzvü deyil, amma Ermənistanın bu təşkilatdakı statusundan sui-istifadə edərək yürütdüyü siyasətə münasibətdə ölkəmiz biganə qala bilməzdi. Nəticə etibarilə, bu təşkilatın statusuna xələl gətirən Ermənistan nümayəndəsi baş katib postundan uzaqlaşdırıldı və Ermənistanın bu vəzifəni əlində saxlamasına imkan verilmədi.

Prezident İlham Əliyevin yürütdüyü strateji diplomatiyanın və məntiqli xarici siyasətin nəticəsidir ki, Azərbaycanın beynəlxalq nüfuzu və çəkisi, regional liderlik rolu daha da yüksəlir və möhkəmlənir.

VI Qlobal Bakı Forumunun açılışında çıxış edən Prezident İlham Əliyev bildirmişdi: **"Bütün səylərimiz təhlükəsizliyin, sabitliyin və proqnozlaşdırmanın, eləcə də xalqlar arasında sülh şəraitində birgə yaşamanın və anlaşmanın möhkəmləndirilməsinə yönəlib".**

Azərbaycan bu gün regional və qlobal problemlərin həllinə fəal şəkildə töhfə verən dövlətdir. Ölkəmiz transregional nəqliyyat və enerji layihələri ilə region və onun hüdudlarından kənarda sülhün, sabitliyin möhkəmlənməsinə əhəmiyyətli dəstəyini verir. Regional mənsubiyyət və məsuliyyət prinsiplərindən çıxış edərək ikitərəfli və üçtərəfli əməkdaşlıq mexanizmləri ilə regionda sülhü, sabitliyi və əməkdaşlığı gücləndirir.

Azərbaycan beynəlxalq münasibətlərdə qanunun aliliyinə əsaslanan iqtisadi və siyasi düzənin formalaşdırılmasının tərəfdarı kimi çıxış edir.

Dövlət başçısının müəyyən etdiyi strateji tapşırıqlara uyğun olaraq, Azərbaycan 2019-2022-ci illərdə dünyanın 120 ölkəsinin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edəcək. 2018-ci ilin aprelində Qoşulmama Hərəkatı üzv dövlətlərinin Bakıda keçirilmiş xarici işlər nazirlərinin toplantısında çıxış edən Prezident İlham Əliyev hərəkatın əsasını təşkil edən Banduq prinsiplərinə uyğun olaraq Azərbaycanın sədrliyinin prioritetlərini, beynəlxalq sülh və təhlükəsizliyi möhkəmləndirmək istiqamətində baxışını təqdim etdi.

Yürüdülən siyasətin nəticəsidir ki, Azərbaycan bu gün həm də qlobal əhəmiyyətli strateji dialoq platforması rolunda çıxış edir.

2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi artıq ənənəvi xarakter daşıyır. Belə ki, 2017-ci ilin fevralında Amerika Birləşmiş Ştatlarının Baş Qərargahlar rəisi ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, 2017-ci ilin sentyabrında isə NATO-nun hərbi komitəsinin sədri ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında Bakıda görüşlər keçirilib.

Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Bu xüsusda Prezident İlham Əliyev bildirmişdi: **"Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var".**



Azərbaycan beynəlxalq ictimaiyyətin layiqli və məsuliyyətli üzvü olaraq, bu formatda görüşlərin keçirilməsinə ev sahibliyi etməklə qlobal sülh və təhlükəsizliyin, silahlara nəzarət rejiminin möhkəmləndirilməsinə, beynəlxalq səviyyədə gərginliyin azaldılmasına və strateji dialoq və qarşılıqlı etimad mühitinin formalaşmasına öz töhfəsini verir.

Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələr çoxşaxəlidir. Onlardan biri mədəni körpülərin qurulmasına yönələn səylərimizdir ki, bu da Asiya və Avropa, Avropa ilə müsəlman dünyası arasında daha yaxşı anlaşmanın yaradılmasına xidmət edir.

2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı Prosesi" təşəbbüsü irəli sürülüb. Bu il 10 illiyini qeyd edən "Bakı Prosesi" qlobal səviyyədə mədəniyyətlərarası və sivilizasiyalararası dialoq prosesində mühüm rola malik nüfuzlu platformadır. Mütəmadi əsasda, o cümlədən 2018-ci ildə ölkəmizdə keçirilmiş Humanitar Forum qlobal humanitar məsələlərin müzakirə edildiyi və həll yollarının tapıldığı mühüm beynəlxalq formatdır.

Xarici siyasət uzunmüddətli strategiyaya hesablandığı üçün 2018-ci ildə dövlətimizin başçısı tərəfindən irəli sürülən bir sıra təşəbbüslər var ki, onların nəticələri və uğurlarını Azərbaycan xalqı hələ qarşıdan gələn illər ərzində görəcək.

2018-ci il Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyi və suverenliyinin güclənməsinə xidmət edən illərdən biri olub. Dövlətimizin başçısının dediyi kimi, **"Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".**

# Azərbaycanda sosial rifahın və iqtisadi inkişafın təminatını Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs təşkil edir



***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov www.yap.org.az saytına müsahibə verib:***

**- Cənab nazir, Azərbaycanda aqrar sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin əsas prioritet istiqamətləri hansılardır?**

- Ölkəmizdə aqrar sahənin inkişaf etdirilməsi dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılıb və aparılan iqtisadi siyasətin əsas istiqamətlərindən biri olub. Hazırda Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən və həyatımızın bütün sahələrinin tərəqqisinə yönələn siyasi kurs dayanır. Müstəqilliyimizin, təhlükəsizliyimizin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın dayanıqlığının əsas təminatını məhz bu siyasət təşkil edir. Aparılan məqsədyönlü islahatlar nəticəsində digər sahələr kimi, aqrar sahə də özünün dinamik inkişafı ilə mövcud çağırışlara cavab verərək keyfiyyətcə yeni mərhələyə daxil olub. Dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində aqrar sahənin inkişafı ilə bağlı qabaqcıl tənzimlənmə və dəstək mexanizmlərinin ölkəmizdə geniş tətbiqinə real zəmin yaranıb.

İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın nəticəsidir. Bu nəticələr, tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi, "Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur". Ölkənin ərzaq təhlükəsizliyinə böyük töhfələr verən və əhalinin davamlı olaraq ərzaqla təmin olunması missiyasını üzərinə götürən fermerlər də dövlətin xüsusi diqqət və qayğısı ilə himayə olunublar.

Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, qlobal bazarlara daha sıx inteqrasiyanın təmin olunması, iqtisadi şaxələnmənin dərinləşdirilməsi və yüksək artımın təmin olunması aparılan iqtisadi siyasətin əsas prioritetləridir. Bu siyasətin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin və ixrac potensialının gücləndirilməsi, aqrar sahənin modernləşdirilməsi, intensiv inkişaf mexanizmlərinin daha çevik tətbiq edilməsi və fermerlərin maddi rifahının yüksəldilməsi aqrar sahədə dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Bu istiqamətdə kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi, ekosistemin qorunması, məhsuldarlığın artırılması, torpaq və su resurslarından daha rasional istifadə edilməsi qarşımızda duran əsas vəzifələrə çevrilib.

Ən vacib prioritet istiqamətlərdən biri də, sözsüz ki, aqrar sahədə innovasiyaların daha geniş tətbiqinə nail olunmasıdır. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycanda ilk dəfə aqrar texnologiyalar və yaşıl enerji mövzusuna həsr olunmuş Beynəlxalq Forum keçirildi. Forum fermerlərimizə, aqrar sahədə çalışanlara dünya təcrübəsi ilə tanış olmaq, innovasiyaların tətbiqi ilə məhsuldarlığın artırılması yollarını tanınmış ekspertlərlə müzakirə etmək imkanı yaratdı. Foruma olan böyük ictimai marağı nəzərə alaraq qeyd edə bilərik ki, Azərbaycan aqrar sahədə innovasiyaların daha çox tətbiq olunduğu ölkələrdən birinə çevriləcək.

**- Cənab Prezident tərəfindən 2018-ci ildə aqrar sahədə islahatlar davam etdirilib, struktur dəyişiklikləri aparılıb. Bu islahatlar Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinə necə təsir göstərəcək?**

- Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün həyata keçirilən islahatlar elmi yanaşmalara söykənməklə fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Məqsədləri reallaşdırmaq üçün kəndli və fermerlərə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqi prinsiplərinə əsaslanmaq Kənd Təsərrüfatı Nazirliyi qarşısında başlıca vəzifələr kimi müəyyən edilib.

İslahatlar çərçivəsində kənd təsərrüfatı sahəsi üzrə modernləşdirilmiş elmi tədqiqatların aparılması, qiymətləndirmə və proqnozlaşdırmanın, strateji planlaşdırmanın həyata keçirilməsi üçün potensialın yaradılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Mərkəzin əsas funksiyaları kimi kənd təsərrüfatının və kənd yerlərinin inkişafı ilə bağlı təhlillərin və elmi tədqiqatların aparılması, analitik məlumat bazasının və informasiya sistemlərinin formalaşdırılması, proqram və layihələrin hazırlanması müəyyən edilib.

Bundan başqa, aqraryönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ yeniliklərin fermerlərə ötürülməsi, elmi-tədqiqat institutlarının məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi üçün institusional islahatlar apararaq Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb.

Eyni zamanda, aqrar islahatların vacib istiqamətlərindən biri olan bazara çıxış imkanlarının daha da gücləndirilməsi, istehsal vasitələri ilə təminatın və bu sahədə rəqabət mühitinin yaxşılaşdırılması məqsədilə cənab Prezidentin Fərmanı əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrar tədarük və təchizat" ASC təsis edilib. Bu qurumun yaranması fermerlərin rifah halının daha da yaxşılaşdırılmasına xidmət etməklə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalının və emalının stimullaşdırılmasını, kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınmasının sistemli şəkildə həyata keçirilməsini təmin edəcəkdir. Dövlət başçısının qarşımıza qoyduğu vəzifələrin icrası üçün fəaliyyətimizdə dörd əsas prinsipə əsaslanacağıq:

- aşağı qiymət və dövlət vəsaitinə qənaət;
- keyfiyyətli məhsul istehsalı və təhlükəsiz qida ilə təminat;
- ədalətli rəqabət və yerli məhsul istehsalına dəstək;
- çevik və şəffaf idarəetməni təşkil etmək.

Cənab Prezidentin digər Fərmanı ilə Kənd Təsərrüfatı Layihələri və Kreditlərin İdarə Olunması üzrə Dövlət Xidmətinin bazasında Aqrar Kredit və İnkişaf Agentliyi yaradılıb. "Aqrolizinq" ASC-nin portfeli, eyni zamanda, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların güzəştli qiymətlərlə satışı funksiyaları yeni yaradılan agentliyə verilib. Aparılan islahatlar nəticəsində bundan sonra kənd təsərrüfatı texnikası və damazlıq heyvanlara tətbiq olunan güzəştlər bütün təchizatçı şirkətlərə şamil ediləcək. Nəticədə kənd təsərrüfatı texnikası bazarı liberallaşacaq, fermerlərin subsidiyalardan istifadə imkanları artacaq. Eyni zamanda, maliyyə bazarına çıxış imkanları güclənməklə güzəştli kredit və xidmətlər fermerlər üçün daha əlçatan olacaq. Kənd təsərrüfatı texnikası və damazlıq heyvanların lizinqə götürülməsi artıq "Aqrolizinq"də deyil, müvəkkil banklarda rəsmiləşdiriləcək. Fərmanda nəzərdə tutulduğu kimi, aqroservislər gələn ildən özəlləşdirilməyə çıxarılacaq. Bu tədbirlər fermerlərə göstərilən aqrotexniki xidmətin keyfiyyətini daha da artırmağa imkan verəcək.

Fermerlərə göstərilən dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahədə xidmətyönümlü fəaliyyətə üstünlüyün verilməsi, fermerlərlə işin gücləndirilməsi, innovasiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi məqsədilə ölkə başçısının cari ilin iyulunda imzaladığı Fərmanla nazirliyin rayon və şəhər idarələrinin əsasında Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) yaradılıb. DAİM-in yaradılması aqrar sektorda keyfiyyətli xidmət təşkil edilməklə "vahid pəncərə" prinsipini tətbiq etməyə, şəffaflığı artırmağa, fermerlərlə əlaqələrin qurulması mexanizmini təkmilləşdirməyə imkan verib.

Yola saldığımız ildə görülən işlər sırasında Kənd Təsərrüfatı Nazirliyində və DAİM-lərdə Fermerlər Şuralarının təsis edilməsini, nazirlik yanında Aqrar Məşvərət Şurasının, müxtəlif növ məhsul istehsalçılarını özündə birləşdirən çoxsaylı assosiasiyaların formalaşdırılmasını da qeyd edə bilərik. İnstitusional islahatların tərkib hissəsi olan bu addımlar aqrar sahədə iqtisadi aktivliyin yüksəlməsinə, funksional fəaliyyətlərdə düzgün və səmərəli idarəçiliyin formalaşmasına, kəndli və fermerlərə yaxınlığın təmin olunmasına xidmət edir.

Aqrar sahənin inkişaf etdirilməsində ən vacib məsələlərdən biri ölkəmizdə kooperasiyanın inkişaf etdirilməsi və torpaqların konsolidasiyasıdır. Kooperasiyanın inkişafı istiqamətində təbliğat işlərinin qurulması, yerlərdən daxil olan təşəbbüslərə dəstəyin verilməsi məqsədilə nazirlikdə fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsi yaradılıb. 2018-ci ildə pay torpaqlarının könüllülük əsasında birləşdirilməsi nəticəsində pilot layihə olaraq nazirliyin dəstəyi ilə ilk dəfə Sabirabad rayonunda "Birlik" İstehsal Kooperativi yaradılıb. Artıq Azərbaycanın müxtəlif bölgələrində belə kooperativlərin yaradılması ilə bağlı müraciətlər var və nazirlik könüllü birləşmə, kooperasiyanın üstünlüklərindən istifadə olunmasında maraqlı olan fermerlərin təşəbbüslərini bundan sonra da hərtərəfli dəstəkləyəcəkdir.

**- Aparılan islahatlar, xüsusilə də kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi iqtisadi göstəricilərə necə təsir göstərib?**

- Göstərilən geniş miqyaslı dövlət dəstəyinin nəticəsi olaraq yola saldığımız təsərrüfat ili yüksək nəticələrin əldə olunduğu illərdən olub. Cari ilin 1 dekabr tarixinə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4,6%, o cümlədən bitkiçilik məhsullarının istehsalı 6,6%, heyvandarlıq məhsullarının istehsalı isə 2,7% artıb.

Qeyd edilən dövrə dənli və dənli paxlalı bitkilərin əkin sahələrindən (qarğıdalısız) 3059,9 min ton və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,7% çox məhsul götürülüb, orta məhsuldarlıq 29,2 sentner/ha təşkil edib.

Bu il həm də yüksək əlavə dəyərin yaradıldığı ənənəvi sahələrin davamlı inkişafına nail olunması baxımından da əlamətdar olub. Dekabrın 21-i tarixinə olan operativ məlumatlara əsasən qəbul məntəqələrinə 228,5 min ton pambıq təhvil verilib. Bu il ötən illə müqayisədə pambıq əkini sahəsinin az olmasına baxmayaraq, 21 min ton daha çox pambıq tədarük edilib. Hazırda sahələrdən pambıq yığımı davam edir.

Cari ildə 514 ton barama istehsal edilib ki, bu da keçən illə müqayisədə 2,1 dəfə çox olmaqla son 20 ilin ən yüksək göstəricisidir. Bundan əlavə, 5,7 min ton tütün yığılıb ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 13,3% çoxdur.

2018-ci ilin yanvar-noyabr aylarında təxminən 889,4 min ton kartof (əvvəlki ilin müvafiq dövrü səviyyəsində), 1446,6 min ton tərəvəz (5,6% çox), 998,4 min ton meyvə və giləmeyvə (8,1% çox), 154,8 min ton üzüm (6,2% çox) istehsal edilib, 868,6 ton yaşıl çay yarpağı (12,5% çox) yığılıb, diri çəkidə ət istehsalı 3,0% artaraq 463,6 min ton, süd istehsalı 2,8% artaraq 1899,0 min ton təşkil edib.

İl ərzində 41,6 min hektar ərazidə təkrar əkin aparılıb, təkrar əkin aparılan sahələrin həcmi ötən illə müqayisədə 14,2% çox olub. Ümumilikdə təmiz herik şumu da daxil olmaqla 1057,2 min hektar sahə payızlıq əkin üçün şumlanıb. Gələn ilin məhsulu üçün 876,2 min hektar ərazidə dən üçün payızlıq bitkilər əkilib. Nəticələr ötən illə müqayisədə çoxdur, aqrotexniki qaydalara düzgün əməl olunması istiqamətində aparılan monitorinqlərin nəticələri növbəti ildə orta məhsuldarlığın daha da artacağını deməyə əsas verir.

Həyata keçirilən tədbirlər həm ümumilikdə, həm də ayrı-ayrı məhsullar üzrə böyükhəcmli artımların əldə olunması ilə yanaşı, ixracın həcminin və coğrafiyasının genişlənməsinə də zəmin yaradıb. Bu ilin ilk 10 ayı ərzində 63,8 milyon dollarlıq pambıq lifi və 19,1 milyon dollarlıq pambıq ipliyi ixrac olunub və bu məhsullar üzrə artımlar müvafiq olaraq 2,3 dəfə və 41,2% təşkil edib. Kənd təsərrüfatı məhsullarının ixracının əsasını təşkil edən təzə meyvə ixracı dəyəri 205,6 milyon dollar olmaqla artım 7,9%, təzə tərəvəz ixracı 169,2 milyon dollar olmaqla artım 6,8% təşkil edib. Bundan əlavə 29,6 milyon dollarlıq kartof (artım 14,7%), 6,2 milyon dollarlıq meyvə və tərəvəz konservləri (artım 50,6%) ixrac olunub.

**- 2018-ci ildə aqrar sektorun infrastrukturunun yenidən qurulması istiqamətində hansı işlər görülüb?**

- 2018-ci ildə cənab Prezidentin iştirakı ilə aqrar sahədə potensialın gücləndirilməsinə mühüm töhfə verə biləcək bir sıra kənd təsərrüfatı obyektlərinin açılışı olub. Əsaslı təmirdən sonra Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutu və yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyası istifadəyə verilib. Aqrar elmin modernləşdirilməsi üzrə islahatlar çərçivəsində qeyd edilən müəssisələrlə yanaşı, digər elmi tədqiqat institutlarının inzibati-laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. İnstitutlarda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi üzrə aqroekologiya və aqrokimya, genetika və seleksiya, ilkin toxumçuluq və tingçilik, xəstəlik və zərərvericilərə nəzarət laboratoriyaları yaradılıb, istixana və toxum emalı məntəqələrii tikilib, müasir və məhsuldar meyvə bağları salınıb. İnstitutlarda yaradılan potensial hesabına fermerlər yüksək məhsuldarlığa malik toxum və tinglərlə təmin ediləcəklər.

Bildiyiniz kimi, Qarabağ atının genefondunun qorunması və tarixi şöhrətinin özünə qaytarılması məsələsi dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edir. Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsinə dövlət başçısının göstərdiyi qayğı və dəstək, eləcə də bu məqsəd üçün ayırdığı vəsait hesabına müasir tələblərə tam cavab verən Qarabağ Atçılıq Kompleksi istifadəyə verilib. İnfrastrukturun müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi işi növbəti ildə də davam etdiriləcək.

2019-cu ildə qarşımızda aqrar sahənin dayanıqlı inkişafına ciddi təsir edə biləcək çoxsaylı vəzifələr durur. İlk növbədə nazirlik tərəfindən yaradılmaqda olan "Elektron kənd təsərrüfatı" informasiya sisteminin formalaşdırılmasını başa çatdırmalıyıq. Bu sistemin tətbiqi aqrar sahədə, o cümlədən subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Bütün xidmətlərin elektron hökumət üzərindən həyata keçirilməsi fermerlərə əlavə üstünlüklər yaradacaq. Onların məhsuldarlıq və satış üzrə proqnozlaşdırma imkanları, məlumatlılığı artacaq, dövlət xidmətlərinin sadələşdirilməsinə və sənədlərin azaldılmasına, xidmətlərin əlçatanlığına, habelə yeni bazar alətlərinin tətbiqinə imkan verəcək.

Bundan başqa, intensiv inkişaf mexanizmlərinin daha sürətli tətbiqi hesabına məhsuldarlığın yüksəldilməsində ciddi nəticələrə nail olmalıyıq. Texnoloji transferlərin dəstəklənməsi və resursqoruyucu texnologiyaların fəal tətbiqi sayəsində iqlim dəyişikliklərinin mənfi təsirlərinin yumşaldılmasını və ətraf mühitin qorunmasını təmin etməliyik.

Növbəti ildə də Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Cənab Prezidentin aqrar sahədə qarşımıza qoyduğu vəzifə və öhdəliklərin layiqincə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə edəcək, verilmiş tapşırıqların icrası yüksək səviyyədə təmin olunacaqdır.

# Hikmət Babaoğlu: Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edib

Prezident İlham Əliyev funksional baxımdan "bayraqdar", yəni, ali və nəcib keyfiyyətlərə sahib, mürəkkəb situasiyanın fonunda xüsusi fəaliyyəti ilə həmrəyliyin və bütövlüyün təmin olunmasına nail olan, "faydalı", yəni, özündə bir çox rasional lider keyfiyyətlərini birləşdirən, "təmsilçi", sahib olduğu bütün resurslardan təmsil etdiyi xalqın mənafeyi üçün istifadə edən liderdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev hakimiyyətin legitimliyinə və fərdi xüsusiyyətlərinə görə həm də xarizmatik və rasional-leqal liderdir. Yəni, pozitiv enerji doğurmaq bacarığı olan, sosial fəaliyyətə üstünlük verən, natiqlik və ünsiyyətcillik məharəti ilə, eyni zamanda, ekstraordinar keyfiyyəti ilə fərqlənən liderdir.

Hikmət Babaoğlu diqqətə çatdırıb ki, siyasi lider İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edib. Yəni, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Beləliklə, radikalizmi, siyasi şantaj və ekstremizmi siyasi sistemimizdən çıxardı. Azərbaycan Prezidenti İlham Əliyev siyasi sistemimizə qüsursuz siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi gətirdi. Prezident İlham Əliyev demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə intellektual əsaslarda yeni demokratik modernist cəmiyyət formalaşdıra bildi.



Dövlətimizin başçısı beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bildiyi üçün islamofob dairələrin və antiazərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozdu. Xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmadan qorudu.

Siyasi lider islamofobların və infoimperialistlərin müsəlman şərqində uğurla həyata keçirdikləri "lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə" siyasətinin ölkəmizdə həyata keçirilməsinin qarşısını ustalıqla aldı. Bu hücuma qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mənəviyyat və milli ailə sipərini çəkdi.

Milli Məclisin deputatı bildirib ki, Prezident İlham Əliyev neft kapitalını intellektual kapitala çevirək şüarı ilə kreativ gənclik yetişdirmək məsələsini strateji vəzifə kimi müəyyənləşdirdi və Azərbaycanın gələcək inkişafını təmin etdi. O əlavə edib ki, dövlətimizin başçısı XXI əsrdə nəhəng transmilli layihələri həyata keçirməklə ən güclü rəqiblərinin kürəyini yerə vurdu və bu layihələri müstəqilliyimizin təminatçısına çevirdi. Tarixi İpək Yolunu bərpa etmək üçün bütün müqavimətlərə və rəqabətə baxmayaraq, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilişinə nail oldu. Bu strateji qərar ilə türk dünyasını dəmir kəmərlə bir-birinə bağlamaqla onların iqtisadi birliyini təmin etdi. Eyni zamanda, bu layihə Azərbaycanı Asiyaya və Avropaya polad raylarla bağlamış oldu.

Hikmət Babaoğlu qeyd edib ki, dövlətimizin başçısı XXI əsrin iqtisadi möcüzələri sayıla biləcək TANAP və TAP layihələrini reallaşdırdı. Bu layihələrin reallaşması üçün diplomatiya tarixində görünməmiş təzyiqlərə, hətta təhdidlərə belə məruz qalmasına baxmayaraq, çox nəhəng ölkələrin dizini yerə gətirdi. Beləliklə, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri layihələrinin müəllifi kimi tarixə düşdü.

Ölkəmizdə və xaricdə böyük investisiya layihələri həyata keçirməklə iqtisadiyyatımızın neftdən asılılığına son qoydu. Azərbaycanı kosmik sənaye ölkəsinə çevirdi. Qısacası Prezident İlham Əliyev xalqımızı tarixi inkişaf mərhələsində keyfiyyətcə yeni eraya çıxarmağı bacardı.

# Nikas Safronov: İlham Əliyev Azərbaycanın dünyanın ən yaxşı ölkələri sırasında olması üçün hər şeyi edib

**"İlham Əliyev Azərbaycanın dünyanın ən yaxşı ölkələri sırasında olması üçün hər şeyi edən böyük siyasət və dövlət xadimidir. O, əsl liderdir".** Bu sözləri AZƏRTAC-ın müxbiri ilə söhbətində görkəmli rus fırça ustası, Rusiyanın Əməkdar rəssamı, Rusiya İncəsənət Akademiyasının akademiki Nikas Safronov söyləyib.



Rəssam qeyd edib ki, Azərbaycan Prezidenti Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin siyasətini layiqincə davam etdirir. **"İlham Əliyev Heydər Əliyevin layiqli davamçısıdır. İlham Heydər oğlunun çox gözəl, peşəkar komandası var. Dünyadakı çətinliklərə baxmayaraq, ölkədə layiqli həyat davam edir. Onun rəhbərliyi dövründə Azərbaycan müasir, gözəl, turistlər və biznesmenlər üçün heyrətamiz dərəcədə cəlbedici ölkəyə çevrilib. Bakı hər hansı şəhərlə - Venesiya, London, Parislə rəqabət apara biləcək ən yaxşı şəhərlərdən biridir. Burada təmizlik, mükəmməl infrastruktur, çox gözəl işıqlandırma diqqəti cəlb edir...",** - deyə Safronov qeyd edib.

N.Safronov Azərbaycan Prezidentinin mədəniyyət xadimlərini hər zaman dəstəklədiyini vurğulayıb: **"Bu, çox əhəmiyyətlidir. Mədəniyyət hər bir dövlətin varlığı üçün vazkeçilməz amildir. Azərbaycanda mədəniyyət, incəsənət, musiqi sahələri inkişaf edir, muzeylər açılır. Yazda Heydər Əliyev Mərkəzində mənim sərgim açılacaq. Mən bakılılara əksəriyyəti Azərbaycanla, sizin ölkənin xadimləri ilə bağlı olan bir çox yeni əsərləri, həmçinin Heydər Əliyevin portretlərinə eskizləri təqdim edəcəyəm. Hazırda Naxçıvan və Bakı haqqında da yeni tablolar üzərində işləyirəm. Öz işlərimi Azərbaycanda təqdim etmək mənim üçün böyük şərəfdir".**

Rəssam əlavə edib: **"Mənim Bakıda ilk sərgim 1998-ci ildə keçirilib. Onun açılışını Heydər Əliyev edib. Biz Onunla mədəniyyət və həyat barədə uzun-uzadı söhbət etdik. O, dövlətçilik təfəkkürünə malik insan idi. Heydər Əliyev mənə ölkəni göstərdi. Mən Ona dedim ki, yəqin ki, bundan əvvəlki həyatımda mən azərbaycanlı olmuşam və özümü azərbaycanlı kimi hiss edirəm. Heydər Əliyev dedi: "Mənim və ailəmin timsalında Azərbaycanda sənin dostların var". Mən həmişə bu səviyyəni gözləməyə çalışıram. Uşaqlarım da Azərbaycanda olublar. Birisi Böyük Britaniyadan, digəri isə Avstraliyadan gəlmişdi. Mən onları Azərbaycana apardım. Onlar bu gözəl xalq və ölkəyə heyran oldular. Mən Rusiya-Azərbaycan münasibətləri ilə bağlı bütün təşəbbüsləri dəstəkləyirəm. Polad Bülbüloğlu ilə dostluğumu əziz tuturam".**

N.Safronov daha sonra söyləyib: **"İlham Əliyevin çox gözəl ailəsi var. Biz Leyla Əliyeva ilə çoxdandır dostluq edirik. O, ölkələrimizi birləşdirən, münasibətlərimizi inkişaf etdirən, onları daha mükəmməl və layiqli edən Rusiyadakı mədəniyyət elçisidir".**

Rusiyalı rəssam Rusiya-Azərbaycan münasibətlərinin bütün sahələrdə inkişafının vacibliyini vurğulayıb: **"Azərbaycanın Rusiya ilə sıx əlaqələr saxlaması çox vacibdir. Azərbaycan məktəblərində rus dili tədris olunur. Azərbaycanlıların bir çoxu rusca səlis, bəzən rusların özlərindən də yaxşı danışırlar".**

**"Mən İlham Heydər oğlunun - çox hörmət etdiyim və sevdiyim insanın ad gününü təbrik edirəm. Ona uzun ömür, firavanlıq və uğurlar arzulayıram. Mənim qəlbim və evim hər zaman Azərbaycana, bu böyük xalqa açıqdır",** - deyə N.Safronov sözlərinə yekun vurub.

# İlham Əliyev bütün azərbaycanlıların Prezidentidir




***Azərbaycan Prezidenti İlham Əliyevin doğum günü münasibətilə "Moskva-Bakı" portalında dövlətimizin başçısı haqqında "İlham Əliyev qloballaşmaqda olan dünyanın müasir liderinin etalonudur" sərlövhəli məqalə dərc olunub.***

***AZƏRTAC məqaləni təqdim edir.***

"Qloballaşmaqda olan dünyanın müasir liderinin etalonu" - məşhur yazıçı Çingiz Aytmatov Azərbaycan Prezidenti İlham Əliyevi bu cür səciyyələndirib. Əlbəttə, İlham Əliyevin liderlik etalonu və lider olması birdən-birə baş verməyib. Bundan əvvəl O, uzun illər boyu həyatın sınaqlarına sinə gərib, Onun "mümkün olanı və olmayanı" idarə etmək məharəti cilalanıb. Onun xarakterinin bütün bu məişət və siyasi aspektləri istedad, kəskin intellekt və yüksək mədəniyyət sayəsində daim möhkəmlənib.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) daxil olmuş İlham Əliyev həyatının 15 ilini MDBMİ-də keçirib - əvvəlcə əyani şöbədə, sonra aspiranturada təhsil alıb, daha sonra orada dərs deyib. Dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb. Gənclik illərini, yetkinlik dövrünü, ilk ümidlərini və ilk sınaqları xatırlayan hər kəs kimi, O da tez-tez həmin illəri yada salır.

1987-ci ildə Onun atası - sonradan Azərbaycan xalqının Ümummilli lideri olmuş Heydər Əliyev bütün vəzifələrdən çıxarıldı, Sov.İKP MK Siyasi Bürosunun tərkibindən xaric edildi və pensiyaya göndərildi. Sovet dövründə bunun nə demək olduğunu təsəvvür etmək çətin deyil. Heydər Əliyevin ailəsinin bütün üzvlərini hər yerdə sıxışdırmağa başladılar. Lakin İlham Əliyev institutdan, həmkarlarından incimədi. MDBMİ-də Onunla birlikdə təhsil alan və işləyən insanlar Onu dəstəkləməyə, ruhlandırmağa, Ona diqqəti artırmağa çalışırdılar. İlham Əliyev Azərbaycan Prezidenti seçiləndə MDBMİ-nin məzunu olan ilk və hələlik yeganə Prezident kimi alma-materə baş çəkdi. Ona fəxri doktor adı verildi, MDBMİ-nin muzeyində Ona həsr edilmiş stend açıldı. İlham Əliyev buna nəcib şəkildə cavab verdi - MDBMİ-nin məzunlarının birinci görüşünün iştirakçılarını Bakıya dəvət etdi.

## MÜASİR LİDER

İlham Əliyev Xəzərin neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin - "Əsrin müqaviləsi"nin hazırlanmasına və həyata keçirilməsinə sanballı töhfə verib. 1994-cü ildə bağlanmış bu müqavilədə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan mühüm rol oynayıb. 23 il sonra, 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri-Çıraq-Günəşli" yatağının işlənməsinin davam etdirilməsi barədə yeni "Əsrin müqaviləsi" imzalandı. Müqavilənin şərtlərinə görə, Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılır. Azərbaycana çatacaq mənfəət neftinin payı 75 faiz olacaq.

Yüksək peşəkarlıq. Diplomatik duyum. Müasir liderin yüksək keyfiyyətləri. Məhz bu cəhətlər İlham Əliyevin siyasi karyerasında fərqləndirici və cəlbedici xüsusiyyətlərdir. O, prezidentliyinin lap əvvəlindən başlayaraq neft amilindən xalqın və müstəqil Azərbaycanın mənafeyi naminə istifadə edir. Sonradan Özü bu barədə deyəcək: **"Biz "qara qızıl"ı insan kapitalına çevirməyə nail olduq. Biz neftdən alınan gəlirlərdən çox səmərəli şəkildə istifadə etdik və bu gün bu fakt dünya miqyasında xüsusi qeyd edilir. Zəngin neft yataqlarına malik olan ölkələr çoxdur, lakin bu ölkələr yoxsulluq, kasıblıq şəraitində yaşayırlar. Bu ölkələrdə sabitlik pozulur, neft həmin ölkələrə fəlakətlər gətirir. Azərbaycanda isə neft firavanlıq, inkişaf, sabitlik, qüdrət gətirir".**

Azərbaycan cəmiyyətini uzun illərdir narahat edən Dağlıq Qarabağ münaqişəsinin həlli də daim İlham Əliyevin diqqət mərkəzindədir. O, dəfələrlə bəyan edib ki, Azərbaycan Qarabağsız ola bilməz. Bu münaqişənin yalnız ölkənin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanması dövlət başçısının birmənalı mövqeyidir.

Azərbaycan Prezidenti açıq-aydın surətdə bəyan edib: **"Dağlıq Qarabağ 5 ildən, 10 ildən, hətta 100 ildən sonra da Azərbaycandan ayrılmayacaq. Mən Prezident olduğum müddətdə buna yol verməyəcəyəm".**

## NOVATORLUQ VƏ RASİONALİZM

İlham Əliyev bütün məsələlərdə novatorluq və islahatçı yanaşmalar tətbiq edir. O, dünyada baş verən proseslərin və dəyişikliklərin məntiqinə əsaslanaraq Azərbaycanın fasiləsiz inkişafını sürətləndirən mühüm addımlar atır. İlham Əliyevin "prezidentlik xronikası"nın bəzi mərhələlərini xatırladaq. Onun Brüsselə səfəri Aİ ilə Azərbaycan arasında yeni saziş bağlanmasına dair danışıqlar prosesinə start verdi. Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyasında çıxış, BMT-ni öz qətnamələrini, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə dair qətnamələrini yerinə yetirməyə çağırış. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim. Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli sammiti, energetika və nəqliyyat sahələrində genişmiqyaslı layihələrin, o cümlədən "Şimal-Cənub" dəhlizinin yaradılmasına dair möhtəşəm planın müzakirəsi.

İlham Əliyev uğurlu və bənzərsiz şəxsiyyətdir. O, zəngin insani dəyərləri, kübar maneraları, rasional təfəkkür tərzini, sarsılmaz vətənpərvərlik, praqmatizm və milli mentalitet kimi keyfiyyətləri özündə cəmləşdirməklə Azərbaycanın ictimai həyatına və siyasətinə yeni nəfəs, müasirlik və intellektuallıq gətirir.

## OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR

İlham Heydər oğlu Əliyev atası Heydər Əliyevin layiqli oğludur. O, Ümummilli liderin siyasi kursuna mütləq mənada sadiqdir. Öz prinsiplərinə sadiqlik, parlaq intellekt, cəmiyyət üçün açıqlıq, tolerantlıq, səmimilik, humanizm kimi keyfiyyətləri atasından əxz edib. Heydər Əliyev kimi, Ona da qətiyyətlilik, enerji, zehni potensial və təşəbbüskarlıq xüsusiyyətləri xasdır.

İdarəçilik keyfiyyətləri, bu və ya digər problemin müzakirələrində fəal iştirak, müasir qərb liderlərinə xas olan imic, ən başlıcası, qüsursuz nüfuz Heydər Əliyev fenomeninin əsas amilləri idi. İndi bu keyfiyyətlər həm də İlham Əliyevi səciyyələndirir.

Ata və oğul xarakter etibarilə səmimi insanlardır. Sıravi vətəndaşlarla ünsiyyətdə bu səmimiyyət xüsusilə parlaq şəkildə təzahür edir. Bütün müdrik dövlət adamları kimi İlham Əliyev də atasına bənzəyir - hər kəslə dil tapmağı, sıravi vətəndaşla istənilən psixoloji baryeri aradan qaldırmağı bacarır. Bu, dövlət başçısının Azərbaycan xalqının dəstəyindən və etimadından istifadə etməsinə imkan verir.

Dövlət başçısının Öz siyasi komandasının üzvləri ilə münasibətdə də səmimiyə və qarşılıqlı hörmətə əsaslanan ünsiyyətin tərəfdarı olduğunu deyirlər. Lakin bütün bunlar Prezidentin kifayət qədər sərt qərarlar qəbul etməsini istisna etmir. Bütün xarizmatik liderlər kimi, İlham Əliyev də özünə qarşı son dərəcə tələbkardır. İctimai rəydə O, özünənəzarətin və qanunçuluğun qarantı kimi məşhurdur. Ciddi intizam və yüksək məsuliyyət hissi dövlət başçısının bütün fəaliyyətinin meyarıdır.

## AİLƏ

1983-cü ildə İlham Əliyev Mehriban Paşayeva ilə evləndi. Gənclər Moskvada tələbəlik illərində tanış olmuşdu. Mehriban xanım İ.Seçenov adına Tibb İnstitutunda oxuyurdu. 1985-ci ildə onların qızı Leyla, 1989-cu ildə kiçik qızları Arzu dünyaya gəldi.

Mehriban Əliyeva xatırlayır: **"1987-ci ildən sonrakı dövr bütün ailəmiz üçün həqiqətən çox çətin dövr oldu. İlham Özünü itirmədi, ailəsinin, uşaqlarının bu çətinlikləri hiss etməmələri üçün əlindən gələni edirdi. O vaxt çox böyük problemlər vardı, bizə, demək olar ki, heç kəs kömək etmirdi. İlhamın əzmkarlığı sayəsində biz korluq çəkmədik...".**

1997-ci ildə onların oğlanları Heydər doğuldu. Bu adı ona, əlbəttə, babasının şərəfinə vermişdilər. 2017-ci ildə İlham Əliyev Mehriban Əliyevanı ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin etdi. Təhlükəsizlik Şurasında onu "peşəkar və humanist" kimi təqdim etdi.

İlham Əliyev bütün azərbaycanlıların Prezidentidir. Prezident ana dili ilə yanaşı, ingilis, rus, türk və fransız dillərində də danışır. O, Öz xalqının oğludur və eyni zamanda, beynəlmiləlçi, ümumbəşəri mənəvi dəyərlərin tərəfdarıdır. O, milli ənənələrin və dini təsisatların, konfessiyalar arasında qarşılıqlı tolerant münasibətlərin, multikulturalizmin tərəfindədir. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Azərbaycan kimi güclü dövlətin mövcud olmasından qürur duyur, öz Prezidenti İlham Əliyevin dəstəyini hiss edir.

# Güclü lider, qüdrətli Azərbaycan



**Siyavuş NOVRUZOV,**
**Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini**

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrlərindən birini yaşayır. Çoxəsrlik tariximizin heç bir mərhələsində xalqımız öz mövcud potensialını bu qədər uğurla səfərbər edərək strateji hədəflərin reallaşması naminə belə miqyaslı, məqsədyönlü və inamlı addımlar atmamışdır. Bəli, hazırkı tarixi mərhələdə Azərbaycanın öhdəsindən gələ bilməyəcəyi heç bir strateji vəzifə yoxdur və bu möhtəşəm uğurun memarı Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi cənab İlham Əliyevdir. Məhz Onun dövlət idarəçiliyində nümayiş etdirdiyi müdriklik, yüksək intellekt, dünyada gedən proseslərin obyektiv inkişaf meyillərini aydın təhlil qabiliyyəti və unikal təşkilatçılıq bacarığı sayəsində Azərbaycanın çatdığı indiki səviyyəyə görədir ki, bu gün bütün dünya azərbaycanlıları qürurla bu vətənin övladları olduqları ilə fəxr edirlər.

Bu baxımdan, Azərbaycanın yeni tarixində mühüm hadisələrdən biri heç şübhəsiz, Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsidir. Həmin vaxtdan on beş ildən artıq bir vaxt keçir və Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir.

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni dinamika gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Çünki Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq Onun həyat fəlsəfəsidir.

Təsadüfi deyil ki, ötən dövr ərzində məhz dövlət başçımızın düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatı sürətli və dinamik inkişaf dövrünə qədəm qoydu. Yaxşı xatırlayırıq ki, İlham Əliyev ilk dəfə Prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Onda bu rəqəm bəzilərinə xəyal kimi görünürdü. İllər keçdi, xəyal hesab edilənlər reallığa çevrildi. Ötən 15 ildə Azərbaycanda 2 milyona yaxın yeni iş yeri yaradıldı. Bu və digər addımların nəticəsi olaraq yoxsulluq 50 faizdən 5 faizə düşdü. Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı. Ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyuldu. Kosmik ölkəyə çevrilən Azərbaycan 2018-ci ildə artıq üçüncü süni peykini orbitə buraxdı.

Ötən müddətdə aqrar-sənaye kompleksində islahatlar genişləndi, ölkədə güclü sahibkarlar sinfi formalaşdı. Bu gün ölkə iqtisadiyyatının diversifikasiyası uğurla davam edir. Dövlət xətti ilə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə milyonlarla manat güzəştli kreditlər ayrılır. Aqrar sektor geniş inkişaf yoluna çıxıb və Azərbaycan indi özünün ərzaq təhlükəsizliyini təmin edən nadir ölkələrdən biridir.

Cənab İlham Əliyevin islahatlarının əsas hərəkətverici qüvvəsi şəffaflıq prinsipinə sədaqətdir. **"Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz",** - deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələrin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində innovativ addım atdı - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini (ASAN xidmət) yaratdı.

Prezidentin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzləri yaradıldı, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir. Habelə hazırda vətəndaşların xırda sahibkarlıq təşəbbüslərini dəstəkləyən ABAD xidməti də bir sıra bölgələrimizdə uğurla fəaliyyət göstərməkdədir.

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Bunu sübut edən ən böyük amillərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi oldu. Müstəqillik tariximizin ən böyük nailiyyəti olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür. Ölkəmiz nəticə etibarilə bütün regional məsələlərdə əsas oyunçuya çevrilib.

Məhz dövlət başçımızın müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu probleme yönəldi, Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz təşəbbüsləri və layihələri ilə Avropanın enerji xəritəsini dəyişdi. Prezident İlham Əliyevin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan bu sahədə əsas oyunçulardan birinə çevrilib. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas alıb. Bir qədər geri qayıdıb tarixə nəzər salmaq lazım gəlir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatdırıldı. Bununla da "Əsrin müqaviləsi"ndən sonra Azərbaycana külli miqdarda investisiya axını başladı.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rola malikdir: Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başlanıldı. Dörd il əvvəl Azərbaycanın yeni tarixinə və enerji siyasətinə qızıl hərflərlə yazılan başqa bir möhtəşəm hadisə baş verdi - XXI əsrin qlobal enerji layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. Bu il "Əsrin müqaviləsi" daha 50 il müddətinə uzadıldı.

Azərbaycanın təşəbbüsü ilə daha bir qlobal layihə reallaşdı - Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. İndi Asiya və Avropanı birləşdirən bu nəqliyyat dəhlizi sadəcə ölkəmiz üçün deyil, regionun və bütövlükdə Avrasiya geosiyasi və geoiqtisadi məkanında hərtərəfli əlaqələrin inkişafı baxımından geniş perspektivlər vəd edir.

Bu gün qürur hissi ilə deyə bilərik ki, cənab İlham Əliyevin hərtərəfli inkişaf strategiyası regionların simasını tanınmaz dərəcədə dəyişdirib. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan Dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Bu gün Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunub və Avropanın şəhər və kəndlərindən heç də geri qalmır. Məhz bu amillərin nəticəsidir ki, Azərbaycan bu gün dünyada öz turizm potensialını ildən-ilə ən sürətlə artıran dövlətlərdən biridir. Bunu ölkəmizə artan və sayı artıq cari ildə 2 milyonu keçən turist axını sübut edir. Çünki vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Prezidentin tapşırığına əsasən Azərbaycan başdan-başa qazlaşdırılır. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur. Dövlətimizin başçısının regionlara səfərləri, ictimaiyyətlə görüşləri ənənəvi xarakter alıb. Prezident İlham Əliyev yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışında şəxsən iştirak edir.

Prezidentin çox böyük rəğbətlə qarşılanan təşəbbüslərindən biri də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə keçirdikləri qəbullardır. Nazirlər, komitə sədrləri və digər dövlət strukturlarının rəhbərləri yerlərdə əhali ilə görüşür, sakinlərin müraciət və təkliflərini dinləyirlər.

Müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan ölkə üçün ordu quruculuğu həyati əhəmiyyətə malik məsələlərdən biridir. Bunu nəzərə alan Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır. Bu gün Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb və bu ordu işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, habelə daha sonrakı mərhələdə Naxçıvanın Günnüt kəndi ətrafındakı yüksəklikləri və ümumilikdə minlərlə hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. Prezidentin Sərəncamına əsasən Cocuq Mərcanlıda qısa müddətdə yeni qəsəbə salındı və ilk mərhələdə oraya 60 ailə köçürüldü. Bu hadisə "Böyük qayıdış"ın başlanğıcı kimi qiymətləndirilir.

Daha bir sevindirici fakt ondan ibarətdir ki, ölkəmiz vaxtilə bütün silahları xaricdən alırdısa, indi Azərbaycan özü müasir silah və texnika istehsal edir. Belə ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biri kimi dəyərləndirilməlidir.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir təhsil və səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Son 15 ildə ölkədə minlərlə məktəb binası tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edilib. Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulub, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazanıb.

Vaxtilə Ulu öndər Heydər Əliyev deyirdi ki, heç bir fəaliyyət ölkəni dünyada idman qədər tanıda bilməz. Bu ideyanı rəhbər tutan Prezident İlham Əliyev ötən müddətdə Azərbaycanı idman ölkəsinə çevirdi. Bu məqsədə çatmaq üçün bütün ölkə ərazisində Olimpiya mərkəzləri, müasir idman infrastrukturu yaradıldı, idmançılara diqqət və qayğı artırıldı. Azərbaycanda Olimpiya hərəkatı görünməmiş vüsət aldı və ilk Avropa Oyunlarının keçirilməsi Azərbaycana həvalə olundu. Azərbaycan 42-ci Dünya Şahmat Olimpiadasına, qadınlar arasında voleybol üzrə Avropa çempionatına, IV İslam Həmrəyliyi Oyunlarına, cüdo üzrə dünya çempionatına və s. ev sahibliyi etdi. Bakıda üç ildir keçirilən dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-Prisi ilə Azərbaycan bütün dünyanın diqqət mərkəzində oldu. Azərbaycan Rio Yay Olimpiya Oyunlarında böyük zəfərə imza atdı. Tarixdə ilk dəfə hesabına 18 medal yazan milli komandamız medal sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, MDB respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu.

Prezident İlham Əliyevin milli mənəvi dəyərlərimizə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevirdi.

Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu, artıq bütün dünyada qəbul edilir. Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunu təsdiqləyir.

Prezident İlham Əliyevin mədəniyyət konsepsiyası Heydər Əliyev Fondunun layihələri ilə daha da dolğunlaşıb, ölkəmizin dünyada təbliğinə geniş imkanlar açıb. Bu siyasətin həyata keçirilməsinə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva dəyərli töhfələr verir. Fondun həyata keçirdiyi layihələr sayəsində indi Azərbaycanı dünyada daha yaxşı tanıyırlar. Azərbaycan mədəniyyətinin sorağı hazırda böyük səhnələrdən gəlir. Musiqimizin təməl daşı olan muğam artıq dünya musiqisinə çevrilib. "Eurovision" kimi beynəlxalq mahnı müsabiqəsinə uğurla ev sahibliyi edən Azərbaycan müsabiqə tarixinə öz töhfəsini verdi.

Öz siyasətində daim yüksək humanizm prinsiplərini rəhbər tutan cənab İlham Əliyevin daxili siyasətində əfv və amnistiya fərmanları xüsusi yer tutur. Məhz bu fərmanlar sayəsində minlərlə məhkum öz azadlığına qovuşmuş və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılmışdır. Yeri gəlmişkən belə humanist təşəbbüslər bir çox hallarda Mehriban xanım Əliyeva tərəfindən irəli sürülmüşdür.

Qeyd etmək yerinə düşər ki, Sədri cənab İlham Əliyev olan, öz sıralarını ildən-ilə möhkəmləndirən, beynəlxalq nüfuzu durmadan yüksələn, ideya-təşkilati baxımdan nəinki Azərbaycanın, hətta bütün Qafqazın ən mütəşəkkil siyasi qurumu olan Yeni Azərbaycan Partiyasının da prezident seçkilərində şüarı xalqımızın dilinin əzbəri olan "İlhamla irəli" olmuşdur. Proseslərin inkişafı onu göstərir ki, bu şüar hələ uzun illər öz aktuallığını qoruyacaq, xalqımızı səfərbər edən sinerji və birlik rəmzi kimi tarixə qızıl hərflərlə yazılacaq.

Yuxarıda sadalanan uğurlar bir daha təsdiq edir ki, cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı qarşıda daha parlaq gələcək gözləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bu, ölkəmizin gələcək inkişafının qarantı sayıla bilən modern Azərbaycan dövlətinin tərəqqi modelidir. Günümüzün bu reallığı beynəlxalq siyasətçilər, ekspertlər tərəfindən də təsdiqlənir və bir daha aydın olur ki, Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur və xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır.

Qeyd etdiyimiz kimi, bugünkü Azərbaycanın nailiyyətlərinin memarı, 24 dekabrda mənalı ömrünün növbəti ilinə qədəm qoyan cənab İlham Əliyevdir. Hər bir azərbaycanlının Prezidenti, xalqın sevimlisi, görkəmli dövlət xadimi cənab İlham Əliyevi bu əlamətdar gün münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti, Vətənimizin rifahı naminə gərgin və şərəfli fəaliyyətində bitib-tükənməyən uğurlar arzulayıram.

# Rusiyanın aparıcı “Rossiya-24” telekanalı Azərbaycan haqqında “Merci Baku” adlı xüsusi reportaj yayımlayıb

Dekabrın 24-də Rusiyanın aparıcı xəbərlər kanalı olan “Rossiya-24”də Azərbaycan haqqında “Merci Baku” adlı xüsusi reportaj yayımlanıb. AZƏRTAC həmin reportajı təqdim edir.

**Aparıcı:** Azərbaycan Prezidenti İlham Əliyev 57 yaşını qeyd edir. Əlamətdar gün münasibətilə Onu Prezident Vladimir Putin təbrik edib və qeyd edib ki, Prezident ƏLİYEV təcrübəli və uzaqgörən siyasətçidir.

Öz növbəsində Azərbaycan dövlətinin başçısı bizim telekanala müsahibəsində bildirib ki, rusiyalılar respublikada turistlərin sayına görə birinci yeri tutur və özlərini burada evlərindəki kimi hiss edirlər.




Azərbaycan paytaxtının mənim həmkarım Mariya Qladkixi nə ilə heyrətləndirdiyinə isə onun “Merci Baku” adlı xüsusi reportajında baxın.

**Mariya Qladkix:** Mən turistlərin Azərbaycana nə üçün gəlməli olduqları barədə çox danışa bilərəm. Düşünürəm ki, rusiyalılar məni eşidəcəklər. Biz Bakıdayıq. Öz tarixi, ənənələri ilə zəngin, bununla belə bütün yeniliklərin - innovasiyaların, bütün texniki ixtiraların olduğu qədim şəhərdəyik. Azərbaycanda artıq yuxarıya - kosmosa əl atıblar.

Köhnə şəhərdən biz gələcəyin şəhərini görməyə yola düşdük. Hamısı “Made in Azerbaijan”dır. Bu, çoxlarının fikirləşdiyi kimi, pomidor deyil. Burada səni casus filmlərindəki kimi göstərən tibbi eynəklər var.

Siz yaşıl həlqələrin hara yönəlməsini görürsünüz? - Bəli, onu hətta yerə də yönəltmək olar. Orada başın əksi görsənəcək. Bəli, başın əksi görsəndi. Sizin məqsədiniz bu marker olmadan bu başı real obyektin üzərinə qoymaqdır. Bu eynəklərin vasitəsilə adi gözlə görə bilmədiyimiz strukturları görmək olur.

Yenə də sehrli eynəklər. Bu dəfə isə təyyarəçilər üçün simulyator. Onların köməyi ilə çətin uçuş həyata keçirmək olar. Mənə elə gəlir ki, mən kənardan ağılsız kimi görsənirəm. Amma bu, olduqca çox gözəl görsənir. Hətta buludlar da sanki, təbiidir. Bax, bura da təbiidir.

Qarşıya adi məqsədlər qoyulmayıb. “Azərkosmos” - Qafqazda ilk peyk operatoru.

“Azərkosmos”un əməkdaşı Tərlan Məmmədzadə: Sentyabrın 25-də geostasionar orbitə 45 dərəcəli Şərq uzunluğu mövqeyinə 3-cü peyk - “Azerspace 2” buraxılıb. Peyk Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrinə xidmətlər göstərəcək.

**Müxbir:** Yeni texnologiyalar sərgisində biz Prezident İlham Əliyevlə görüşürük. Hərçənd ki, dövlət başçısı rus dilində sərbəst danışır, müsahibəni Onun doğma dilində başlayırıq.

Bu videoyazını sonra axşam bütün Azərbaycan telekanalları göstərirdi. Belə ki, müəyyən mənada “Rusiya-24” kanalı bir növ bu sərginin əsas kəşfi oldu.

**Prezident İlham Əliyev:** Bizim uğurla həyata keçirdiyimiz əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır ki, Azərbaycan iqtisadiyyatı sabit tərəqqi etsin.

**Müxbir:** Axı, siz turizmi inkişaf etdirmək niyyətindəsiniz. Belə başa düşürəm ki, ən çox turist Rusiyadandır.

**Prezident İlham Əliyev:** Bəli, birinci yerdə Rusiyadır. İl ərzində 800 min-




dən çox rusiyalı gəlib. Onlar özlərini evdəki kimi hiss edirlər, burada dil maneəsi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır.

**Müxbir:** Ləziz təamlarınız...

**Prezident İlham Əliyev:** Bəli, tamamilə doğrudur.

**Müxbir:** Bu gün Azərbaycan nadir təbiət, meyvələr, tarixi abidələr deməkdir. Bütün bunlar min bir işığa bürünüb. Bakı bütün günü lap Las-Veqas kimi işığa qərq olur. Azərbaycanı yanan neft və qaza görə “Odlar ölkəsi” adlandırıblar. Qədim zamanlarda Hindistandan buraya atəşpərəstlər ziyarətə gəlirdilər. Azərbaycanda planetdə mövcud olan 11 iqlim tipindən 9-u var. Bir neçə saat ərzində yolüstü çöl, subtropik və sıx meşələrdən keçərək qar yağan yerlərə düşmək olar. Bakıya gələrək isə Venesiyaya düşmək olar. Baxın, əsl yerli Venesiyadır. Qayıqla gəzəcəyik. Müxtəlif ölkələri görmək üçün başqa yerə getmək lazım deyil. Sadəcə, Bakıya gəlmək kifayətdir. Burada, həqiqətən, nə desən var! Burada gəzintiyə çıxa bilərsən, burada Venesiyadakı kimi improvizə olunmuş kanallar, qayıqçılar var.




Ümid edirəm ki, qayıqçı oxuyacaq. Çünki İtaliyada onlar oxuyurlar.

**Müxbir:** Deyir ki, oxumayacaq.

**Qayıqçı:** Mən isə bu mahnını sevirəm.

**Müxbir:** İndi qətiyyən müəyyənləşdirmək olmur, biz Azərbaycandayıq, yoxsa İtaliyada.

**Qayıqçı:** Bilirsiniz, təəccüblüsü nədir? Bu kanal artıq 50 ildir - hələ sovet dövründən mövcuddur.

**Müxbir:** Məşhur Bakı Bulvarı 15 kilometrədək uzanıb. Hələ də tikilməkdə davam edir. Ümumi uzunluğu 26 kilometr olacaq. Uzağa getmək doğrudan da lazım deyil. Burada qala da Torontodakı kimidir, həm Sidney, həm də Dubayın bir hissəsi var. Yerli sakinlər bunu Yaxın Şərqin Parisi adlandırırlar. Hava soyuyur. Bir qədər qalın geyinmək lazım oldu. Biz artıq İçərişəhərə gəlmişik. Burada artıq əsl milli kolorit nəzərə çarpır. Məsələn, düz küçənin ortasında nərd oynayırlar.

**Müxbir:** Salam. Qoşulmaq olar?

**Nərd oynayan:** Bəli.

**Müxbir:** Bu, sizin milli əyləncənizdir eləmi?

**Nərd oynayan:** Bəli. İş olmayanda nərd oynayırıq. İndi alver getmir.

**Müxbir:** İndi alver zəifdir? İndi turistlər yoxdur?

**Nərd oynayan:** Var, amma almırlar.

**Müxbir:** Turistlər var, alver etmirlər, sadəcə, gəzirlər. İlham Əliyev dedi ki, bütün turistləri Azərbaycana çağırır. Ona görə də, Allah qoysa, burada çoxlu turist olacaq və sizin də nərd oynamağa vaxtınız olmayacaq. İndi Bakıda turizm mövsümi deyil. Bayırda soyuqdur. Bakı sözünün mənası farsca “badikubə” - Küləklər şəhəri deməkdir. Burada deyildiyi kimi: “Əgər soyuqdursa rəqs elə”. Hamımızın yallını sevməyimiz Rusiya ilə Azərbaycanı birləşdirir. Bu, Azərbaycan yallısıdır. Bu yallı xüsusidir. Bu yallı insanı vəcdə gətirir. Özüm də oynamaq istədim. Yallı, bax belədir - oyun elementləri də var. Rəqs edənlər arasında aparıcı da var. Azərbaycan yallısının yüzlərlə növü var. Deyəsən, məni də yallıya qəbul edəcəklər.

**Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov:** Bizim ölkələrimizi təkcə yallı deyil, daha çox amil bağlayır. “KamAZ”, QAZ avtomobillərinin sənaye üsulu ilə yığımı aparılır. Bakıda mədəni həyat qaynayır. Dramteatr, Musiqili Komediya, Opera və Balet teatrları fəaliyyət göstərir. Onlar ən müasir tamaşalara quruluş verir.

**Müxbir:** Yəni, incəsənəti görmək üçün Bakıya gəlmək olar?

**Mixail Boçarnikov:** Hesab edirəm




ki, bəli, olar.

**Müxbir:** Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin adını daşıyan Mərkəzdə incəsənətin vəhdəti müşahidə olunur. Futurist, memarlıq şedevri olan Mərkəzin binası əfsanəvi Zaha Hadidin əsəridir. Bax, bunu mən qətiyyən Heydər Əliyev Mərkəzində görməyi gözləmirdim. Hiperrealist heykəllər. Belə bir sərgi burada keçirilir. O dərəcədə realist əsərdir ki, burada hətta xırda xalları, çilləri, damarları, boyunda qırışları görə bilərsən. Məsələn, dırnaqlarına baxın. Əsl insan dırnaqlarıdır. Bağışlayın, baxmaq olar?

**Mərkəzin əməkdaşı:** Artıq vaxtınız keçib.

**Müxbir:** Burada nə var? 18 və daha çox.

**Mərkəzin əməkdaşı:** Sizin 18 yaşınız var?

**Müxbir:** Var.

**Mərkəzin əməkdaşı:** Onda gedək.

**Müxbir:** Sadəcə, söz ola bilməz. İnanılmaz sərgidir. O, artıq dünyanın bir çox ölkəsində keçirilib. Bu isə artıq bizim Heydər Əliyev Mərkəzində gözlədiyimiz görüntülərdir. Onun şəxsi əşyaları, fotoları. Məsələn, bax, bu, Onun DTK-da işlədiyi vaxt geyindiyi paltardır. Bu isə artıq Onun andiçmə mərasimində geyindiyi kostyumdur. Sonra isə Azərbaycan Respublikasının üçüncü Prezidentinin çalışdığı məhz həmin iş masasıdır. Burada Onun ordenləri, medalları və Azərbaycan xalqına onların sevimli liderini xatırladan hər şey var.

Mənim daha bir şəxsi mədəni heyrətim “cin”lə görüş oldu. Şüşədəki yox, həqiqi “cin”lə. Mikrofon qarşısında “cin” ləqəbli Ceyhun Zeynalovdur. Onu Azərbaycanın Bob Marlisi adlandırırlar. Ceyhun Zeynalov. Azərbaycanın məşhur müğənnisi, özü də ən maraqlısı və mənim üçün anlaşılmaz olan - reqqi. Azərbaycanda reqqi var? Mən bunu bu gün bildim.

**Ceyhun Zeynalov:** Bunun Azərbaycanda banisi mən olmuşam. Kim ki, musiqini inkişaf etdirir, normal musiqi dinləyir onlar təbii ki, reqqini dinləyirlər.

**Müxbir:** Azərbaycan çoxmusiqili ölkədir. Opera. İlk operanı Bakıda hələ 1908-ci ildə dinləyiblər. Bəstəkar Üzeyir Hacıbəyli məşhur Leyli və Məcnunun sevgi əhvalatını tamaşaya qoyub. Bu, Şərqdə ilk operadır.

**Ceyhun Zeynalov:** Azərbaycan musiqisinin təməli muğamdır. Muğam UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb. Muğam məqamdır. Hər məqam müəyyən emosiyanı ifadə edir. Reqqidən başqa meyxana da var. Bu, Azərbaycan repidir. Ən məşhuru “Davay, dosvidaniya”dır.

**Müxbir:** Azərbaycanı anlamaq üçün onun təamlarını dadmaq lazımdır. Bakının ən yaxşı restoranlarından birində məni direktor müavini Elşad Nuriyev qarşılayır.

**Elşad Nuriyev:** Bizim restoranımızın sahəsi 5 min kvadratmetrdir. Bu, Cənubi Qafqazda, hətta deyərdim ki, Avropada ən böyük restorandır. Burada ət 28 gün saxlanılır, sonra doğranılıb bişirilərək qonaqlara verilir. Ən yaxşı şərablar bizim yerli şərablardır.

**Müxbir:** Azərbaycan şərabları?

**Elşad Nuriyev:** Əlbəttə, Azərbaycan şərabları.

**Müxbir:** Yaxşısı budur, bıçaqların haradan götürüldüyünü deyin. Bu, nə nömrələrdir belə?

**Elşad Nuriyev:** Bu, qonaqların nömrəsidir.

**Müxbir:** Qonaq gəlir və onun şəxsi bıçağı var. Özündən və məndən başqa heç kim ona toxuna bilməz.

**Elşad Nuriyev:** Bizdə həmişə çox adam olur.

**Müxbir:** Bura ümumilikdə nə qədər qonaq tutur?




**Elşad Nuriyev:** 1500.

**Müxbir:** Türk qəhvəsi. O, qum üzərində hazırlanır. Streployn, tinderloyn, ribay, lokum. Qurmanların ürəyi nə istəyirsə, hamısı var. Kömək edəcəksiniz? Məni mətbəxdə çək. Bütün insanlar istirahət edir, mən isə yenə də mətbəxə gedirəm.

**Restoranın əməkdaşı:** Əvvəlcə, biz əti doğrayacağıq. Mən indi, sadəcə, Nüsrətəm. Baxın görün nə edirəm. Dadmaq lazımdır. Bax, xidmət budur. Mənə, sadəcə, əti qızartmaq etibar olunub. Bunu bacarıram. İndi o, son ştrixi vuracaq. Sonuncu ştrix nədir? Əhsən.

**Müxbir:** Ən maraqlısı indidir. Dadmaq lazımdır.

Azərbaycan xörəklərinin 30-dan çox növü var. Düz deyirlər ki, Bakıda bütün mədəniyyətlərin mətbəxini dadmaq olar. Budur, indi türk paxlavası Azərbaycan süfrəsinə veriləcək. Ona mütləq qoz, sarıkök, badam, əncir əlavə edirlər. Bizdə isə desertdə həmişəki kimi konsertdir. Baxın, tarda “Kalinka”nı ifa edirlər. Bu, yeganə alətdir ki, nə desən ifa etmək olar.

Azərbaycanın 60-dək musiqi aləti var. Ən sevimlisi Azərbaycan balalaykası tardır. Məlum oldu ki, “Kalinka” üçün tam münasibdir.

Azərbaycan - çox yaxın və özünəməxsus diyar. Biz onu tamamilə başqa cür gördük. Heyrətamiz torpaqdır. Ənənələrinə sadiq görünsə də, həm də yenilikləri ilə heyrətə gətirir. Burada innovasiyalara sərmayə qoyulur, bununla belə ənənəvi xəzinəni həssaslıqla qoruyurlar. Yola düşməzdən əvvəl, bir daha dənizkənarı bulvara getdik. Axı, Bakının qışı əslində Rusiyanın payızıdır. Xəzərdən külək əsir, yelkənli qayıqlar dənizə çıxır. Burada lap yaxında neft çıxarırlar. Amma inanın ki, Azərbaycanın ən əsas sərvəti bu, deyil. Merci Baku.

# Mixail Şvıdkoy: Prezident İlham Əliyevin uğurları Azərbaycanın uğurları deməkdir



**“Düşünürəm ki, bu gün Rusiyadakı bir çox evlərdə Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə Onun şərəfinə badələr qaldırılır və ünvanına xoş sözlər söylənilir. Mən həm Azərbaycanda, həm də Rusiyada deyilən və deyiləcək xoş sözlərə qoşuluram. Azərbaycan xalqına sülh və əmin-amanlıq, respublika Prezidenti İlham Əliyevin rəhbərliyi altında sizin ölkənizə sülh və tərəqqi, şəxsən Onun özünə isə bütün işlərində uğurlar arzulamaq istəyirəm. Çünki Prezidentin uğurları Azərbaycanın və onun xalqının uğurları deməkdir”.**

Bu fikirləri AZƏRTAC-ın müxbiri ilə söhbətində Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy söyləyib.

M.Şvıdkoy qeyd edib ki, Prezident İlham Əliyevin ad günü təkcə Azərbaycan xalqının deyil, rusiyalıların da bayramıdır. **“Təkcə ona görə yox ki, bu gün Rusiyada Azərbaycan Prezidentinin ad gününü qeyd edən böyük Azərbaycan diasporu var. Düşünürəm ki, İlham Heydər oğlunun Azərbaycanın rəhbəri kimi rolu olduqca əhəmiyyətlidir və dünyanın ən müxtəlif ölkələrində hörmətlə qarşılanır. Biz hamımız tanınmış lider Heydər Əliyevin qeyri-adi dərəcədə mühüm missiyasını yüksək qiymətləndirir və xatırlayırıq. Millətinin dünyaşöhrətli lideri Heydər Əliyev Azərbaycanı məhv olmaqdan və ən ağır vətəndaş müharibəsindən xilas etdi. O, ölkəni böhrandan və milli fəlakətdən çıxardı”**, - deyə o əlavə edib.

Rusiyalı mədəniyyət xadimi vurğulayıb ki, İlham Əliyevin rəhbərliyi ilə son illər respublikada sabitlik daha da möhkəmlənib, ölkə dinamik şəkildə inkişaf edir. **“Bu, çox vacibdir, çünki Azərbaycanda fəal həyata qədəm qoyan yeni nəsil yetişir və gələcəyi anlamaq bu gənclik üçün mühümdür. Bu mənada, İlham Heydər oğlu Azərbaycan xalqı üçün məhz bu cür gələcəyə baxış formalaşdırıb. Azərbaycan qüdrətli, çiçəklənən müasir dövlətə çevrilib”**, - deyə M.Şvıdkoy vurğulayıb.

Onun sözlərinə görə, bu gün Azərbaycan dünyaya açılıb və bir çox beynəlxalq tədbirlərin, o cümlədən müxtəlif ölkələrin nümayəndələrinin, bütün fəaliyyət sahələrini - siyasət, iqtisadiyyat, elm, mədəniyyəti təmsil edən insanların axışdığı Bakı Beynəlxalq Humanitar Forumunun cazibə mərkəzinə çevrilib.

M.Şvıdkoy Rusiya və Azərbaycan arasında ikitərəfli dost və tərəfdaş münasibətlərinin inkişafının əhəmiyyətini vurğulayıb. **“Bizlər - rusiyalılar üçün müasir Azərbaycanın Rusiyaya dost ölkə və tərəfdaş olması mühümdür. Prezidentlər Vladimir Putin və İlham Əliyevin dostluq münasibətləri dövlətlərimiz arasında mövcud olan əlaqələrin yüksək keyfiyyətini təmin edir”**, - deyə M.Şvıdkoy sözlərinə yekun vurub.

# Dmitri Savelyev: Prezident İlham Əliyev milyonlarla azərbaycanlının arzularını reallığa çevirir

Rusiya Federasiyası Dövlət Dumasını deputatı Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: **“Çox təcrübəli dövlət xadimi, incə diplomat və nadir istedada malik olan siyasətçi İlham Heydər oğlu Əliyev günü-gündən Azərbaycanı inkişaf və tərəqqi yolu ilə aparmaqda davam edir. Dünyada yaranmış olduqca mürəkkəb siyasi və iqtisadi vəziyyətə baxmayaraq, Azərbaycan həyatın bütün sahələrində yaddaqalan nailiyyətlər əldə edə bilib. Çünki Prezident İlham Əliyev özünün uğurlu xarici və daxili siyasəti ilə milyonlarla azərbaycanlının arzularını reallığa çevirir”.**

Rusiyalı deputat qeyd edib ki, Azərbaycanda sabitliyin mənbəyi xalqın hakimiyyətlə həmrəyliyidir. **“Təsadüfi deyil ki, Azərbaycanda ilin ən mühüm hadisəsi prezident seçkiləri oldu. Bu seçkilərdə azərbaycanlılar öz liderlərinə etimad göstərərək Ona səslərin 86 faizindən çoxunu verdilər. Əlamətdardır ki, prezident seçkiləri məhz 2018-ci ildə - ölkədə Azərbaycan Xalq Cümhuriyyətinin və Milli Məclisin yüz illik yubileylərinin qeyd olunduğu vaxtda keçirildi. Bu, Rusiya parlamentinin nümayəndəsi kimi mənim üçün də xüsusi əhəmiyyət kəsb edir: yüz il öncə**



**müsəlman Şərqinin xalqlarına parlamentarizm yolu göstərən azərbaycanlılar demokratik dövlət yaradıblar. Bu gün də İlham Heydər oğlunun sayəsində respublika bir çox ölkələr üçün həqiqi demokratik dövlət örnəyidir və həmin yolda inamla addımlayır”**, - deyə D.Savelyev vurğulayıb.

Deputatın sözlərinə görə, VI Bakı Beynəlxalq Humanitar Forumu Azərbaycanın sülh işinə sadiqliyini bir daha nümayiş etdirdi. **“Forum əməldə nümunəvi multikulturalizm modelini yaradan, sivilizasiyanın mühüm problemlərini həll edən və digər ölkələrlə sülh əsasında qarşılıqlı faydalı tərəfdaşlıq naminə çıxış edən Azərbaycanın ən yüksək beynəlxalq statusunun göstəricisi oldu”,** -deyə Rusiya parlamentinin üzvü qeyd edib.

D.Savelyev vurğulayıb ki, ölkələrimizin prezidentləri arasında etimada və səmimi münasibətlərə söykənən Rusiya-Azərbaycan əlaqələri həyat fəaliyyətinin bütün sahələrini əhatə edən əməkdaşlığın parlaq nümunəsidir. O deyib: **“2018-ci ildə Vladimir Putin və İlham Əliyev danışıqlar aparmaq üçün bir neçə görüş keçiriblər. Bu görüşlərin Rusiya ilə Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanmasının on illik yubileyinə təsadüf etməsi rəmzi məna daşıyır. Xalqlarımız hələ uzun müddət müasir dünyanın çağırışlarına qarşı eyni yolda çiyin-çiyinə addımlamalıdırlar. Dövlətlərimizin prezidentlərinin birlikdə açdıqları IX Bakı Regionlararası İqtisadi Forumu bunun bariz nümunəsidir”.**

D.Savelyev əmin olduğunu bildirib ki, İlham Əliyevin siyasətinin əsas məqsədi olan Azərbaycanın dinamik inkişafı ildən-ilə uğurla davam edəcək. Deputat sonda deyib: **“Fürsətdən istifadə edərək, cənab Prezidentə qardaş Azərbaycanın yeni qələbələri naminə onun bütün planlarının və ideyalarının ən yüksək dəqiqliklə həyata keçməsi üçün səmimi qəlbdən möhkəm cansağlığı və tükənməz enerji arzulayıram”.**

# Prezident İlham Əliyev dünyada təcrübəli və uzaqgörən siyasi xadim, Azərbaycanın həqiqi lideri kimi böyük nüfuz qazanıb

*Rusiya Prezidenti Vladimir Putinin təbrik məktubunda qeyd edilir ki, Prezident İlham Əliyevin Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə şəxsi töhfəsi əvəzsizdir*

*Məlumdur ki, Azərbaycan Respublikası hər zaman işğalçı Ermənistan istisna olmaqla qonşu dövlətlərlə münasibətlərin ən yüksək səviyyəyə çatdırılmasında maraqlı olub. Yəni, ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistan istisna olmaqla bu gün Azərbaycanın bütün qonşu ölkələrlə yüksək səviyyəli iqtisadi-siyasi münasibətləri mövcuddur. Eyni zamanda, ölkəmiz regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Bütün bunların fonunda ölkəmiz hazırda regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.*

*Bu baxımdan, Azərbaycan-Rusiya münasibətləri də hər zaman yüksələn xətlə inkişaf etməkdədir. Bu gün iki ölkəni möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Tərəflərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.*





**RUSİYA AZƏRBAYCANLA MÜNASİBƏTLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİR**

Eyni zamanda, hər iki ölkənin dövlət başçıları münasibətləri strateji tərəfdaş kimi səciyyələndirirlər. Belə ki, qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verir. Xüsusilə də dövlət başçıları arasındakı yüksək səviyyəli əlaqələr, görüşlər ikitərəfli münasibətlərin müzakirəsi və əməkdaşlığın dərinləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Vurğulanmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev bu gün dünyada nüfuzlu siyasi lider kimi qəbul edilir. Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevə təbrik məktubunda da bildirilir ki, Azərbaycan Prezidenti həmvətənləri arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanıb. Rusiya Prezidenti onu da vurğulayıb ki, dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Prezident İlham Əliyevin şəxsi töhfəsi əvəzsizdir: **"Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir. Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm. Sizinlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəsləyirəm".**

**RUSİYA PREZİDENTİNİN FİKİRLƏRİ AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISI İLHAM ƏLİYEVİN DÜNYA SİYASƏTİNDƏ YÜKSƏK NÜFUZUNU GÖSTƏRİR**

Qeyd olunduğu kimi, bu gün Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilib. Məhz Prezident İlham Əliyevin təşəbbüsü və şəxsi səyi nəticəsində reallaşan qlobal layihələr beynəlxalq təhlükəsizliyə və əməkdaşlığın dərinləşməsinə misilsiz töhfələr verir. Bu isə Azərbaycan Prezidentinin dünya liderləri arasında xüsusi yerə malik olduğunun, xalqımızın və dövlətimizin milli maraqlarını təmsil etdiyinin növbəti təsdiqidir.

Nəzərə alsaq ki, bu gün Rusiya Federasiyası dünyanın aparıcı güc mərkəzlərindən biridir, Rusiya Prezidentinin Azərbaycanın dövlət başçısı ilə bağlı fikirləri bir daha cənab İlham Əliyevin dünya siyasətində yüksək nüfuzunu göstərir. Prezident İlham Əliyevin bölgədə sülhün və əmin-amanlığın qorunması, iqtisadi münasibətlərin daha da gücləndirilməsi, ölkələr arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində apardığı siyasət Cənubi Qafqaz regionunun dünyanın yeni iqtisadi mərkəzi kimi təşəkkül tapmasına yol açıb. Azərbaycan Prezidentinin səyi nəticəsində region ölkələrinin liderləri arasında üçtərəfli və dördtərəfli görüşlərin baş tutması, Şimal-Cənub logistika dəhlizinin yaradılması işləri bir daha bu fikirləri təsdiqləyir. Hazırda iki ölkənin iştirakı ilə bu layihənin yaradılması istiqamətində intensiv işlər həyata keçirilir. Qeyd edək ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Həmçinin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq ölkələri arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcək. Bu böyük layihənin reallaşması, onun təşəkkül tapması Azərbaycan Prezidentinin təşəbbüsü nəticəsində mümkün olub. Məhz Azərbaycan Prezidentinin nüfuzu və səyi qonşu dövlətlərin liderlərinin bir masa arxasında bu kimi vacib və qlobal layihələrin müzakirəsini təmin edib.

**AZƏRBAYCAN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNDƏN BİRİ KİMİ RUSİYANIN SƏYLƏRİNƏ HƏR ZAMAN HÖRMƏTLƏ YANAŞIR**

Vurğulandığı kimi, Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət kursu Azərbaycan ilə Rusiya arasındakı əlaqələrin daha da möhkəmlənməsinə imkan yaradıb. Son illərdə Prezident İlham Əliyevlə Prezident Vladimir Putin bir neçə dəfə görüşüblər. Keçirilən görüşlər çərçivəsində səsləndirilən fikirlər tərəflər arasında strateji tərəfdaşlığa və qarşılıqlı etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini göstərir. Bu isə Azərbaycanla Rusiya arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində sentyabrın 1-də sənədlərin imzalanması mərasimi başa çatandan sonra dövlət başçılarının mətbuata bəyanatlarla çıxışları zamanı da bu məsələlərə xüsusi olaraq toxunulub. Prezident İlham Əliyev **"Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir"**, - deyə vurğulayıb. Dövlətimizin başçısı onu da qeyd edib ki, Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur.

Azərbaycanla Rusiya müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı dərinləşdirməklə yanaşı, beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq edirlər. Qeyd edilməlidir ki, Azərbaycanla Rusiya beynəlxalq arenada, o cümlədən BMT, Avropa Şurası, ATƏT çərçivəsində münasibətlərin daha da möhkəmlənməsinə xidmət edən qarşılıqlı fəaliyyət göstərirlər. Azərbaycanın və Rusiyanın dövlət başçılarının yüksək səviyyəli əlaqələri regional təhlükəsizlik məsələlərində, ilk növbədə isə uzun illərdən bəri davam edən öz Azərbaycan xalqının böyük iztirablarına səbəb olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində mühüm yerə malikdir. Azərbaycan dövləti münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın səylərinə hər zaman hörmətlə yanaşır və inanır ki, Rusiya Federasiyası həm öz səyləri ilə, həm də ATƏT-in Rusiya, Fransa və ABŞ-in daxil olduğu Minsk qrupunun həmsədr üçlüyünün üzvü kimi münaqişənin həlli ilə bağlı razılaşmaların əldə edilməsinə nail olmaq üçün əlindən gələni edəcək.

**AZƏRBAYCANLA RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏLAQƏLƏR UĞURLA İNKİŞAF ETDİRİLİR**

Yeri gəlmişkən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin inkişafına təkan verən mühüm faktorlardan biri də ölkələr arasındakı iqtisadi əlaqələrdir. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin ölkə başçısı kimi fəaliyyət göstərdiyi son 15 ildə bu əlaqələr yüksələn xətlə inkişaf edib. Bunun nəticəsidir ki, 2017-ci ilin yekununa görə, Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi təxminən 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Bu isə olduqca yüksək göstərici sayılır.

İki güclü region dövlətinin iqtisadi sahədə əməkdaşlığının spektri isə kifayət qədər genişdir. Neft-qaz sahəsində əməkdaşlıq Azərbaycanla Rusiya arasında iqtisadi münasibətlərin ənənəvi və çox mühüm halqasını təşkil edir. Bundan başqa, Azərbaycanla Rusiya arasında uğurlu iqtisadi əməkdaşlığın digər bir mühüm istiqaməti elektroenergetika sektorudur. Azərbaycanın Rusiyaya və qonşu ölkənin respublikamıza investisiya qoyuluşunu getdikcə artırmaları da olduqca müsbət haldır. Bu, bir tərəfdən, hər iki ölkədə investisiya cəlbediciliyinin yüksək olmasını təsdiqləyir, digər tərəfdən isə, qarşılıqlı inamı əks etdirir.

İkitərəfli münasibətlər iki ölkənin regionları arasında da əlaqələrin inkişaf dinamikasını sürətləndirib. Ümumiyyətlə, dövlət başçılarının siyasi iradəsi əsasında 9 dəfə regionlararası forumun keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Hazırda iki ölkənin ayrı-ayrı regionları arasında əlaqələr kifayət qədər yüksək səviyyədədir. Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır.

Nəticə etibarilə, Azərbaycan ilə Rusiyanın regionları arasında çox fəal əməkdaşlıq münasibətləri formalaşıb və bu əlaqələrin formalaşmasında Prezident İlham Əliyevin apardığı siyasət kursu, şəxsi nüfuzu mühüm əhəmiyyətə malikdir.

**Pərviz SADAYOĞLU**

# Almaniyanın ictimai televiziyası erməni mafiyasını ifşa etdi

*"Mərc mafiyası: Almaniya və mütəşəkkil futbol cinayətkarlığı" adlı sənədli filmdə qeyd edilir ki, mütəşəkkil cinayətkarlığın ən qorxunc və ən təhlükəli qruplaşmalarından hesab olunan erməni mafiyası bütün Avropada, o cümlədən Almaniyada fəaliyyət göstərir*

Məlum olduğu kimi, noyabrın əvvəlində Almaniyada erməni mafiyasının fəaliyyəti və yerli hüquq-mühafizə orqanlarının neçə illərdir bu cinayətkar qruplaşmalarla mübarizədə çətinlik çəkdiyi barədə KİV-də yayılan xəbərlər bu ölkədə və ümumilikdə dünyada böyük rezonans doğurmuşdu. Bu dəfə isə Almaniyanın ARD ictimai televiziyasında 19 dekabr 2018-ci il tarixində efirə getmiş "Mərc mafiyası: Almaniya və mütəşəkkil futbol cinayətkarlığı" adlı sənədli filmdə və həmin televiziyanın "sportschau.de" idman xəbərləri saytında dərc olunmuş "Erməni mərc mafiyası Almaniyada da fəaliyyətdədir" başlıqlı məqalədə Almaniyadakı erməni mafiya şəbəkəsinin idman oyunları üçün keçirilən mərclərdə qanunsuz manipulyasiyalar etməklə gəlir əldə etməsindən bəhs olunur.

Həmin materiallarda Almaniyadakı erməni mafiyasının mütəşəkkil cinayətkarlığın ən təhlükəli qruplaşmalarından hesab olunduğu və bu şəbəkənin təkcə Almaniyada deyil, bütün Avropada fəaliyyət göstərdiyi qeyd edilir. ARD televiziyasının erməni mafiyası daxilində məxfiliyi qorunan mənbəyə istinadən təqdim etdiyi məlumata görə, erməni mafiyası müxtəlif idman növlərində yayğı transmilli əlaqələrə malikdir və idmançılarla əlaqələr hesabına idman oyunlarının mərcində manipulyasiyalar edilir. Belə ki, bu cinayətkar şəbəkə futbol, həndbol, basketbol, voleybol, tennis və digər idman oyunları üçün keçirilən mərclərdə qanunsuz manipulyasiyalar etməklə gəlir əldə edir. Mənbənin ARD-yə təqdim etdiyi siyahıda erməni mafiyasının Almaniyadakı üzvlərinin mərclərdən qazanmaq metodları öz əksini tapıb. Mənbənin verdiyi məlumata görə, mərc sindikatları var və sindikatın mərkəzində "xaç atası" dayanır. Onun göstərişi ilə "fixer" adlandırılan şəxslər idman oyunlarının manipulyasiya edilməsi üçün idmançıları, idman funksionerlərini və hakimləri rüşvətlə ələ alırlar.

Onu da qeyd edək ki, 2008-ci ildə Almaniyada futbol oyunlarında olan manipulyasiyaları araşdırmaq məqsədilə Boxum polisi tərəfindən yaradılmış "Soko Flankengott" adlı əməliyyat qrupunun aparıcı şəxslərindən biri, kriminal polis əməkdaşı



Mixael Bahrs erməni cinayətkar qruplaşmalarının Almaniyada dələduzluq yolu ilə gəlir əldə etdiyini təsdiq edib.

ARD-nin məlumatında o da bildirilir ki, Almaniyadakı erməni mafiyası Belçikadakı erməni mafiyası ilə idman mərclərinə dair məlumat mübadiləsi edir. Xatırladaq ki, erməni mafiyasının bu fəaliyyəti ilə əlaqədar cari ilin iyun ayında Brüsseldə keçirilən əməliyyatda Belçika tennisçilərinə məğlub olmaq üçün rüşvət verildiyi faktı ortaya çıxarılıb, 13 şəxs həbs edilib, 6 erməniyə qarşı ittiham irəli sürülüb. Belçikadakı polis əməliyyatından sonra iz itirmək məqsədilə bu əlaqələrə bir müddət son qoyulsa da, bir neçə aydan sonra şəbəkənin fəaliyyəti tam bərpa edilib.

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, noyabr ayında Avropadakı beynəlxalq qurumlarda lobbiçilik fəaliyyəti aparan şəxslərlə sıx əlaqədə olan erməni mafiyasının mövcudluğuna dair məlumatlar da yayılmışdı. Həmin məlumatlarda da bildirildiyi kimi, böyük maliyyə resurslarına malik olan, Almaniyada və digər Avropa ölkələrində kök atmış erməni mafiyası həmin şəxslərin hesabına Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası və digər qurumlarda siyasətçilərin pul yolu ilə ələ alınması, onların Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərinin təşkil olunması, Avropa ölkələrinin mətbuat orqanlarında Azərbaycana qarşı kampaniyaların aparılmasını həyata keçirir. Yəni erməni mafiyası əslində erməni lobbisidir və kifayət qədər siyasiləşmiş radikal təşkilatdır. Avropanın paytaxtı hesab olunan Brüsseldə erməni mafiyasının "xaç atası" brilyant biznesi ilə məşğul olan Kaspar Karampetyan, İsveçrədə isə məşhur "Frənk Müller" saatlarının istehsalçısı, Azərbaycanın işğal olunmuş ərazilərində təbii sərvətləri talan edən Vartan Sermakesdir. Çox güman ki, Almaniya polisinin ardınca Belçika və İsveçrənin hüquq-mühafizə orqanları da bu şəxslərin fəaliyyətini araşdıracaq.

Onu da qeyd edək ki, ARD televiziyasında efirə gedən sənədli film və həmin televiziyanın saytında gedən məqalədəki məlumatlar 2 noyabr 2018-ci il tarixində "Spiegel online" xəbər saytında dərc edilmiş "Erməni mafiyası Almaniyada necə fəaliyyət göstərir" başlıqlı məqalə və 7 noyabr 2018-ci il tarixində ARD ictimai televiziyalar qrupuna daxil olan MDR televiziya kanalında efirə verilməsi Berlin məhkəməsinin qərarı ilə dayandırılmış "Almaniyada xaç ataları: erməni mafiyası və qanuni oğrular" sənədli filmindən sonra alman mətbuatının erməni mafiyası ilə bağlı araşdırmalarının yeni nəticələridir.

Sonda onu da bildirək ki, araşdırmaların mərkəzində Almaniyanın ictimai televiziyalarının dayanması və yayılan məlumatlarda Almaniyanın hüquq-mühafizə orqanlarından istinadların təqdim edilməsi bu mövzunun istiqamətləşdirilməsi Almaniyanın dövlət qurumlarının da maraqlı olduğuna işarə edir. Bu isə onu deməyə əsas verir ki, tezliklə erməni mafiyasının həm Almaniyadakı, həm də ümumilikdə Avropadakı fəaliyyətinə dair yeni faktlar ortaya çıxa bilər.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Dövlət aqrar sektorun müxtəlif sahələrinə olduğu kimi, meyvəçilik sahəsinə də xüsusi diqqət göstərir

*Göstərilən diqqət və qayğı bölgələrdə əhalini öz pay torpaqlarında yeni meyvə bağları salmağa həvəsləndirib*



Məlum olduğu kimi, son illərdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanda bütün sahələr, o cümlədən aqrar sahə inkişaf edib. Daha dəqiq desək, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Nəticədə isə kənd təsərrüfatında ardıcıl artım qeydə alınır. Təbii ki, ölkəmiz kənd təsərrüfatının potensialından səmərəli istifadə etməklə bir tərəfdən ərzaq məhsullarına olan daxili tələbatı sırf yerli istehsal hesabına ödəməyi, digər tərəfdən isə aqrar sektordan ixrac həcmlərini artırmaqla respublikaya əlavə valyuta axınını təmin etməyi hədəfləyib. Aqrar sektorun inkişafından danışarkən vurğulamaq yerinə düşər ki, Azərbaycanda bu sektorda gəlirli sahələrdən olan meyvəçiliyin inkişafı da diqqət mərkəzində saxlanılır. Regionlarda meyvə bağlarının əraziləri genişləndirilir, keyfiyyətli məhsul əldə olunması üçün lazımi addımlar atılır. Məhz bu diqqətin və qayğının nəticəsidir ki, bu ilin arxada qalan aylarında da regionlarda meyvəçiliklə bağlı uğurlar əldə edilib.

Məsələn, Ağsu rayonunda artıq meyvə yığımı başa çatıb və bağlardan 11 min 421 ton məhsul tədarük olunub. Rayon Statistika İdarəsindən bildirilib ki, cari ildə istehsal edilən meyvə ötən ildəkindən 380 ton çoxdur.

Mütəxəssislər 2018-ci ili bölgədə meyvəçilik üçün əlverişli il hesab edirlər. Bu il xüsusilə dağlıq ərazilərdə, o cümlədən Kalva, Nuran, Dilman, Xatman, Hacman və digər yaşayış məntəqələrindəki bağlarda alma, armud, qoz, dağətəyi ərazilərdə - Pirhəsənli, Qaraqaşlı, Nəmirli və digər yerlərdə nar, xurma, cənub ərazilər olan Kəndoba, Cəlayir, Rəhimlidə heyva bol olub. Ümumiyyətlə, rayonda yerli şərait üçün ənənəvi olan alça, gavalı, əncir və digər meyvələr də ötən ildəkindən çox tədarük edilib. Bir sıra məhsullar, o cümlədən nar və xurma yerli bazarlarla yanaşı, Rusiya bazarlarına da ixrac olunub.

Neftçalada da meyvə yığımı başa çatıb. Bağbanlar becərdikləri 591 hektar meyvə bağından 1849 ton meyvə tədarük ediblər. Rayon Statistika İdarəsindən bildiriblər ki, cari ildə neftçalalı bağbanların tədarük etdikləri meyvə ötənilkindən 327 ton və ya 21,5 faiz çox olub. Yığılan məhsulun 120 tonunu alma, 60 tonunu armud, 195 tonunu heyva, 59 tonunu ərik, 230 tonunu gavalı, 172 tonunu alça, 27 tonunu şaftalı, 26 tonunu gilas, 792 tonunu nar, qalanını isə xurma, qoz, fındıq, əncir, albalı və digər meyvələr təşkil edib. Tədarük olunan meyvənin demək olar ki, üçdəbiri Aşağı Qaramanlı, Yuxarı Qaramanlı, Surra və Xolqarabucaq kəndlərinin payına düşür. Ən yüksək nəticə isə üzüm bağlarından əldə olunub. Rayonda mövcud olan 134,1 hektar üzüm bağından 307,5 ton məhsul götürülüb.

Artıq bir müddətdir ki, Astaranın sitrus bağlarında portağal yığımına başlanılıb. Rayonun sitrusçuluqla məşğul olan fermerləri və məhsul istehsalçıları bu il bol məhsul yetişdiriblər. Astara Rayon Statistika Komitəsindən verilən məlumata əsasən, ötən il rayonda 323,2 hektar sitrus bağlarından 2492,3 ton portağal yığılıb. Bu il isə portağalın əkin sahəsi 49 hektar artırılaraq 372 hektara çatdırılıb. Bağlardan 2542 ton məhsulun yığılması proqnozlaşdırılır.

Rayonun sitrusçuları portağalın həm həcminə, həm də dadına görə fərqlənən "Vaşinqton" növünə üstünlük verirlər. Portağalın bir kiloqramının qiyməti 1-1,5 manat arasındadır. Əsasən yerli bazara çıxarılan portağalın yığım kampaniyası dekabr ayının sonuna kimi davam edəcək.

Ölkəmizin əsas üzümçülük rayonlarından olan Göygöldə bu mövsüm 8 min 481,4 ton üzüm toplanılıb. Bu keçən illə müqayisədə 1952,4 ton və ya 29,9 faiz çoxdur. Rayon Statistika İdarəsindən bildirilib ki, üzümün 783,1 tonu əhali təsərrüfatlarından, 7698,3 tonu isə kənd təsərrüfatı müəssisələrindən yığılıb.

İqtisadiyyatının əsasını müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edən Samux rayonunda meyvəçilik əsas sahələrdən biridir. Hazırda rayonda tumlu, qərzəkli, çəyirdəkli, quru subtropik və sair tipli meyvə növləri yetişdirilir. Rayonda meyvə ağacları əsasən əhalinin həyətyanı sahələrində üstünlük təşkil edir. Bununla belə, son illərdə dövlətin aqrar sektorun müxtəlif sahələrinə olduğu kimi meyvəçilik sahəsinə də göstərdiyi diqqət rayon əhalisini öz pay torpaqlarında yeni meyvə bağları salmağa həvəsləndirib.

Samux Rayon Statistika İdarəsindən bildirilib ki, 2018-ci ildə rayondakı meyvə və giləmeyvə bağlarının ümumi sahəsi 1812 hektara çatdırılıb. Həmin bağlardan 1343,6 hektarı bar verən, 468,4 hektarı isə yeni salınanlardır. Bu il sahələrdən 17 min 352 ton meyvə və giləmeyvə, o cümlədən 9081 ton xurma, 1843 ton nar, 1151 ton ərik, 700 ton alma, 655 ton alça, 596 ton armud, 470 ton əncir, 460 ton gavalı, 447 ton zoğal, 358 ton gilas, 304 ton qoz, 291 ton şaftalı, 285 ton heyva, 78 ton albalı, 61 ton fındıq, 150 ton əzgil, 374 ton digər meyvələr və 48 ton giləmeyvə yığılıb.

Meyvənin məhsuldarlığı hər hektara görə 95,8 sentner olub. Meyvə və giləmeyvənin 440 tonu kənd təsərrüfatı müəssisələrində, 16 min 912 tonu isə əhali təsərrüfatlarında istehsal olunub.

Onu da bildirək ki, meyvəçiliyin inkişafı istiqamətində atılan addımlar davamlı xarakter daşıyır. Belə ki, Şimal bölgəsinin rayonlarında son üç ildə 10 min hektardan çox yeni fındıq bağları salınıb. Fındıq istehsalı bu rayonların iqtisadiyyatında mühüm rol oynayır. Hazırda Xaçmaz, Quba, Qusar və Şabranda 20 min hektara yaxın fındıq bağı var.

Regiondakı fındıq bağlarının 9 min 122 min hektarı Xaçmaz rayonunun payına düşür. Bu bağların 6 min hektarı barverəndir. Rayonun fındıq bağlarından bu il 6 min 500 tondan çox məhsul əldə olunub. Xaçmaz rayonunda son 3 ildə fındıq bağlarının sahəsi iki dəfəyədək artırılaraq 9 min hektarı keçib. Təsərrüfatçılar əkin prosesini davam etdirirlər. 2018-ci ilin payız mövsümündə rayonda 700 hektara yaxın fındıq bağı salınıb. Fındıq bağlarının ümumi sahəsinin 10 min hektara çatdırılması nəzərdə tutulub. Yeni salınan bağlarda əsasən yerli sort tinglər əkilir. Bu bağlar 4-5 ildən sonra məhsul verməyə başlayacaq.

Xaçmaz respublikada fındıq bağlarının artırılması nəzərdə tutulan 12 rayondan biridir. Ölkə üzrə 40 min hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulur ki, bunun da 5 min 16 hektarı Xaçmaz rayonunun payına düşür. Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzinin baş mütəxəssisi Qabil Ağabalayev bildirib ki, fındıq bağlarında məhsuldarlıq ötən illərə müqayisədə artıb. Fermerlər dövlətin onlara ayırdığı güzəştlərdən faydalanaraq bağlara daha yaxşı qulluq edirlər. Məhsulun bol olması isə bağ sahiblərinin daha çox gəlir əldə etməsinə imkan yaradır.

Rayonun Çiləgir kəndindən olan fermer Oktay Mahmudovun sözlərinə görə, son illər fındıqçılığa maraq xeyli artıb. Təsərrüfatçılar əvvəllər yalnız şaftalı, alma, gavalı bağları salırdısa, indi daha çox fındıq bağlarına üstünlük verirlər. Fındığın yetişdirilməsi digər meyvələrlə müqayisədə az zəhmət tələb edir. Xaçmaz rayonunda 21 min 386 hektar meyvə bağı var ki, bunun da təxminən 40 faizini fındıq bağları təşkil edir.

Qusar fındıq əkininə görə şimal bölgəsində ikinci yerdədir. Bu rayonda 6 min 139 hektar fındıq bağları mövcuddur. Qusar Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, mövcud fındıq bağlarının 2 min 200 hektarı son illərdə salınıb. 100 hektar bağ intensiv üsulla becərilir. Rayondakı 3 min 324 hektar bar verən fındıq bağından təsərrüfatçılar bu il 3 min 100 ton fındıq əldə ediblər.

Ölkəyə valyuta gətirən bu məhsula son zamanlar tələbatın daha da artması torpaq mülkiyyətçilərini fındıq bağlarının sahəsini genişləndirməyə sövq edir. Fındığın satış qiymətinin münasib olması fermerləri həvəsləndirən amillərdəndir. Məsələn, Quba rayonunda son 3 ilə kimi cəmi 115 hektar fındıq bağı mövcud idi. Hazırda isə fındıq bağlarının ərazisi 2 min 140 hektara qədər artırılıb.

Şabran da respublikada fındıq bağlarının artırılması nəzərdə tutulan rayonlardan biridir. Burada 1000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulurdu. Təsərrüfatçılar 2016-cı ildən başlayaraq nəzərdə tutulan plan əsasında fındıq bağlarının sahəsini 1200 hektara çatdırıblar. Yeni salınan fındıq bağlarında əkilən tinglər əsasən Zaqatala-Balakən zonasından gətirilib. Bundan əvvəl rayonda mövcud fındıq bağlarının ümumi sahəsi 176 hektar təşkil edirdi.

Azərbaycan dünya ölkələri içərisində fındıq ixracına görə ilk pillələrdə yer alır. Ölkəmizdə fındığın 130-dan çox sortu yetişdirilir. Mütəxəssislər bildirirlər ki, fındıq kollarının indiki məhsuldarlığını iki dəfəyədək artırmaq mümkündür. Əksər bağ sahibləri fındığın yetişdirilməsi haqqında səhv təsəvvürə malikdir. Təsərrüfatçılar kol bitkisi olduğunu düşünüb fındığın budanmasını, dərmanlanmasını həyata keçirmir və ağaclara gübrə vermirlər. Halbuki bu aqrotexniki qaydalara əməl olunarsa, fındıq kollarından 5-6 yox, 12-13 kiloqram məhsul toplamaq mümkündür.

Eyni zamanda bu ilin yaz və payız mövsümlərində Şəki Regional Meşə Təsərrüfatı Mərkəzinin Qax Meşəbəyliyi tərəfindən rayon ərazisində dövlət meşə fonduna aid 54 hektar sahədə aqromeşələr salınıb. Yeni salınan meşəliklərin 43 hektarına fındıq, 7 hektarına qoz, 2 hektarına şabalıd, 2 hektarına isə ərik və tut tingləri əkilib. Meşəbəylikdən bildiriblər ki, dövlətimizin başçısının göstərişinə uyğun olaraq, 2016-cı ildən başlayaraq meşə əkini işləri zamanı kənd təsərrüfatı əhəmiyyətli kol və ağac tinglərinin əkininə, aqromeşələrin, bağların salınmasına üstünlük verilir. Əkin zamanı əsasən fındıq, qoz, şabalıd, tut və digər ağac tinglərindən istifadə olunur.

Qeyd edək ki, 2016-2018-ci illərdə Qax rayonu ərazisində 242 hektar sahədə aqromeşələr salınıb. Yeni bağların salınması məqsədilə bu ilin yaz mövsümündə müəssisənin tinglik təsərrüfatında 0,4 hektar sahəyə müxtəlif növ meyvə tingləri əkilib. İlin sonunadək daha 0,8 hektar sahəyə yeni tinglər əkiləcək. Bundan əlavə, hazırda müəssisənin tinglik təsərrüfatında əvvəlki illərdə əkilmiş 374 min ədəd meyvə tingi də yetişdirilir.

**Nadir AZƏRİ**

# Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Suraxanı rayonundakı 2 saylı uşaq evində görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı ilə Suraxanı rayonundakı 2 saylı uşaq evində görüş keçirilib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov dövlətimizin diqqət və qayğısı ilə əhatə olunmuş bu körpələrə, həmçinin onlara gecə-gündüz xidmət edən insanlara mənəvi dəstəyin gənclərin borcu olduğunu qeyd edib və diqqətə çatdırıb ki, qayğıya daha çox ehtiyacı olan kimsəsiz uşaqlarla görüşmək, onlarla birlikdə olmaq ənənəsi məhz Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün də bu ənənə davam etdirilir. Ölkəmizdə kimsəsiz uşaqlar üçün bütün şərait yaradılıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə böyük layihələr həyata keçirilir. Bu ənənələrin davam etdirilməsi, gənclərimizin bu məkanlara diqqətinin artırılması istiqamətində YAP gənclərinin təşkil etdiyi ziyarətlər də davamlı olacaqdır.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin açdığı bayram süfrəsi və tanınmış müğənnilərin iştirakı ilə əyləncə proqramı uşaq evinin sakinlərinin sevincinə səbəb olub. Gənc fəallar qayğıya ehtiyacı olan uşaqlara müxtəlif məktəb ləvazimatları və hədiyyələr təqdim ediblər.

# Dövlət qulluqçuları ilə jurnalistlər arasında futbol üzrə yoldaşlıq görüşü keçirilib





Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə dekabrın 24-də dövlət qulluqçuları ilə jurnalistlər arasında futbol üzrə yoldaşlıq oyunu keçirilib.

AZƏRTAC xəbər verir ki, "ASK Arena"da oynanılan və gərgin idman mübarizəsi şəraitində keçən görüşdə qalib müəyyənləşməyib. Oyun 6:6 hesabı ilə başa çatıb.

Yoldaşlıq görüşü Milli Məclisin Gənclər və idman komitəsinin, Diasporla İş üzrə Dövlət Komitəsinin və Parlament Jurnalistləri Birliyinin (PJB) təşkilatçılığı ilə baş tutub.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev jurnalistlərə müsahibəsində belə futbol görüşlərinin və yarışlarının hər il ənənəvi olaraq təşkil edildiyini vurğulayıb. Dövlət qulluqçuları ilə jurnalistlər arasında dostluq görüşünün məqsədinin gəncləri sağlam həyat tərzinə çağırış olduğunu deyən komitə sədri bildirib: **"Azərbaycan Prezidenti İlham Əliyev idman və gənclər sahələrinə xüsusi diqqət yetirir. Dövlətimizin başçısı daim qeyd edir ki, Azərbaycan gənclərinin sağlam, bilikli, savadlı, peşəkar olması bizim əsas məqsədlərimizdəndir. Ölkəmizdə bu istiqamətdə mühüm işlər görülür, dövlət səviyyəsində tədbirlər keçirilir. Biz dövlətimizin başçısının siyasətini fəal şəkildə dəstəkləyirik. Bu gün də həmin dəstəyi nümayiş etdirərək gənclərimizi sağlam həyat tərzinə çağırırıq".**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov jurnalistlərə müsahibəsində bildirib ki, matç olduqca yüksək əhval-ruhiyyədə keçdi. Milli Məclisin Gənclər və idman komitəsinin, Diasporla İş üzrə Dövlət Komitəsinin, Parlament Jurnalistlər Birliyinin, "Neftçi" veteranlar klubunun nümayəndələri, jurnalistlər bu dostluq görüşündə fəal iştirak etdilər. Azərbaycanda idman sürətlə inkişaf edib. Çox şadıq ki, jurnalistlərimiz, veteranlarımız, dövlət qulluqçularımız, o cümlədən Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları da bu görüşdə fəal iştirak etdilər.

**"Azərbaycanda son 15 ildə əldə edilən uğurlar bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlıdır. İnanırıq ki, işğal altındakı torpaqlarımız Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə tezliklə azad olunacaq və biz belə oyunları doğma Qarabağımızda, o cümlədən Şuşada, Laçında, Kəlbəcərdə və digər şəhərlərimizdə təşkil edəcəyik. Bu oyuna verdikləri dəstəyə görə ictimaiyyətə, jurnalistlərimizə, veteranlarımıza təşəkkürümü bildirirəm. Bu idman tədbiri bir daha göstərir ki, Azərbaycan xalqı həmrəydir"**, - deyə F.Muradov bildirib.

Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı qarşılaşmanın yüksək səviyyədə keçdiyini vurğulayaraq deyib: **"Bu gün olduqca maraqlı oyun izlədik. Hər iki komanda yaxşı oyun nümayiş etdirdi. Bu tədbirin təşkilinə dəstək verənlərə, oyunda iştirak edənlərə dərin minnətdarlığımı bildirirəm".**

# Azercell-in dəstəyi ilə məktəblilərimizin daha bir uğuru

*Tbilisidə informatika fənni üzrə Beynəlxalq Olimpiadada komandamız ikinci olub*



Gürcüstanın paytaxtı Tbilisidə keçirilən məktəblilərin informatika fənni üzrə Beynəlxalq komanda olimpiadasında şagirdlərimiz ölkəmizi layiqincə təmsil ediblər. Yarışda Cənub regionu üzrə 2-ci yerə layiq görülən komandamız Beynəlxalq komanda olimpiadasının üçüncülük diplomu ilə mükafatlandırılıb. Cənub regionu üzrə 19 komandanın yarışdığı olimpiadada Azərbaycanı Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin şagirdləri Abutalıb Namazov, Murad Eynizadə və İbrahim Tağızadə təmsil edib.

Məktəblilərimizin uğur qazanmasında "Azercell Telekom" MMC-nin də böyük rolu olub. Belə ki, məktəblilər yarışa Respublika Beynəlxalq Olimpiadalara hazırlıq mərkəzində Təhsil Nazirliyi və "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyi ilə hazırlaşıblar. Məşğələlərdə şagirdlərin olimpiadalara hazırlıq prosesinin stimulllaşdırılması, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, elmi potensialının nümayiş etdirilməsi üçün mərkəz tərəfindən hər tərəfli şərait yaradılıb. Qeyd edək ki, müsabiqədə iştirak etməkdə məqsəd 2019-cu ildə keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasının (İOİ) hazırlıq planına uyğun olaraq, şagirdlərimizin bilik səviyyələrini müəyyənləşdirmək, təcrübələrini artırmaq və hazırlıq prosesini daha da intensivləşdirmək idi. 2019-cu ildə ölkəmizdə təşkil olunacaq Beynəlxaq İnformatika Olimpiadasında dünyanın 80-ə yaxın ölkəsindən 300-dən çox şagirdin iştirakı gözlənilir. Məlumat üçün bildirək ki, Korporativ Sosial Məsuliyyət strategiyasında təhsilin və gələcəyimiz olan uşaqların inkişafına yönəlik layihələri ilə hər zaman seçilən "Azercell Telekom" MMC oktyabr ayında Yaponiyanın elm və texnologiya mərkəzlərindən biri olan Tsukuba şəhərində keçirilən Beynəlxalq İnformatika Olimpiadasında ölkəmizi təmsil edən məktəblilərə də dəstək olmuşdu.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC",**
**"Azadinform", "SİA"**

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU